RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 165 (10185) 11 sentyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Prezident İlham Əliyev yeni müəssisənin açılışını edib

## Almaniya, İtaliya və Türkiyənin müasir texnologiyalarının tətbiqi ilə kağız və gigiyenik məhsullar istehsal olunacaq

2

# Azərbaycan Prezidenti İslam Əməkdaşlıq Təşkilatının Baş katibini təbrik edib

## İslam Əməkdaşlıq Təşkilatının Baş katibi zati-aliləri cənab İsmail Uld Şeyx Əhmədə

Hörmətli cənab Baş katib!

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan İƏT ilə əməkdaşlığa xüsusi önəm verir və əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur. Təşkilata üzv olduğumuz 35 il ərzində Azərbaycan İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, İslam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, təşkilatın beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir.

Azərbaycan da öz növbəsində, daim İƏT-in ardıcıl dəstəyini hiss etmişdir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzü zamanı və postmüharibə dövründə İƏT qətiyyətli mövqe nümayiş etdirərək, işğalı şiddətlə qınayan, Azərbaycanın haqq işini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərini alqışlayan qətnamələr və bəyanatlar qəbul etmişdir. Biz bütün bunları yüksək qiymətləndiririk.

Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mövcud olan sıx əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyimi ifadə edirəm. Bildiyiniz kimi Azərbaycan 2027-ci ildə İslam Zirvə Konfransının 16-cı sessiyasına, həmçinin İnformasiya Nazirlərinin İslam Konfransının 13-cü sessiyasına və digər tədbirlərə ev sahibliyi edəcəkdir. Bu istiqamətdə Sizinlə sıx və səmərəli əməkdaşlıq edəcəyimizə ümid edirəm.

İnanıram ki, Sizin bu mötəbər təşkilata rəhbərliyiniz İƏT-in qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsinə, İslam həmrəyliyinin güclənməsinə xidmət edəcəkdir.

Bir daha Sizə səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, İslam dünyasının rifahı naminə şərəfli işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

# Avrasiyanın güc mərkəzi

## Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə dərinləşən tərəfdaşlığı hər iki regionu vahid strateji məkanda birləşdirir



Azərbaycanın ümumilikdə Mərkəzi Asiya dövlətləri ilə münasibətləri ikitərəfli çərçivələri aşaraq regional tərəfdaşlığın əsasını qoyub. Prezident İlham Əliyevin avqustun 31-də Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak etmək məqsədilə Qırğız Respublikasına işgüzar səfəri və bu çərçivədə imzalanan müttəfiqlik münasibətləri haqqında müqavilə ölkəmizin Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında siyasi, iqtisadi və nəqliyyat əlaqələrinin gücləndirilməsindəki aparıcı rolunu bir daha təsdiqlədi.

Dövlət başçıları səviyyəsində müntəzəm səfərlər və görüşlər prosesə güclü təkan verdi. Statistika da bu dinamikanı sübut edir. 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 17 dəfə səfər etməsi, region liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi Cənubi Qafqaz və Mərkəzi Asiyanın vahid siyasi-iqtisadi məkan kimi fəaliyyət göstərdiyinin bariz göstəricisidir.

Bu strategiyanın mühüm dönüş nöqtəsi 2025-ci ilin noyabrında Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü olub. Azərbaycanın xüsusi qonaq statusundan tamhüquqlu iştirakçı statusuna keçməsinə dair tarixi qərarın qəbul edilməsi ilə əvvəllər "5+1" olan format faktiki olaraq C6 müstəvisinə keçdi. Bu tarixi addım Azərbaycanın Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, Mərkəzi Asiya regionunun ayrılmaz parçası, regional qərarların qəbulunda aparıcı ölkə olduğunu rəsmiləşdirdi.

8



# Müstəqillik tariximizin yazıldığı ilk ünvan

## "Azərbaycan" qəzetinin Gəncə dövrü

1918-ci il sentyabrın 15-də Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində "Azərbaycan" qəzetinin ilk sayı işıq üzü gördü. Azərbaycan dilində buraxılmış səhifələrinin başında, qəzetin adı ilə yanaşı qeyd olundu: "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır".

Müstəqil hökumətin çox ağır vəziyyətdə olduğu bir zamanda mətbuat meydanına çıxan "Azərbaycan" qəzetinin üzərinə böyük vəzifələr və məsuliyyət düşürdü. Bu mətbu orqan Azərbaycan Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından birinə çevrilməli idi. "Azərbaycan" millətin qürurverici tarixinə, sadəcə, yolyoldaşı olmayacaqdı. Bu qəzet Cümhuriyyət hökumətinin keşməkeşli yoluna yoldaş, çiyindaş olmalı idi. Yeni hökumətin öz vətəndaşlarına ünvanladığı müraciətləri, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirməliydi.

"Azərbaycan" qəzetinin ilk sayı A-3 formatda, dörd səhifə həcmində, iki dildə təqdim olundu. Qəzetin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dillərindəydi. Rusca nəşri xırda istisnalarla Azərbaycancanın tərcüməsi idi.

9

# Terrordan ən çox əziyyət çəkən ölkələrdən biri Azərbaycandır



Amerikalılar terrorun nə olduğunu 25 il əvvəl daha çox anladılar. Azərbaycan xalqı isə buna qədər nəinki onilliklər, əsrlər boyu erməni terrorunun ağrı-acısı ilə yaşayıb. Təkcə müasir statistika xalqımıza qarşı erməni terrorunun miqyasını və dəhşətini faktlarla ortaya qoyur.

1967-ci ildən 1994-cü ilə qədər ermənilər azərbaycanlılara qarşı 50-dən çox terror hadisəsi törədiblər. 1988-1993-cü illərdə ermənilər tərəfindən mülki şəxslərə və hərbçilərə qarşı törədilmiş terror aktları nəticəsində 1250 nəfər həlak olub, 1283 nəfər yaralanıb, 65 nəfər itkin düşüb.

3 iyul 1967-ci ildə Xankəndidə keçirilən məhkəmədən sonra ermənilər şərləyərək həbs etdirdikləri Qaradağlı kəndinin 3 sakininin olduğu polis maşınına hücum edib, onları qətlə yetirdikdən sonra üstlərinə benzin tökərək yandırıblar.

1988-ci ilin fevralında Əsgəranda iki azərbaycanlı gənc - Əli Hacıyev və Bəxtiyar Quliyev qətlə yetirildi.

10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" avtobusunun partladılması ilə 20 nəfər həlak oldu, 30 nəfər yaralandı.

20 noyabr 1991-ci ildə Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun vurulması nəticəsində Azərbaycanın dövlət xadimləri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər daxil olmaqla 22 nəfər həlak oldu.

1992-ci ilin yanvarında Kərkicahan qəsəbəsində 80 nəfər dinc sakin qətlə yetirildi. Həmin ilin 28 yanvarında isə "Ağdam-Şuşa" mülki vertolyotunun vurulması nəticəsində çoxu qadın və uşaq olan 44 nəfər həyatını itirdi.

8

# Prezident İlham Əliyev yeni müəssisənin açılışını edib

## Almaniya, İtaliya və Türkiyənin müasir texnologiyalarının tətbiqi ilə kağız və gigiyenik məhsullar istehsal olunacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da paytaxtın Qaradağ rayonunda "Fabriora Group" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) kağız və gigiyenik məhsulların istehsalı müəssisəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Fabriora Group" MMC-nin təsisçisi İbrahim Uygur dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisədə həm yerli bazar, həm də xarici ölkələrdən gətirilən xammal və materiallardan istifadə olunmaqla kağız və gigiyenik məhsullar, o cümlədən uşaq bezləri, müxtəlif salfetlər və yuyucu vasitələr istehsal ediləcək. On bir hektara yaxın ərazidə yerləşən müəssisədə Almaniya, İtaliya və Türkiyənin müasir və yüksək avtomatlaşdırılmış istehsal texnologiyaları tətbiq olunacaq.

Məhsullar daxili bazarla yanaşı, Gürcüstana, Qazaxıstana, Rusiyaya, Yaxın Şərq ölkələrinə və digər dövlətlərə ixrac ediləcək. Burada 240 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır.

Müəssisə İqtisadiyyat Nazirliyinin tabeliyində Əmlak Məsələləri Dövlət Xidmətinin təşkil etdiyi investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilib. Layihənin ümumi investisiya dəyəri 27 milyon manatdır.

"Fabriora Group" MMC investisiya təşviqi sənədi əsasında avadanlıq idxalı zamanı ƏDV və gömrük rüsumlarından 1 milyon manat dəyərində güzəşt əldə edib.

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye potensialının gücləndirilməsi və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsidir. Sənayeləşmə prosesinin mühüm nəticələrindən biri də ölkədə daha dayanıqlı istehsal və təchizat zəncirlərinin formalaşmasıdır. Yerli istehsalın genişləndirilməsi həm daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, həm də Azərbaycan məhsullarının xarici bazarlara çıxışının artırılmasına imkan yaradır.

















# Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının əlamətdar bayramlarından olan Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu məkan olmuş, burada ayrı-ayrı xalqların və etiqadların nümayəndələri arasında qarşılıqlı hörmət və etimada, dostluq və qardaşlığa əsaslanan nümunəvi ictimai münasibətlər formalaşmışdır.

Müasir Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin fundamental insan haqları və azadlıqları üçün demokratik-hüquqi şərait təmin edilmişdir. Cəmiyyətimizdə yüz illərlə hökm sürən etnik-dini tolerantlıq mühitində yəhudi icması milli-mənəvi dəyərlərini, dil və mədəniyyətini qoruyub-saxlamaqla, böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin sosial-mədəni həyatında yaxından iştirak edir, vətəndaş həmrəyliyinin möhkəmlənməsinə özünəməxsus töhfə verir .

Yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzi olan Roş ha-Şana münasibətilə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı arasında "Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda ağıllı, davamlı və inklüziv yaşayış məntəqələrinə doğru - Dayanıqlı şəhər inkişafı üçün inteqrə olunmuş ərazi planlaşdırması" layihəsinin icrası üçün Töhfə Sazişi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyulun 15-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı arasında "Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda ağıllı, davamlı və inklüziv yaşayış məntəqələrinə doğru - Dayanıqlı şəhər inkişafı üçün inteqrə olunmuş ərazi planlaşdırması" layihəsinin icrası üçün Töhfə Sazişi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Töhfə Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Töhfə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatı Məskunlaşma Proqramının Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

# Dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən istifadəyə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən istifadə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. dövlət büdcəsindən maliyyələşən təşkilatların (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti istisna olmaqla) büdcədənkənar vəsaitlərinin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsindən, bu Fərmanın 1.3-cü bəndi nəzərə alınmaqla, yalnız həmin təşkilatların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati və yardımçı vəzifə tutmayan işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün istifadə olunur;

1.2. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, dövlət büdcəsindən maliyyələşən təşkilatların (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti istisna olmaqla) büdcədənkənar vəsaitlərinin qalan hissəsi dövlət büdcəsinə köçürülür;

1.3. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, büdcədənkənar vəsaitlər hesabına verilən vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin yuxarı hədləri aşağıdakılardır:

1.3.1.vəzifə maaşına əlavələr - təqvim ayı ərzində hər bir işçiyə münasibətdə onun aylıq vəzifə maaşının 1,0 mislinədək;

1.3.2. mükafat və digər ödənişlər - təqvim ili ərzində illik əməkhaqqı fondunun 20 faizinədək.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. aşağıdakılar barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının ləğv edilməsi və həmin fondların mədaxil mənbələrindən istifadə olunması;

3.1.2. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

3.1.3. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanılması, istifadəsi və uçotunun aparılması qaydası;

3.1.4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin və Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin tabeliyində olan qurumların göstərdiyi ödənişli xidmətlərdən əldə edilən vəsaitlərin formalaşdırılması və istifadəsi;

3.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində, habelə bu Fərmanın 1.1-ci bəndinin təsir dairəsinə düşən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin vəzifə maaşlarında artımlar olduqda bu Fərmanın 1-ci hissəsi üzrə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi, bəzi fərmanlarının və sərəncamlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 624 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 228) 2.1-ci bəndi ləğv edilsin.

5. Bu Fərmanın 1.1-ci və 1.3-cü bəndləri 2026-cı il sentyabrın 1-dən tətbiq edilir və 1.2-ci bəndi 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

# "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi:

3.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı

### 1. Qısa xülasə

Qida təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin, əhalinin sağlamlığının və sosial rifahının təmin edilməsinin əsas komponentlərindən biridir. Əhalinin sağlam və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida zəncirinin bütün mərhələlərində təhlükəsizliyin təmin olunması və bu sahənin beynəlxalq standartlara uyğun tənzimlənməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Qida təhlükəsizliyi sahəsində həyata keçirilən genişmiqyaslı dövlət tənzimləməsi və nəzarət tədbirləri bu sahədə idarəetmənin səmərəliliyinin artırılmasına, risklərin azaldılmasına və qida təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərmişdir.

Qlobal iqlim dəyişikliyi, torpaqların deqradasiyası və su ehtiyatlarının azalması kimi ekoloji amillərin qida təhlükəsizliyinə təsiri, biomüxtəlifliyin azalması, yeni qida istehsalı və emalı üsullarının yaranması, urbanizasiya, dəyişən istehlakçı vərdişləri, həmçinin baytarlıq preparatlarının, pestisidlərin və digər kimyəvi maddələrin normadan artıq və nəzarətsiz istifadəsi risklərinin artması bu sahədə yeni yanaşmaların tətbiqini zəruri edir. Yeni çağırışların effektiv idarə olunması məqsədilə qida təhlükəsizliyi sahəsində kompleks və çoxşaxəli yanaşma tətbiq etməklə, risklərin elmi əsaslarla qiymətləndirilməsi, onların təhlükəsizlik baxımından tənzimlənməsi, institusional və insan resurslarının potensialının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda innovativ texnologiyaların və rəqəmsal həllərin tətbiqi, qida məhsullarının beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi, ixrac üçün zəruri olan beynəlxalq tələblərə uyğunluğun təmin edilməsi və elektron izləmə və sertifikatlaşdırma sistemlərinin genişləndirilməsi istiqamətləri üzrə bir sıra işlər görülməsinə ehtiyac vardır.

Qeyd edilən istiqamətlərdə aparılan ardıcıl islahatların davamı olaraq hazırlanmış "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) qlobal trendləri, Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində mövcud vəziyyəti, hədəf göstəricilərini, məqsədləri, prioritet istiqamətləri, maliyyələşmə mənbələrini və Tədbirlər Planını özündə ehtiva edir.

### 2. Qlobal trendlər

Davamlı sosial inkişafı əhalinin sağlamlığı olmadan təsəvvür etmək mümkün deyildir. Lakin 1960-cı ildən başlayan sürətli əhali artımı, texnologiya və qloballaşma nəticəsində sürətlənən yaşam tərzi sağlam qidalanma prinsiplərinin gündəlik həyatda tətbiqini çətinləşdirir. Hazırda sayı 8 milyardı ötən dünya əhalisinin qida ehtiyacını qarşılamaqla yanaşı, bu qidaların istehsalının və beynəlxalq ticarətinin davamlılığını, eləcə də məhsulların keyfiyyət və təhlükəsizliyini təmin etmək vacibdir.

Təhlükəsiz qida insan sağlamlığının və rifahının əsas şərtlərindən biridir. Hər kəsin təhlükəsiz qidaya, balanslaşdırılmış və sağlam qidalanmaya çıxış əldə etməsi fundamental insan hüququ olsa da, dünyanın bir çox ölkəsində insanlar hələ də bu hüquqdan tam şəkildə yararlana bilmirlər. Bunun nəticəsində əhali ictimai sağlamlığa və ümumi inkişaf proseslərinə ciddi təsir göstərən qida mənşəli xəstəliklərdən əziyyət çəkir. Tərkibində zərərli səviyyədə bakteriyalar, viruslar, parazitlər, kimyəvi və ya fiziki çirkləndiricilər olan qidalar 200-dən artıq xəstəliyə, hətta bəzi hallarda daimi əlilliyə və ya ölümə gətirib çıxara bilir. Ümumdünya Səhiyyə Təşkilatının (bundan sonra - ÜST) hesabatlarına görə, hər il 600 milyon insan çirklənmiş qida səbəbindən xəstələnir və bunun nəticəsində dünya üzrə 420 min ölüm halı baş verir.

ÜST tərəfindən hazırlanmış "2022-2030-cu illər üçün Qida Təhlükəsizliyi üzrə Qlobal Strategiya" üzv dövlətlərə qida təhlükəsizliyi sistemlərinin davamlı şəkildə gücləndirilməsi və qlobal əməkdaşlığın təşviqi yolu ilə qida mənşəli xəstəliklərin yaratdığı yükün azaldılması istiqamətində fəaliyyəti prioritetləşdirmək, planlaşdırmaq, həyata keçirmək, monitorinq aparmaq və mütəmadi olaraq qiymətləndirmək üçün rəhbərlik və dəstək məqsədi daşıyır. Strategiya maraqlı tərəflərə milli qida təhlükəsizliyi sistemlərini gücləndirmək və dünya üzrə tərəfdaşlarla əməkdaşlığı inkişaf etdirmək üçün zəruri alətləri təqdim edir. Bu Strategiyanın Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) töhfə verəcəyi gözlənilir.

Qida zəncirində antibiotiklərin və digər antimikrob maddələrin nəzarətsiz istifadəsi nəticəsində antimikrobrezistentlik sürətlə artır. Bu hal həm heyvanlarda, həm də insanlarda müalicəyə tabe olmayan infeksiyaların yayılmasına səbəb olur. Eyni zamanda heyvan mənşəli xəstəliklərin insanlara keçməsi səhiyyə və qida təhlükəsizliyi sistemləri üçün də ciddi təhdid yaradır. Urbanizasiya, intensiv heyvandarlıq və vəhşi heyvanlarla təmasın artması bu riskləri daha da gücləndirir.

Bu çağırışlara cavab olaraq qlobal səviyyədə "Vahid Sağlamlıq"konsepsiyası tətbiq olunur. İnsanın həyat və sağlamlığının, heyvan sağlamlığının və ətraf mühitin bir-biri ilə sıx əlaqəli olduğunu qəbul edən bu konsepsiya zoonoz xəstəliklərin qarşısının alınması, antimikrobrezistentliyə nəzarət, o cümlədən qida təhlükəsizliyinin təminində sektorlararası əməkdaşlığı təşviq edir.

İqlim dəyişikliyi nəticəsində temperaturun yüksəlməsi quraqlıqların, daşqınların və ekstremal hava dəyişkənliyinin ekosistemə təsiri ilə yanaşı, zərərvericilərin və patogen mikroorqanizmlərin bioloji yayılma riskini artırmaqla qida təhlükəsizliyi üçün də ciddi təhdidlər yaradır. Eyni zamanda qida məhsullarının yığımı, saxlanması və daşınması mərhələlərində istilik və rütubət balansının pozulması bioloji çirklənmə riskini artırır. Bu risklər fonunda bir çox ölkələr tərəfindən iqlim faktorlarını nəzərə alan qida təhlükəsizliyi strategiyaları hazırlanır. Qida zəncirinin bütün mərhələlərində temperatura və rütubətə həssas izləmə sistemlərindən istifadə etməklə müasir istehsal texnologiyaları tətbiq olunur. Erkən xəbərdarlıq sistemləri vasitəsilə iqlim faktorlarının qida təhlükəsizliyinə təsiri qabaqcadan təhlil olunur və preventiv tədbirlər planlaşdırılır.

Sürətlə dəyişən həyat tərzi, urbanizasiya və güclü qida marketinqi istehlakçıların qidalanma vərdişlərini də əhəmiyyətli dərəcədə dəyişdirir. Hazır və emal olunmuş qidalara tələbatın artması, "fast-food" istehlakının geniş yayılması, həmçinin onlayn sifariş və çatdırılma xidmətlərindən istifadənin artması bir çox hallarda həm qeyri-sağlam qidalanmaya, həm də qida məhsullarının saxlanma və daşınma mərhələlərində çirklənmə risklərinin artmasına səbəb olur. Bununla yanaşı, ehtiyac olandan artıq qida məhsulunun alınması və ya sifariş edilməsi, etiketə nəzər yetirilməməsi, xüsusilə son istifadə tarixini oxuma vərdişinin zəif olması nəticəsində qida israfı həm məişətdə, həm də iaşə müəssisələrində artmaqdadır. Bu isə yalnız ərzaq təhlükəsizliyi deyil, eyni zamanda düzgün saxlanılmayan və ya istifadə müddəti bitmiş məhsulların istehlakı səbəbindən qida təhlükəsizliyi risklərinin artması ilə nəticələnir.

Bu problemlərin həlli üçün bir çox ölkələrdə sağlam və təhlükəsiz qidalanma vərdişlərini təşviq edən maarifləndirmə kampaniyaları keçirilir. Qida israfının azaldılması məqsədilə iri market şəbəkələri, restoranlar və istehsalçılar tərəfindən artıq qida məhsullarının paylaşılması üzrə platformalar yaradılmaqdadır. Eyni zamanda uşaq bağçalarında və məktəblərdə sağlam və təhlükəsiz qidalanma vərdişlərinin təşviqi uzunmüddətli davranış dəyişikliyinə töhfə verir. Bu yanaşmalar həm qida təhlükəsizliyinin gücləndirilməsinə, həm də ətraf mühitin mühafizəsinə xidmət edir.

Qida məhsullarının bəyan edildiyindən fərqli tərkibdə istehlakçılara təqdim edilməsi, mənşəyə dair məlumatların yanlış verilməsi, son istifadə tarixlərinin düzgün göstərilməməsi kimi saxtalaşdırma halları daha çox rast gəlinən problemlər sırasındadır. Məhsulların saxtalaşdırılması istehlakçının aldadılması ilə yanaşı, qida məhsulunun insan sağlamlığı üçün təhlükə yaratmasına da səbəb ola bilir.

Bu problemin aradan qaldırılması istiqamətində son illərdə beynəlxalq miqyasda istehsalçıların etik və sosial məsuliyyətli istehsal prinsiplərinə uyğun fəaliyyətə təşviq edilmələri müşahidə olunur. Belə ki, məhsulların düzgün qaydada etiketlənmə, izlənilmə sistemi, təhlükəsizliyə nəzarət mexanizmlərinin tətbiqi artıq yalnız tələb deyildir, bu eyni zamanda istehlakçı inamının və rəqabətqabiliyyətliliyin təmin olunması üçün vacib şərtlərdən birinə çevrilmişdir.

Proqnozlara görə, 2030-cu ilədək qida məhsullarına tələbatın 50 faiz artacağı gözlənilir. Bu isə, öz növbəsində heterogen və kompleks qida-tədarük zəncirini daha da mürəkkəbləşdirir. Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatlarına əsasən, aqroqida məhsulları ticarəti şəbəkəsinin özəyini bir neçə ölkə (Amerika Birləşmiş Ştatları, Niderland, Almaniya, Fransa, Böyük Britaniya və s.) təşkil edir. Bu ölkələr aqroqida sektorunun dünya bazarı üzrə 77 faizinə nəzarət edir. Qida təchizatı zəncirinin yüksək dərəcədə qloballaşmış və heterogen xarakter daşıması isə qida məhsullarında aşkar edilən çirkləndiricilərin mənbəyinin müəyyənləşdirilməsini və izlənilməsini xeyli çətinləşdirir.

Qida təhlükəsizliyi təşkilatları XXI əsrdə tullantıların idarə edilməsinə getdikcə daha böyük əhəmiyyət verirlər. Düzgün qidalanma prinsipləri ilə yanaşı, tullantıların səmərəli idarə olunması və utilizasiyası da eyni dərəcədə əhəmiyyət kəsb edir. Hazırda qida təhlükəsizliyi təşkilatları tullantıların idarəedilməsi prosesini vahid bir sistem ətrafında cəmləşdirməyə çalışırlar. Belə ki, bu sahədə həm beynəlxalq ticarətdə aparıcı mövqeyə malik dövlətlərlə, həm də inkişaf etməkdə olan dövlətlərlə əməkdaşlığa və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Bu isə öz növbəsində gələcək onilliklər ərzində həm qida-tədarük zənciri prosesini daha inteqrasiya olunmuş və qlobal xarakterli, həm də qida təhlükəsizliyi nəzarətini çoxşaxəli edəcəkdir.

Qida təhlükəsizliyi sahəsində rəqəmsal texnologiyaların, məsələn, blokçeyn, süni intellekt və Əşyaların İnterneti (IoT) kimi innovasiyaların tətbiqi artır. Bu texnologiyalar tədarük zəncirinin izlənməsində və şəffaflığın təmin edilməsində mühüm rol oynayır.

"Walmart", "Nestle", "Unilever" kimi transmilli şirkətlər "IBM FoodTrust" blokçeyn platformasından istifadə edir,"Maersk" şirkəti"IBM" IoT və blokçeyn texnologiyası vasitəsilə qida məhsullarının beynəlxalq daşınmasını izləyir.

İstehlakçılar arasında sağlam və ekoloji cəhətdən təmiz qida məhsullarına maraq artır. Bu, orqanik və bitki əsaslı qida məhsullarının istehsal və istehlakının artmasına səbəb olur.

Dünya miqyasında bitki əsaslı qida məhsullarına tələbatın artması ilə əlaqədar olaraq, bir çox qida istehsalçıları bu sahəyə investisiya yatıraraq məhsul çeşidlərini genişləndirirlər.

Qida təhlükəsizliyi sahəsində qlobal meyillər Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına və ictimai sağlamlığa birbaşa təsir göstərəcəkdir. Əhali artımı, urbanizasiya, istehlak vərdişlərinin dəyişməsi və qloballaşan tədarük zəncirləri təhlükəsiz və keyfiyyətli qida məhsullarına tələbatı artırmaqla qida zəncirinin bütün mərhələlərində nəzarət və idarəetmə mexanizmlərinin gücləndirilməsini zəruri edir. Antimikrobrezistentlik, zoonoz xəstəliklər və iqlim dəyişikliyinin yaratdığı risklər fonunda "Vahid Sağlamlıq"konsepsiyasının tətbiqi, erkən xəbərdarlıq və rəqəmsal izlənilmə sistemlərinin inkişafı prioritet istiqamət olacaq, eyni zamanda sağlam, ekoloji cəhətdən təmiz və bitki əsaslı qida məhsullarına artan qlobal tələbat Azərbaycan Respublikasının aqrar sektorunda dayanıqlı istehsalın, ixrac potensialının və rəqabətqabiliyyətliliyin artırılmasında xüsusi əhəmiyyət kəsb edəcəkdir.

### 3. Mövcud vəziyyətin təhlili

Ölkədə qida təhlükəsizliyi sahəsində mühüm nailiyyətlər əldə edilməsinə baxmayaraq, mövcud vəziyyətin təhlili bu sahədə bir sıra çatışmazlıqların olduğunu göstərir. Belə ki, qida zəncirinin bütün mərhələləri üzrə (tarladan süfrəyədək) izlənilmə mexanizmlərinin tam formalaşmaması, heyvan və bitki sağlamlığına nəzarət sistemlərində bəzi çatışmazlıqlar qida təhlükəsizliyinin təmin edilməsinin əsas problemlərindəndir. Bununla yanaşı, qlobal iqlim dəyişmələrinin yaratdığı yeni biotəhlükəsizlik riskləri qida təhlükəsizliyi sahəsində effektiv nəzarət və idarəetmə mexanizmlərinin tətbiqini çətinləşdirən əsas amillər kimi qiymətləndirilir.

Qida təhlükəsizliyinin təmin olunması, əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təminatının yaxşılaşdırılması, eyni zamanda istehsal olunan yerli məhsulların ixrac potensialının artırılması istiqamətində əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli1143 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və onun uğurlu icrası, habelə idarəetmədə paralelliyin aradan qaldırılması və vahid səlahiyyətli qurum kimi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) yaradılması, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması bu sahədə sistemli və səmərəli tədbirlər görülməsinə imkan vermişdir.

"Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar qida təhlükəsizliyinin təmin edilməsi və yerli məhsulların ixrac imkanlarının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edən sanitariya, baytarlıq və fitosanitar normaların beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə bir sıra texniki normativ hüquqi aktlar hazırlanıb təsdiq edilmişdir.

Adıçəkilən Dövlət Proqramının icrası dövründə müvafiq sahədə aparılmış yoxlamalar, monitorinqlər, zəhərlənmələrlə bağlı araşdırmalar, sertifikatlaşdırma, idxal-ixrac əməliyyatlarının təhlili, laborator müayinələrin nəticələrinin təhlili əsasında ölkədə mövcud olan əsas qida təhlükəsizliyi problemləri müəyyən edilmişdir. Həmin problemlər üzrə hazırlanmış risk profilləri əsasında elmi risk qiymətləndirilməsi aparılmış, risklərin idarəedilməsinə dair tədbirlər planları hazırlanaraq icra edilmişdir.

Agentlik tərəfindən hər bir qida zəhərlənməsi halının ayrılıqda araşdırılması aparılmış, müvafiq ekspertizalar nəticəsində zəhərlənməyə səbəb olan amillər müəyyən edilmiş və normativ hüquqi aktlara uyğun olaraq digər tədbirlər həyata keçirilmişdir. Aparılmış nəzarət tədbirləri nəticəsində təsdiqini tapmış zəhərlənmə hallarının sayı 2019-cu ilə nisbətən 2025-ci ildə 75 faiz azalmışdır.

Ölkədə qida təhlükəsizliyi ilə bağlı mövcud problemlərin və ya təhlükələrin, baş verən zəhərlənmə hallarının və daxil olan istehlakçı şikayətlərinin təhlili nəticəsində hazırlanmış "Qida təhlükəsizliyi problemlərinə dair Multimonitorinq Planı" çərçivəsində Agentlik tərəfindən müxtəlif istiqamətlər üzrə monitorinqlər aparılmışdır.

Həmin Dövlət Proqramı üzrə xüsusi həssas əhali qruplarının (uşaqlar, hamilə qadınlar və s.) sağlam qidalanmasının təmin edilməsi məqsədilə "Məktəblilər üçün süd" və "Məktəblilər üçün kişmiş" pilot layihələri həyata keçirilmişdir.

Agentlik fəaliyyətə başladığı dövrdən etibarən qida zəncirinin müxtəlif mərhələlərində fəaliyyət göstərən qida subyektlərinə məxsus 90 000 qida obyekti və subyekti qida təhlükəsizliyi qeydiyyatına alınaraq Qida Təhlükəsizliyi Reyestrinə daxil edilmişdir. Sahibkarlara göstərilən xidmətlərin təkmilləşdirilməsi məqsədilə "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" İnformasiya Sistemində (bundan sonra - AQTİS) müvafiq altsistemlər yaradılmış və fəaliyyəti təmin edilmişdir. Sahibkarlara göstərilən xidmətlərin elektronlaşdırılması və əlçatanlığın təmin edilməsi məqsədilə Agentlik tərəfindən 2 xidmət Elektron Hökumət İnformasiya Sistemində yerləşdirilmişdir.

İndiyədək "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"ndən çıxarış alınmaqla Agentlik tərəfindən 23 500 yoxlama həyata keçirilmiş və aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

"Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 aprel tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Hazırda bu Qaydanın tələblərinə uyğun olaraq, müəssisələr üzrə izlənilmə sisteminin mərhələli şəkildə tətbiqinə başlanılmışdır.

Heyvan sağlamlığı sahəsində "Kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi" layihəsi çərçivəsində Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sisteminin (HİQS) proqram təminatı hazırlanmışdır və həmin proqramın ölkə üzrə tətbiqi davam etdirilir. Proses daha uzun vaxt tələb etdiyindən, Dövlət Proqramında sözügedən tədbirin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası 2024-cü ildə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (bundan sonra - ÜHST) tərəfindən xırdabuynuzlu heyvanların taun və yüksək patogen quş qripi xəstəliyindən azad ölkə kimi tanınmışdır, eyni zamanda atların Afrika xəstəliyi və donuzların Afrika taunu xəstəliyindən azad ölkə statusu qüvvədə qalır. Ölkəmiz 2023-cü ildən başlayaraq 3 il müddətinə dabaq üzrə Regional Məsləhət Qrupuna sədrlik etmiş, həmçinin ÜHST-nin İdarəetməyə Nəzarət Komitəsinin və Avropa regionunda heyvan rifahı platforması üzrə Ali Komitəsinin üzvü seçilmişdir. ÜHST-nin "Ümumdünya Heyvan Sağlamlığı İnformasiya Sistemi" üzərindən başqa ölkələrdə qeydə alınmış və ya ləğv olunmuş xüsusi təhlükəli heyvan xəstəlikləri barədə bildirişləri Agentlik tərəfindən mütəmadi izlənilir və müvafiq tədbirlər görülür.

Qanunsuz heyvan kəsiminin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə minimum tələblərə cavab verən heyvan kəsimi müəssisələrinin sayı 2018-ci ildə 16 olduğu halda, hazırda 101-ə çatdırılmışdır.

Bitki sağlamlığının təmini istiqamətində karantin tətbiq edilən zərərli orqanizmləri, o cümlədən potensial təhlükəli olan müxtəlif zərərli orqanizmləri, onların mənbələrini, ölkə üzrə yayılmasını, yayılma səbəb və sərhədlərini vaxtında müəyyənləşdirmək məqsədilə ardıcıl olaraq hər il üçün Milli Monitorinq Planı hazırlanmışdır və icrası davamlı olaraq həyata keçirilir. Monitorinqlər nəticəsində aşkarlanmış müxtəlif karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasının qarşısının alınması və ləğvi məqsədilə məhdudlaşdırıcı qərarlar qəbul edilmiş və aidiyyəti qurumlarla birgə müvafiq fitosanitar tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Qəhvəyi mərmər bağacığına qarşı mübarizə məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 dekabr tarixli 819s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair Tədbirlər Planı" çərçivəsində ölkə ərazisində genişmiqyaslı monitorinqlər aparılmış, aşkarlanan zərərvericilər mexaniki və kimyəvi mübarizə yolu ilə məhv edilmişdir. Həm Milli Monitorinq Planının, həm də "Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair Tədbirlər Planı"nın icrası zamanı ilk dəfə olaraq müxtəlif növ zərərvericilər üçün nəzərdə tutulmuş feromon tələlərdən istifadə edilmişdir.

Müxtəlif ölkələrdən idxal olunan bitki və bitkiçilik məhsullarında aşkarlanan uyğunsuzluqlarla əlaqədar ixracatçı ölkələrə bildirişlər göndərilir, ixrac olunan məhsul partiyaları isə idxalçı ölkələrin fitosanitar idxal tələbləri nəzərə alınmaqla müəyyən edilmiş parametrlərə görə laborator müayinələrə cəlb edilir.

Ölkə üzrə pestisid və aqrokimyəvi maddələrin saxlanıldığı və satışının həyata keçirildiyi obyektlərdə aparılmış monitorinqlər zamanı ölkənin 11 rayonu üzrə 14 məntəqədə pestisidlərlə çirkləndirilmiş 68 hektar ərazi müəyyən edilmişdir. Belə ki, istifadəyə yararsız pestisidlərin və aqrokimyəvi maddələrlə çirklənmiş ərazilərin təmizlənməsi məqsədilə 2024-cü ildə Ağstafa və Beyləqan rayonlarından ümumilikdə 747 ton, 2025-ci ildə isə Samux, Füzuli və İmişli rayonlarından ümumilikdə 1351 ton istifadəyə yararsız pestisidlərin və çirklənmiş torpaqların "Cəngi pestisid poliqonu"na daşınması həyata keçirilmiş və beton quyularda (bunkerlərdə) yerləşdirilməsi təmin olunmuşdur.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının, beynəlxalq konvensiyaların (Bazel, Stokholm), Avropa İttifaqının və Türkiyə Respublikasının təcrübələri nəzərə alınaraq, ilk dəfə 238 adda təsiredici maddənin qadağan olunması barədə siyahı hazırlanıb təsdiq edilmişdir.

İdxal və ixrac əməliyyatları zamanı qida təhlükəsizliyinə nəzarət məntəqələrinin yaradılması imkanlarının genişləndirilməsi məqsədilə Qazax rayonu ərazisində Gürcüstanla dövlət sərhədindən buraxılış məntəqəsinə yaxın ərazidə yaradılmış "Qırmızı körpü" Qida təhlükəsizliyi nəzarəti məntəqəsi fəaliyyətə başlamışdır.

Son illərdə Azərbaycan Respublikasının qida sənayesi və kənd təsərrüfatında davamlı artım müşahidə olunur. Ölkənin daxili istehsalında əsas payı süd, tərəvəz, meyvə və ət məhsulları tutur. Beynəlxalq bazarlarda isə Azərbaycan Respublikası, əsasən, təzə meyvə-tərəvəz (xüsusilə pomidor, xurma və fındıq), şəkər, bitki yağları və meyvə şirələri ilə təmsil olunur. Bununla yanaşı, ölkənin ərzaq təhlükəsizliyini tam təmin etmək üçün buğda, kərə yağı, diri heyvanlar və mal əti əsas idxal məhsulları olaraq qalır.

Bəzi ölkələr tərəfindən qoyulmuş məhdudiyyətlərin aradan qaldırılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Belə ki, 2014-cü ildən nodulyardermatit xəstəliyi ilə bağlı Azərbaycan Respublikasından heyvan və heyvan mənşəli məhsulların Türkiyə Respublikasına ixracına məhdudiyyət qoyulmuşdur. 2021-ci ildən Agentlik tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində ölkədən heyvan və heyvan mənşəli məhsulların ixracına Türkiyə Respublikası tərəfindən qoyulmuş məhdudiyyət aradan qaldırılmışdır. Eyni zamanda atların manqo xəstəliyi ilə bağlı Qazaxıstan Respublikası tərəfindən Azərbaycan Respublikasından at ixracı və tranzitinə tətbiq edilən məhdudiyyətlər aradan qaldırılmışdır.

*Ardı 4-cü səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı

*Əvvəli 3-cü səh.*

Azərbaycan Respublikasından Avropa İttifaqına ixrac edilən fındıq məhsullarında aşkarlanan uyğunsuzluqlara dair göndərilən bildirişlər xeyli azalmışdır. Azərbaycan Respublikasından ixrac edilən fındıq məhsullarına Avropa İttifaqı tərəfindən 2021-ci ildən etibarən yaşıl dəhliz tətbiq edilmiş, məhsulların müayinə tezliyi 20 faizə endirilmiş və ixrac üçün sertifikat tələbi aradan qaldırılmışdır.

Azərbaycan Respublikasına 2019-2025-ci illər ərzində idxal olunan qida və kənd təsərrüfatı məhsulları üzərində aparılan nəzarət tədbirləri nəticəsində 1791 halda bitkiçilik məhsullarında, 290 halda qida məhsullarında uyğunsuzluqlar aşkarlanaraq ixracatçı ölkələrə bildirişlər göndərilmiş, 72 halda qida məhsullarının, 38 halda bitkiçilik məhsullarının istehsalçılarına idxal qadağası tətbiq edilmişdir.

2023-cü ildən etibarən trans yağ turşularına qarşı mübarizə sahəsində görülən işlərlə əlaqədar Azərbaycan Respublikası ÜST tərəfindən 2-ci təhlükəsizlik səviyyəsindən 3-cü səviyyəyə yüksəlmiş, idxal olunan və ölkədə istehsal edilən yağların tərkibində trans yağ turşularının miqdarının 2 faizə endirilməsinə nail olunmuşdur.

İdxal-ixrac əməliyyatlarında tətbiq edilən baytarlıq sənədlərinin uyğunlaşdırılması məqsədilə 36 ölkə ilə 130 baytarlıq sertifikatı forması qarşılıqlı razılaşdırılmışdır.

Agentlik tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Avropa İttifaqına məhsullarının idxalına icazə verilmiş istehsal müəssisələrinin sayı 2018-ci ildə 2 olduğu halda, 2025-ci ildə bu rəqəm 12-yə çatdırılmışdır. Akvakulturada yetişdirilən nərəkimilərdən alınan kürü məhsulunun Avropa İttifaqına ixracı üzrə icazə əldə olunmuş, bunun nəticəsində Azərbaycan Respublikasının adı Avropa İttifaqına heyvan mənşəli məhsulların ixracına icazəsi olan ölkələrin adlarının əks olunduğu müvafiq qanunvericilik aktına daxil edilmiş və bu icazənin davamlılığı təmin edilmişdir. Eyni zamanda balıq məhsullarının da ixracı üçün müvafiq icazənin alınması ilə bağlı farmakoloji aktiv maddələrin, çirkləndiricilərin və pestisidlərin qalıq miqdarlarının müəyyənləşdirilməsi ilə bağlı Monitorinq Planı hazırlanaraq Avropa Komissiyasının Sağlamlıq və Qida Təhlükəsizliyi Baş Müdirliyinə təqdim edilmişdir.

Beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, ÜST və KodeksAlimentarius Komissiyası ilə əməkdaşlıq çərçivəsində qida təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, elmi əsaslı risk təhlilinin tətbiqi və risk əsaslı dövlət nəzarəti mexanizmlərinin qurulması istiqamətində layihələr həyata keçirilmişdir. KodeksAlimentarius standartlarına uyğunluğun təmin edilməsi məqsədilə normativ hüquqi aktların layihələri beynəlxalq ekspertlərin iştirakı ilə hazırlanaraq qəbul edilmişdir.

Azərbaycan Respublikasında milli qida təhlükəsizliyi sisteminin və regional səviyyədə beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə "Qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti" adlı layihə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının dəstəyi ilə Agentlik tərəfindən regionda ilk dəfə olaraq ölkəmizdə həyata keçirilmişdir. Aparılan qiymətləndirmə nəticəsində ölkədəki mövcud qida təhlükəsizliyi sisteminin beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş standart və tələblərə uyğun olduğu təsbit edilmişdir.Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində 9 beynəlxalq layihə icra olunmuş, 2 layihənin icrası isə davam etdirilir.

Qida təhlükəsizliyi sahəsində beynəlxalq təcrübəyə əsaslanan tələblər tətbiq edilməklə ixrac imkanlarının genişləndirilməsi və bir sıra əməkdaşlıq istiqamətləri üzrə müvafiq tədbirlər həyata keçirilmişdir. Qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti sahələri üzrə 19 xarici ölkə ilə 40-dan çox qarşılıqlı əməkdaşlıq və tanınma sazişləri, anlaşma memorandumları, protokollar və digər sənədlər imzalanmışdır.

Bundan əlavə, laborator xidmətlərin keyfiyyətinin artırılması və beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində qida təhlükəsizliyi sisteminə daxil olan mövcud laboratoriyaların diaqnostik qiymətləndirilməsi aparılaraq, laboratoriyaların inkişaf strategiyası hazırlanmış, Agentliyin tabeliyindəki Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun ümumilikdə 15 laboratoriyasında modernləşdirmə işləri həyata keçirilmişdir.

Agentliyin tabeliyindəki Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyaları Azərbaycan Akkreditasiya Mərkəzi tərəfindən akkreditasiya edilmişdir. Laboratoriyaların hər biri yerli akkreditasiyadan, 3-ü isə beynəlxalq akkreditasiyadan keçmişdir. Aparılmış laboratoriya müayinələri üzrə uyğunsuz nəticələrin sayı 2018-ci illə müqayisədə 2025-ci ildə 2,6 faizdən 1,7 faizə enmişdir.

Agentlik yaradıldıqdan sonra laborator infrastrukturun optimallaşdırılması, mövcud imkanların genişləndirilməsi və yeni avadanlıq alınması istiqamətində mühüm və nəzərəçarpan nəticələr əldə edilmişdir. Görülmüş tədbirlər laboratoriya fəaliyyətinin daha səmərəli təşkilinə, tədqiqat və sınaq proseslərinin keyfiyyətinin yüksəldilməsinə, eləcə də nəticələrin etibarlılığının artırılmasına əhəmiyyətli töhfə vermişdir.

Məlum olduğu kimi, laboratoriya və diaqnostik fəaliyyətin effektivliyi birbaşa istifadə olunan texniki bazanın müasirliyi, funksionallığı və etibarlılığı ilə bağlıdır. Bu baxımdan, laboratoriyalarda avadanlıq parkının mərhələli şəkildə yenilənməsi sadəcə texniki yenilənmə kimi deyil, həm də institusional inkişafın, elmi potensialın gücləndirilməsinin və nəticələrin beynəlxalq tələblərə uyğunluğunun təmin edilməsinin əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir. Müasir cihazların tətbiqi ölçmələrin dəqiqliyini və təkrarlana bilərliyini artırır, nəticələrin interpretasiyasında subyektiv yanaşma ehtimalını azaldır, insan amili ilə bağlı xətaların minimuma endirilməsinə şərait yaradır və ümumilikdə laboratoriya proseslərinin daha dayanıqlı və keyfiyyətli idarə olunmasını təmin edir.

Müasir dövrdə bioloji təhlükələr, yeni və təkrar meydana çıxan patogenlər, artan qlobal hərəkətlilik və transsərhəd risklər yüksək biotəhlükəsizlik tələblərinə cavab verən laboratoriya komplekslərinin yaradılmasını strateji zərurətə çevirmişdir. Belə infrastrukturun formalaşdırılması təhlükəli bioloji amillərlə təhlükəsiz şəraitdə işləmək, onların vaxtında aşkar olunmasını təmin etmək, elmi əsaslı qiymətləndirmə aparmaq və fövqəladə risklərə operativ cavab vermək üçün vacibdir. Yüksək biotəhlükəsizlik səviyyəsinə malik laboratoriya mühiti tədqiqat və diaqnostik fəaliyyətin təhlükəsiz, təcrid olunmuş və idarəolunan şəraitdə həyata keçirilməsinə imkan verir ki, bu da həm insan və heyvan sağlamlığının qorunması, həm də milli biotəhlükəsizlik sisteminin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Laboratoriya kompleksi ilə vəhdət təşkil edən müasir vivariumun yaradılması da bu infrastrukturun ayrılmaz tərkib hissəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Belə bir infrastruktur elmi tədqiqatların daha dərin və sistemli şəkildə aparılmasına, bioloji proseslərin daha əhatəli öyrənilməsinə və elmi nəticələrin praktiki tətbiq imkanlarının genişlənməsinə şərait yaradır. Bu, ölkə daxilində qida təhlükəsizliyi sahəsində elmi- tədqiqat imkanlarının artırılmasına və beynəlxalq standartlara uyğun müasir elmi platformanın yaradılmasına xidmət edir. Yüksək təhlükəsizlik tələblərinə cavab verən laboratoriya və vivarium infrastrukturu gələcəkdə qarşıya çıxa biləcək bioloji risklərə qarşı daha hazırlıqlı, koordinasiyalı və davamlı müdafiə mexanizminin qurulmasına imkan verir.

Nəticə etibarilə, laboratoriyalara yeni və müasir cihazların alınması, texniki bazanın mütəmadi yenilənməsi, eləcə də yüksək biotəhlükəsizlik tələblərinə cavab verən laboratoriya kompleksi və vivariumun yaradılması yalnız infrastrukturun genişləndirilməsi deyil, həm də dövlətin elmi, institusional və strateji dayanıqlığının gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu istiqamətdə görüləcək tədbirlər laboratoriya fəaliyyətinin keyfiyyətini yüksəldəcək, etibarlı və operativ nəticələrin əldə olunmasına imkan verəcək, elmi-tədqiqat və diaqnostika imkanlarını gücləndirəcək, milli təhlükəsizlik, ictimai sağlamlıq və biotəhlükəsizlik sahəsində uzunmüddətli dayanıqlı inkişaf üçün möhkəm zəmin formalaşdıracaqdır.

Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində görülmüş işlərin və müvafiq sahə üzrə mövcud vəziyyətin GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlili aşağıdakı kimidir:

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| - qida təhlükəsizliyi sahəsində institusional çərçivənin formalaşdırılması və mərkəzləşdirilmiş idarəetmə mexanizmlərinin mövcudluğu;<br>- qida təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın beynəlxalq tələblərə (KodeksAlimentarius, ÜST-nin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının tövsiyələri) uyğunlaşdırılması istiqamətində görülmüş tədbirlər;<br>- qida təhlükəsizliyi sahəsində risk əsaslı dövlət nəzarətinin tətbiqi, planlı və plandankənar yoxlamalar mexanizminin mövcudluğu;<br>- qida məhsullarının laborator müayinəsi üzrə maddi-texniki bazanın mərhələli şəkildə gücləndirilməsi və akkreditasiya proseslərinin genişləndirilməsi;<br>- idxal və ixrac olunan qida məhsullarına dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə baytarlıq, fitosanitar və qida təhlükəsizliyi üzrə nəzarət mexanizmlərinin formalaşdırılması;<br>- əhali arasında qida təhlükəsizliyi və sağlam qidalanma mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;<br>- qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, ÜST və s.) əməkdaşlıq və texniki dəstək mexanizmləri – nin mövcudluğu. | - qida tədarükü zəncirinin bütün mərhələlərini əhatə edən inteqrasiya olunmuş rəqəmsal izlənilmə sistemlərinin məhdud tətbiqi;<br>- qida təhlükəsizliyi sahəsində sektorlararası (səhiyyə, kənd təsərrüfatı, ekologiya, bələdiyyələr) koordinasiyanın institusional səviyyədə tam formalaşmaması;<br>- qida məhsullarının istehsalında antimikrob maddələrin istifadəsinə nəzarət və məlumat mübadiləsi mexanizmlərinin yetərli səviyyədə olmaması;<br>- qida israfı və qida tullantılarının idarə edilməsi üzrə vahid institusional mexanizmin və kompleks yanaşmanın məhdud olması;<br>- kiçik və orta sahibkarlıq subyektlərinə aid olan qida istehsalçıları arasında qida təhlükəsizliyi tələblərinin tətbiqinin yetərli səviyyədə olmaması;<br>- qida istehlakçıları tərəfindən məhsul etiketlərinin oxunması, məhsulun saxlanılması qaydalarına əməl edilməsi və qida təhlükəsizliyi davranışlarının kifayət qədər formalaşmaması. |
| **İmkanlar** | **Təhlükələr** |
| -qlobal səviyyədə qida təhlükəsizliyinə artan diqqət və beynəlxalq maliyyə, texniki dəstək imkanlarının genişləndirilməsi;<br>-"Vahid Sağlamlıq" konsepsiyasının tətbiqi ilə insan, heyvan və bitki sağlamlığının inteqrasiyası;<br>-rəqəmsal texnologiyaların (blokçeyn, IoT, süni intellekt) tətbiqi vasitəsilə qida tədarükü zəncirinin şəffaflığının və izlənilməsi imkanlarının artırılması;<br>-sağlam, ekoloji cəhətdən təmiz, orqanik və bitki əsaslı qida məhsullarına artan qlobal tələbat fonunda ixrac potensialının genişləndirilməsi;<br>-iqlimə uyğun və dayanıqlı aqrar istehsal texnologiyalarının tətbiqi yolu ilə məhsuldarlığın və təhlükəsizliyin artırılması;<br>-maarifləndirmə nəticəsində və məqsədli qida davranış proqramları sayəsində qida israfının minimuma endirilməsi;<br>-regional logistika və ticarət mərkəzi kimi Azərbaycan Respublikasının mövqeyinin daha da möhkəmləndirilməsi;<br>-qida tullantılarının idarəedilməsi sahəsinə diqqət yetirilməsi və bu istiqamətdə aidiyyəti dövlət orqanlarına (qurumlarına) müvafiq tapşırıqlar verilməsi. | - iqlim dəyişikliyi nəticəsində temperatur artımı, quraqlıq və ekstremal hava hadisələrinin qida təhlükəsizliyi risklərini artırması;<br>- antimikrobrezistentliyin sürətlə yayılması və müalicəyə davamlı infeksiyaların artması;<br>- zoonoz xəstəliklərin yayılma riskinin artması və bioloji təhlükəsizlik çağırışları;<br>- qloballaşan və mürəkkəbləşən qida tədarükü zəncirlərində çirklənmə mənbələrinin müəyyən edilməsinin çətinləşməsi;<br>- qida məhsullarının saxtalaşdırılması, yanlış etiketlənmə və istehlakçıların aldadılması hallarının artması;<br>- qlobal böhranlar (pandemiya, geosiyasi gərginliklər) nəticəsində tədarük zəncirində fasilələrin yaranması. |

Aparılmış GZİT təhlili göstərir ki, Azərbaycanda qida təhlükəsizliyi sahəsində institusional və normativ hüquqi baza formalaşmış olsa da, qlobal trendlər fonunda rəqəmsallaşma, sektorlararası inteqrasiya və riskəsaslı yanaşmanın dərinləşdirilməsi əsas prioritetlər kimi çıxış edir. Mövcud imkanlardan səmərəli istifadə edilməsi və müəyyən edilmiş zəif tərəflərin aradan qaldırılması 2027-2032-ci illər ərzində dayanıqlı və effektiv qida təhlükəsizliyi sisteminin formalaşdırılmasına şərait yaradacaqdır.

### 4. Dövlət Proqramının hədəf göstəriciləri

4.1. Dövlət Proqramı üzrə strateji baxış çərçivəsində aşağıdakılara nail olunacaqdır:

4.1.1. qida zəncirinə nəzarətin gücləndirilməsi yolu ilə əhalinin sağlam və təhlükəsiz qida ilə davamlı təmin edilməsinə;

4.1.2. istehlakçıların sağlam qidalanma vərdişlərinin artırılmasına və ictimai nəzarətin gücləndirilməsinə;

4.1.3. qida məhsullarının yeni ixrac bazarlarına çıxarılması istiqamətində icazələr alınmasının təmin edilməsinə;

4.1.4. qida subyektləri ilə əməkdaşlıq çərçivəsində onların fəaliyyətinin qida təhlükəsizliyi üzrə normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsinə;

4.1.5. zərərli orqanizmlərin bitkiçilik məhsullarına zərərinin minimuma endirilməsinə;

4.1.6. qida məhsullarının izlənilməsi sisteminin qurulmasının başa çatdırılmasına;

4.1.7. istehsal, emal və ictimai iaşə müəssisələrində Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələrinin (bundan sonra - HACCP) tətbiqinin sürətləndirilməsinə.

### 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının əsas məqsədləri aşağıdakılardan ibarətdir:

5.1.1. milli qida təhlükəsizliyi sisteminin gücləndirilməsi;

5.1.2. qida mənşəli xəstəliklərin və təhlükələrin azaldılması;

5.1.3. qida təhlükəsizliyi sahəsində istehlakçıların və sahibkarların məlumatlılığının artırılması;

5.1.4. qida təhlükəsizliyinin təmin olunmasında istehlakçıların ictimai nəzarətinin gücləndirilməsi;

5.1.5. qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi;

5.1.6. qida istehsalı və emalı prosesində ekoloji cəhətdən təmiz və dayanıqlı metodların tətbiqinin təşviq edilməsi;

5.1.7. qida israfının qarşısının alınması üzrə tədbirlər görülməsi.

### 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramı aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

**6.1.1. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində normativ hüquqi bazanın təkmilləşdirilməsi:**

**6.1.1.1. əsaslandırma:** qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsinə dair hazırlanmış fəaliyyət çərçivəsi və proseslər normativ hüquqi aktların yüksək keyfiyyətini, məqsədlərə uyğunluğunu və normayaratma fəaliyyətinin şəffaflığını təmin etməyə imkan verir.Normativ hüquqi akt layihələrinin hazırlanması prosesində xüsusilə özəl sektordan maraqlı tərəflərin daha geniş miqyasda iştirakı və müzakirəsi, eləcə də hazırlanan layihələrin sahibkarlıq subyektlərinə təsirlərinin qiymətləndirilməsi, tənzimləmənin yaradılması zamanı özəl sektorun bu sahədə iştirakının stimullaşdırılması nəzərdə tutulur."Bitki sağlamlığı haqqında" və "Heyvan sağlamlığı haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsinə ehtiyac vardır. Bundan əlavə, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarların normativ hüquqi aktlarla bağlı maarifləndirilməsinə və normativ hüquqi aktların tələblərinə onlar tərəfindən riayət edilməsinə diqqət artırılacaqdır;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. "Bitki sağlamlığı haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin və bundan irəli gələn hüquqi akt layihələrinin hazırlanması;

6.1.1.2.2. "Heyvan sağlamlığı haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin və bundan irəli gələn hüquqi akt layihələrinin hazırlanması;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. bitki sağlamlığı üzrə beynəlxalq standartların tələblərinə cavab verən "Bitki sağlamlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bundan irəli gələn hüquqi akt layihələri qəbul olunmasıüçün aidiyyəti üzrə təqdim ediləcəkdir;

6.1.1.3.2. heyvan sağlamlığı üzrə beynəlxalq standartların tələblərinə cavab verən "Heyvan sağlamlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bundan irəli gələn hüquqi akt layihələri qəbul olunması üçün aidiyyəti üzrə təqdim ediləcəkdir;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** tədbirin həyata keçirilməsində qanunların və onlardan irəli gələn hüquqi aktların tətbiqində çətinliklərin qarşısını almaq üçün həmin hüquqi aktların hazırlanması prosesində ictimai müzakirəyə çıxarılması, maraqlı tərəflərin rəylərinin nəzərə alınması və onların tətbiqi ilə bağlı təlimlərin təşkili, özəl sektorun könüllü nəzarət mexanizmlərinə riayət edib-etmədiyinin mütəmadi yoxlanılması kimi tədbirlər həyata keçiriləcəkdir;

**6.1.2. qida zəncirinə nəzarət sahəsində infrastruktur təminatı və laboratoriya xidmətlərinin təkmilləşdirilməsi:**

**6.1.2.1. əsaslandırma:** infrastruktur təminatının təkmilləşdirilməsi istiqamətində ötən dövr ərzində bir sıra işlər görülməsinə baxmayaraq, bu sahədə yeni çağırışlara və tələblərə cavab verən daha təkmil infrastruktura malik laboratoriya xidmətlərinə ehtiyac vardır. Belə ki, ölkənin qida təhlükəsizliyinin gücləndirilməsi, idxal-ixrac əməliyyatlarının daha şəffaf və sürətli icra edilməsi məqsədilə qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı laboratoriyalarının təkmilləşdirilməsi və müayinə imkanlarının artırılması aktuallığını saxlayır;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. qida təhlükəsizliyi, heyvan sağlamlığı və bitki sağlamlığı sahəsində fəaliyyət göstərən mövcud dövlət laboratoriyalarının təkmilləşdirilməsi və müayinə imkanlarının genişləndirilməsi;

6.1.2.2.2. yüksək biotəhlükəsizlik tələblərinə cavab verən laboratoriya kompleksinin və vivariumun yaradılmasının təmin edilməsi;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. yeni metodların tətbiqinə və analitik sınaqların sayının artmasına nail olunacaqdır;

6.1.2.3.2. yüksək biotəhlükəsizlik tələblərinə cavab verən laboratoriya kompleksi istifadəyə veriləcəkdir;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** qida təhlükəsizliyi, baytarlıq və fitosanitar laboratoriya metodlarının beynəlxalq akkreditasiya prosesinin uzun və mürəkkəb olması, böhran vəziyyətlərində yetərsiz resurslar və təcili reaksiya çətinlikləri kimi risklərin qarşısını almaq üçün laboratoriyaların maddi-texniki təchizatının möhkəmləndirilməsi məqsədəmüvafiqdir.Həmçinin, laboratoriya mütəxəssislərinin bilik və bacarıqlarının artırılması məqsədilə yerli və beynəlxalq təlim proqramları təşkil edilməli və akkreditasiya prosesinin sürətləndirilməsi üçün ISO, TürkAK və DakkS kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurulmalıdır;

**6.1.3. qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində elm, təhsil və kadr potensialının gücləndirilməsi:**

**6.1.3.1. əsaslandırma:** əmək bazarındakı dəyişikliklərə, texnoloji yeniliklərə və cəmiyyətin ehtiyaclarına uyğun olaraq, ali təhsil müəssisələrinin tədris planlarında mütəmadi şəkildə təkmilləşdirmələr və yenilənmələr aparılması, o cümlədən ali təhsil müəssisələri ilə daha sıx əlaqələr qurulması yolu ilə ixtisaslı kadr potensialının artırılması üzrə işlərin davamlı şəkildə görülməsi zəruridir. Eyni zamanda, özəl sektorda qida, baytarlıq və bitkiçilik obyektlərində çalışan kadrlar üçün nəzəri və praktiki bilikləri əhatə edən kursların keçirilməsi və fənn proqramlarına "Sağlam qidalanma" ilə bağlı mövzuların daxil edilməsi məqsədəmüvafiqdir;

Bundan əlavə, qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatların texniki komitələri ilə birlikdə iş və elmi araşdırmalar aparılmasının təkmilləşdirilməsi və qida təhlükəsizliyi sahəsində elmi məlumat bazasının genişləndirilməsi vacibdir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. ali təhsil müəssisələrində qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı üzrə müasir tələblərə uyğun kadr hazırlığının təkmilləşdirilməsi;

6.1.3.2.2. qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatların texniki komitələrinin fəaliyyətində yerli mütəxəssislərin iştirakının artırılması;

6.1.3.2.3. ümumi təhsil pilləsi üzrə hazırlanan müvafiq dərsliklərə sağlam qidalanmaya və zoonoz xəstəliklərə dair materialların daxil edilməsi;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı üzrə yeni fənn proqramlarının ali təhsil müəssisələrində tədrisinə başlanılacaqdır;

6.1.3.3.2. qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatların texniki komitələri tərəfindən hazırlanan normativ sənədlərdə və elmi araşdırmalar aparılmasında yerli mütəxəssislərin potensialından istifadə edilməsinə nail olunacaqdır;

6.1.3.3.3. ümumi təhsil müəssisələrində sağlam qidalanma ilə və zoonoz xəstəliklərlə bağlı məlumatlılıq səviyyəsi artırılacaqdır;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** təcrübəli mütəxəssis və müəllim heyətinin çatışmazlığı və qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatlara çıxış imkanlarının məhdudluğu kimi çətinliklər yarana bilər. Bununla bağlı, dövlət səviyyəsində müvafiq sahələrdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi nəzərdə tutulur;

**6.1.4. qida təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi:**

**6.1.4.1. əsaslandırma:** qida təhlükəsizliyi insanların həyat və sağlamlığına, iqtisadi inkişafa birbaşa təsir edən strateji sahələrdən biridir. Yeni qida texnologiyalarının inkişafı, beynəlxalq ticarət əlaqələrinin genişlənməsi və iqlim dəyişikliyi kimi amillər qida təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsini zəruri edir.

Qida mənşəli xəstəliklərin və toksinlərin insan sağlamlığına vurduğu zərər ciddi sosial və iqtisadi itkilərə səbəb olur. ÜST-nin məlumatına görə, hər il milyonlarla insan qida mənşəli infeksiyalara yoluxur, bu isə səhiyyə xərclərinin artmasına və insanların iş qabiliyyətinin azalmasına gətirib çıxarır. Bundan əlavə, qida məhsullarının beynəlxalq bazarlara çıxışı üçün yüksək qida təhlükəsizliyi tələblərinə uyğun olması vacibdir. Avropa İttifaqı, ABŞ və digər inkişaf etmiş ölkə bazarlarında qida təhlükəsizliyinə dair tələblər sərtləşdirilir. Qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi yerli məhsulların ixrac imkanlarını da genişləndirəcəkdir.

Nəzarət tədbirlərinin effektivliyinin artırılması üçün yoxlamalar, nümunələrin götürülməsi və s. istiqamətlər üzrə təlimatların hazırlanması olduqca vacibdir.

Həmçinin ev şəraitində və ailə təsərrüfatları tərəfindən hazırlanan məhsulların bazara yerləşdirilməsi mexanizminin müəyyənləşdirilməsinə də ehtiyac vardır;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. qida müəssisələrində HACCP-a əsaslanan daxili nəzarət sisteminin formalaşdırılması istiqamətində tədbirlər görülməsi;

6.1.4.2.2. qida məhsullarının qanunsuz küçə ticarətinin qarşısının alınması istiqamətində nəzarətin gücləndirilməsi;

6.1.4.2.3. ev şəraitində və ailə təsərrüfatları tərəfindən hazırlanan qida məhsullarının bazara yerləşdirilməsi mexanizminin formalaşdırılması;

6.1.4.2.4. baytarlıq və fitosanitar nəzarətinə aid qeyri-qida məhsullarının istehsalı, emalı, saxlanılması, satışı obyektlərinin (heyvan mənşəli xammalın, genetik materialların, baytarlıq preparatlarının, bitki mühafizə vasitələrinin, pestisidlərin və gübrələrin anbarları və satış yerləri və s.) qeydiyyatı və təsdiqi mexanizminin formalaşdırılması;

6.1.4.2.5. qida, baytarlıq və fitosanitar nəzarəti sahələrində qadağan olunmuş mallara dair vahid siyahının hazırlanması;

6.1.4.2.6. qida obyektlərinin tikintisi üzrə preventiv (xəbərdaredici) qida təhlükəsizliyi nəzarəti mexanizminin yaradılması;

6.1.4.2.7. allergenlərin etiketlənməsinə nəzarətin gücləndirilməsi və maarifləndirmə tədbirlərinin aparılması;

6.1.4.2.8. stasionar tibb müəssisələrində müxtəlif xəstəliklər üzrə qidalanmaya dair metodiki vəsaitin hazırlanması;

6.1.4.2.9. qida zəhərlənmələri zamanı ilk yardım göstərilməsinə dair təlimatın hazırlanması;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. qida müəssisələrinin 80 faizində HACCP-ın tətbiqinə nail olunacaqdır;

6.1.4.3.2. qanunsuz küçə ticarəti hallarının azaldılmasına nail olunacaqdır;

*Ardı 5-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı

*Əvvəli 4-cü səh.*

6.1.4.3.3. ev şəraitində və ailə təsərrüfatları tərəfindən hazırlanan qida məhsullarının bazara yerləşdirilməsi ilə bağlı tənzimləmə mexanizminin tətbiqinə başlanılacaqdır;

6.1.4.3.4. baytarlıq və fitosanitar nəzarətinə aid qeyri-qida obyektlərinin qeydiyyatı və təsdiqinə dair normativ hüquqi aktların tələbləri barədə məlumatlandırma işləri həyata keçiriləcəkdir;

6.1.4.3.5. qida, baytarlıq və fitosanitar nəzarəti sahəsində qadağan olunmuş malların siyahısı təsdiqlənəcək və Agentliyin rəsmi internet informasiya ehtiyatında yerləşdiriləcəkdir;

6.1.4.3.6. qida obyektlərinin tikintisinin və fəaliyyətinin mövcud tələblərə uyğunluğu təmin olunacaqdır;

6.1.4.3.7. qida məhsullarında allergenlər üzrə maarifləndirmə tədbirləri həyata keçiriləcəkdir;

6.1.4.3.8. stasionar tibb müəssisələrində xəstələrin qidalanması üzrə metodiki vəsait təsdiq ediləcəkdir;

6.1.4.3.9. qida zəhərlənmələrinin qarşısının alınması üzrə təlimat təsdiq ediləcəkdir;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** məlumatların gec və ya natamam paylaşılması, bəzi qida obyektləri tərəfindən HACCP-ın düzgün tətbiq edilməməsi və qida obyektlərinin tikintisi və fəaliyyəti zamanı mövcud tələblərə kifayət qədər əməl edilməməsi bu məsələlərə daha diqqətli yanaşmanı tələb edir. Agentlik və aidiyyəti qurumların məlumat bazalarının inteqrasiyası və real vaxt rejimində məlumat mübadiləsinin aparılması, HACCP-ın düzgün tətbiqi vəziyyətinin yoxlanılması, məlumatlandırma işinin və keyfiyyət standartlarının tətbiqinin təbliği, o cümlədən mütəmadi təşviq və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ilə tədbirlərin icrasına nail olmaq mümkün olacaqdır;

**6.1.5. heyvan sağlamlığına və biotəhlükəsizliyə nəzarət sisteminin təkmilləşdirilməsi:**

**6.1.5.1. əsaslandırma:** baytarlıq sahəsində müasir texnologiyaların və innovativ həllərin tətbiqi çox vacibdir. Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sisteminin əhatə dairəsinin genişləndirilməsi və funksionallığının artırılması heyvan sağlamlığı və bioloji təhlükəsizliyin təmin edilməsi istiqamətində vacib əhəmiyyət kəsb edir. Bu texnologiyalar heyvanların düzgün qeydiyyatını təmin edərək onların sağlamlıq vəziyyətini izləmək və müvafiq tədbirləri zamanında tətbiq etmək imkanı yaradır. Bu cür sistemlər informasiya axınının dəqiqliyini və sürətini təmin edir, həmçinin dövlət orqanları (qurumları) və baytar həkimlər üçün əhəmiyyətli məlumatların əlçatanlığını asanlaşdırır.

Heyvan sağlamlığının izlənilməsi, epizootiya əleyhinə tədbirlər, karantin və məhdudiyyətlər barədə məlumatların real vaxt rejimində idarə olunması tədbirlərin həyata keçirilməsi üçün vacibdir. Heyvan sağlamlığının davamlı izlənilməsi ölkə üzrə epizootik sabitliyin qorunmasına və profilaktik tədbirlərin effektivliyinin artırılmasına xidmət edəcəkdir.

Qeyd edilənlərlə yanaşı, mütəxəssislərin uçotu və məlumatların vahid bazada toplanması bu sahədə qərar qəbuletmə proseslərini sürətləndirəcək və effektivliyi artıracaqdır. Baytarlıq preparatlarının dövriyyəsinə nəzarət mexanizminin təkmilləşdirilməsi sağlamlıq sisteminin effektivliyini artırmaq üçün vacibdir. Yeni nəzarət mexanizminin tətbiqi və bu mexanizmin avtomatlaşdırılması, həmçinin müvafiq monitorinq proqramlarının hazırlanması baytarlıq preparatlarının düzgün və təyinatı üzrə istifadəsini təmin edəcəkdir. Bu həm də qeyri-qanuni və ya zərərli preparatlardan istifadənin qarşısını alacaq və ümumi sağlamlıq sisteminə təhlükə yarada biləcək riskləri minimuma endirəcəkdir;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. Naxçıvan iqtisadi rayonunda dabaq xəstəliyindən azad zonanın yaradılması;

6.1.5.2.2. heyvan xəstəliklərindən azad təsərrüfatların (kompartmentlərin) yaradılmasının təşviqi;

6.1.5.2.3. heyvanların identikləşdirilməsi prosesinin davam etdirilməsi;

6.1.5.2.4. sahibsiz heyvanların sığınacaqla təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;

6.1.5.2.5. heyvandarlıqda istifadəsi qadağan edilən aktiv maddələrin siyahısının müəyyən edilməsi;

6.1.5.2.6. iri və xırdabuynuzlu heyvanların erkən yaşda kəsilməsinin qarşısının alınması istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

6.1.5.2.7. heyvanların yaşa, çəkiyə və cinsə görə kəsiminin tənzimlənməsinə dair beynəlxalq təcrübənin araşdırılması və təkliflərin hazırlanması;

6.1.5.2.8. baytarlıq mütəxəssislərinin qeydiyyatı və sertifikatlaşdırılması mexanizminin formalaşdırılması;

6.1.5.2.9. dövlət baytarlıq nəzarəti tədbirlərinə özəl baytarların cəlb edilməsi mexanizminin hazırlanması;

6.1.5.2.10. baytarlıq preparatlarının istehsalı və emalı ilə məşğul olan xarici və yerli obyektlərdə Qabaqcıl İstehsal Təcrübəsi tələblərinə uyğunluqla bağlı audit mexanizminin hazırlanması;

6.1.5.2.11. ölmüş heyvanların və bioloji tullantıların utilizasiyası üzrə müəssisələr yaradılmasının təşviqi;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. Naxçıvan iqtisadi rayonunun ərazisində dabaq xəstəliyindən azad zona yaradılacaqdır;

6.1.5.3.2. heyvan xəstəliklərindən azad olması nəzərdə tutulan təsərrüfatlar müəyyən ediləcək və həmin təsərrüfatlarda beynəlxalq tələblərə uyğun baytarlıq tədbirləri həyata keçiriləcəkdir;

6.1.5.3.3. heyvanların identikləşdirilməsi nəticəsində onların sağlamlığının və heyvan mənşəli məhsulların izlənilməsinə nail olunacaqdır;

6.1.5.3.4. tikilmiş heyvan sığınacaqlarına sahibsiz heyvanların qəbuluna başlanılacaqdır;

6.1.5.3.5. tətbiqi qadağan edilən aktiv maddələrin istifadəsinin tənzimlənməsinə nail olunacaqdır;

6.1.5.3.6. iri və xırdabuynuzlu heyvanların erkən yaşda kəsilməsinin qarşısının alınması istiqamətində paylaşılmış maarifləndirmə materiallarının izlənilmə sayı 30000-ə çatdırılacaqdır;

6.1.5.3.7. yaş, çəki və cinsdən asılı olaraq heyvanların kəsilməsinin tənzimlənməsi üzrə normativ hüquqi aktlar təkmilləşdiriləcəkdir;

6.1.5.3.8. baytarlıq mütəxəssislərinin qeydiyyatı və sertifikatlaşdırılması mexanizmi tətbiq ediləcəkdir;

6.1.5.3.9. özəl baytar həkimlərlə tərəfdaşlıq və əməkdaşlıq müqavilələrinin bağlanılması prosesi həyata keçiriləcəkdir;

6.1.5.3.10. baytarlıq preparatlarının istehsalı və emalı ilə məşğul olan xarici və yerli obyektlərdə Qabaqcıl İstehsal Təcrübəsi qiymətləndirilməsinin aparılmasına başlanılacaqdır;

6.1.5.3.11. ölmüş heyvanların və bioloji tullantıların utilizasiyası üzrə müəssisələrin yaradılmasına (layihələndirilməsinə) dair sahibkarlıq subyektləri tərəfindən daxil olan müraciətlər qiymətləndiriləcəkdir;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** heyvan sağlamlığı sahəsində müasir texnologiyaların tətbiqində gecikmələr və yenilənmə proseslərinin ləngiməsi, qeyri-dəqiq məlumat toplanılması, analitik səhvlərin yaranması, yeni infeksion xəstəliklərin və epidemiyaların ortaya çıxması kimi risklər mövcud ola bilər. Onların qarşısının alınması üçün prioritetlərin düzgün müəyyən edilməsi, rəqəmsal monitorinq sistemlərinin və mərkəzləşdirilmiş məlumat bazalarının formalaşdırılması və istifadəsi, avtomatlaşdırılmış məlumat emalı və keyfiyyətə nəzarət mexanizmlərinin inkişaf etdirilməsi, sürətli müdaxilə mexanizmlərinin qurulması və müntəzəm risk analizinin aparılması kimi tədbirlər həyata keçirilə bilər;

**6.1.6. bitki sağlamlığına və biotəhlükəsizliyə nəzarət sisteminin təkmilləşdirilməsi:**

**6.1.6.1. əsaslandırma:** qida təhlükəsizliyinin əsas tərkib elementlərindən biri olan bitki sağlamlığı iqtisadiyyata, insanın həyat və sağlamlığına və ətraf mühitə birbaşa təsir edən mühüm sahələrdəndir. Hazırda dünyada baş verən iqlim dəyişikliyi, yağıntıların qeyri-bərabər paylanması, havanın mövsümə uyğun olmaması və digər amillər bitkilərin vegetativ inkişafına mənfi təsir göstərməklə yanaşı, zərərli orqanizmlərin yayılma arealının genişlənməsinə, onların zərərvurma müddətinin dəyişməsinə və bütövlükdə ölkədə fitosanitar vəziyyətin pisləşməsinə, kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsinə, bitki mühafizə tədbirlərinin həcminin artmasına səbəb olmaqla bu istiqamətdə artan resurslara tələbat yaradır. Sadalanan səbəblər bitki sağlamlığı sisteminin daha da təkmilləşdirilməsini zəruri edir. Bitki sağlamlığı sahəsində həyata keçirilən fitosanitar nəzarətin səviyyəsinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması və təkmilləşdirilməsi məqsədilə bitkiçilik məhsullarının ilkin istehsalı təsərrüfatlarında aparılan monitorinq və fitosanitar müşahidələr nəticəsində böyük həcmdə məhsul itkisinə səbəb olan, ölkə ərazisində yayılması yüksək risk daşıyan, eyni zamanda bitki və bitkiçilik məhsullarının beynəlxalq ticarətinə maneə ola biləcək, xüsusən də karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğunu və yayıldığı əraziləri müəyyən etməklə operativ və səmərəli məhdudlaşdırıcı və ləğvedici tədbirlərin həyata keçirilməsi hədəflənmişdir. Bu tədbirlərin həyata keçirilməsi ilə qida ehtiyatının əsasını təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalında yarana biləcək itkilər azalacaq, bitki və bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi artacaq, habelə idxalçı ölkələrin müvafiq tələbləri qarşılanacaqdır.

Eləcə də bu sahədə fəaliyyət göstərən kadrların bilik və bacarıqlarının artırılmasına, müxtəlif proqramlar üzrə işlərin aparılmasına ehtiyac vardır;

**6.1.6.2. görüləcək tədbirlər:**

6.1.6.2.1. zərərli orqanizmlərdən azad zonanın, istehsal yeri və ya istehsal sahələrinin müəyyən edilməsi;

6.1.6.2.2. zəhərli kimyəvi maddələrin kənd təsərrüfatında istifadəsinin azaldılması və alternativ bioloji üsulların tətbiqinin təşviqi;

6.1.6.2.3. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qeydiyyatı prosesinin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi;

6.1.6.2.4. zərərli orqanizmlərin müşahidəsi və monitorinqi sisteminin təkmilləşdirilməsi;

6.1.6.2.5. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövriyyəsinin izlənilməsi üçün AQTİS-də müvafiq altsistemin formalaşdırılması;

6.1.6.2.6. bitkiçilik məhsullarının ixracının artırılması məqsədilə qabaqcıl kənd təsərrüfatı təcrübələrinin tətbiqinin təşviqi və maarifləndirmə işlərinin genişləndirilməsi;

**6.1.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. zərərli orqanizmlərdən azad statusuna malik 4 zona, istehsal yerləri və ya istehsal sahələri müəyyən ediləcəkdir;

6.1.6.3.2. zəhərli kimyəvi maddələrin kənd təsərrüfatında istifadəsi azaldılacaq və alternativ bioloji üsulların tətbiqi genişləndiriləcəkdir;

6.1.6.3.3. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qeydiyyatı prosesinin yeni qaydalara uyğun həyata keçirilməsinə başlanılacaqdır;

6.1.6.3.4. monitorinq nəticələrinə əsasən aşkarlanan zərərli orqanizmlərə qarşı fitosanitar tədbirləri görüləcəkdir;

6.1.6.3.5. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövriyyəsinin izlənilməsi üçün AQTİS-də müvafiq altsistem fəaliyyətə başlayacaqdır;

6.1.6.3.6. qabaqcıl kənd təsərrüfatı təcrübələrinin tətbiqinə dair sahibkarların və ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılmasına nail olunacaqdır;

**6.1.6.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** müvafiq sahədə fəaliyyət göstərən sahibkarların və digər maraqlı tərəflərin bitki sağlamlığı sahəsində normativ hüquqi aktlara edilmiş dəyişikliklərə, qəbul edilmiş yeni norma və qaydalara adaptasiyasında çətinlik, bitkiçilik məhsullarının ilkin istehsalı təsərrüfatlarının say çoxluğu, qurumlararası məlumat bazalarının tam inteqrasiyasının olmaması gözlənilən nəticələrə nail olmaqda müəyyən çətinliklər yarada bilər. Lakin bitki sağlamlığı sahəsində aidiyyəti dövlət orqanları (qurumları) arasında informasiya mübadiləsi mexanizminin qurulması, əlaqəli iş prinsipinin yaradılması, bitki və bitkiçilik məhsullarının, o cümlədən bitki mühafizə və aqrokimyəvi maddələrin istehsalında, daxili və beynəlxalq daşınmasında maraqlı olan tərəflərin Agentliklə əməkdaşlığı çərçivəsində, qlobal iqlim dəyişikliyi fonunda əhaliyə bitki sağlamlığının əhəmiyyətinin təbliği ilə nəzərdə tutulan tədbirlərin icrasını həyata keçirmək mümkün olacaqdır. Eyni zamanda risklərin neytrallaşdırılması imkanları ətraflı qiymətləndiriləcək və tədbirlərin icra mexanizmləri dəqiq göstəriləcəkdir;

**6.1.7. "Vahid Sağlamlıq" konsepsiyasının tətbiqinin genişləndirilməsi:**

**6.1.7.1. əsaslandırma:** "Vahid Sağlamlıq" konsepsiyasının tətbiqi zoonoz xəstəliklərin qarşısının alınması, qida təhlükəsizliyi, antimikrobrezistentliyin effektiv idarə olunması, ətraf mühitin qorunması, iqlim dəyişikliyinə uyğunlaşma və pandemiyalara hazırlıq baxımından böyük əhəmiyyət kəsb edir. Bu konsepsiya insan, heyvan və ətraf mühit sağlamlığı arasında mövcud olan qarşılıqlı əlaqəni şərtləndirir. Eyni zamanda sektorlararası əməkdaşlığı təşviq edərək qlobal sağlamlıq təhlükəsizliyinin gücləndirilməsinə təkan verir;

**6.1.7.2. görüləcək tədbirlər:**

6.1.7.2.1. zoonoz xəstəliklərə qarşı mübarizə tədbirlərinə dair Milli Strategiyanın hazırlanması və icrası;

6.1.7.2.2. antimikrobrezistentliklə mübarizəyə dair tədbirlər görülməsi;

6.1.7.2.3. "Vahid Sağlamlıq" konsepsiyasının tətbiqi üzrə aidiyyəti dövlət orqanları (qurumları) arasında çərçivə əməkdaşlığının qurulması, operativ koordinasiya mexanizminin yaradılması və vahid kommunikasiya strategiyasının tətbiqi;

6.1.7.2.4. zoonoz epidemiya və pandemiya riskinin azaldılması, qarşısının alınması üçün hazırlıq, erkən xəbərdarlıq və erkən aşkarlama sistemlərinin qurulması;

6.1.7.2.5. "Vahid Sağlamlıq" konsepsiyasının həyata keçirilməsi üçün normativ hüquqi aktların təkmilləşdirilməsi, informasiya sistemlərinin (ehtiyatlarının), habelə fövqəladə halların idarə olunmasının təşkili;

**6.1.7.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. insanlar və heyvanlar arasında zoonoz xəstəliklərin yaratdığı sağlamlıq riskləri azaldılacaq, bunun nəticəsində xəstələnmə və ölüm hallarının azalmasına nail olunacaqdır;

6.1.7.3.2. antimikrobrezistentliyin azaldılması məqsədilə metodiki vəsaitlər hazırlanıb təsdiq ediləcəkdir;

6.1.7.3.3. qurumlar üçün əlçatan olan məlumat bazaları yaradılacaq və məlumatların qarşılıqlı mübadiləsi təmin ediləcəkdir;

6.1.7.3.4. erkən xəbərdarlıq və erkən aşkarlama sistemlərinin tətbiqi həyata keçiriləcəkdir;

6.1.7.3.5. informasiya sistemlərinin və risk idarəetmə mexanizmlərinin effektiv istifadəsi nəticəsində zoonoz xəstəliklərin və qida təhlükəsizliyi ilə bağlı digər risklərin idarə olunması və məlumat mübadiləsi asanlaşdırılacaqdır;

**6.1.7.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** insan, heyvan və ətraf mühit sağlamlığı üzrə qurumlar arasında koordinasiyanın yetərsiz olması, mövcud normativ hüquqi aktların "Vahid Sağlamlıq" prinsiplərinə tam uyğun olmaması, cəmiyyətin və hətta mütəxəssislərin bu yanaşmanın əhəmiyyəti barədə yetərincə məlumatlı olmaması kimi risklər qarşıya çıxa bilər. Belə risklərin qarşısının alınması üçün dövlətin və beynəlxalq donorların dəstəyi ilə layihələrin həyata keçirilməsi, "Vahid Sağlamlıq" konsepsiyasını dəstəkləyən normativ hüquqi aktların qəbul edilməsi, antibiotiklərin istifadəsinə ciddi nəzarət və buna dair maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, media və təlim proqramları vasitəsilə bu yanaşmanın faydaları barədə məlumatlandırma işlərinin aparılması kimi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur;

**6.1.8. qida zəncirinə nəzarət sahəsində innovativ üsulların tətbiqinin genişləndirilməsi:**

**6.1.8.1. əsaslandırma:** Agentlik öz funksiyalarını operativ, tam və dəqiq yerinə yetirmək üçün tələb etdiyi məlumatların mövcudluğunu təmin etmək məqsədilə digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri (ehtiyatları) arasında inteqrasiya səviyyəsinin artırılması istiqamətində əhəmiyyətli addımlar atmışdır. Lakin müxtəlif səlahiyyətli orqanların (qurumların) informasiya sistemlərinin mövcud inteqrasiya səviyyəsi bəzi hallarda qida təhlükəsizliyini təmin etmək və insan sağlamlığını qorumaq üçün tədbirlərin operativ icrasına imkan vermir. Belə ki, digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri (ehtiyatları) arasında inteqrasiya tədbirlərinin artırılmasına və təkmilləşdirilməsinə hələ də ehtiyac vardır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların və elektron xidmətlərin tətbiqi sahəsində əhəmiyyətli irəliləyişlərə baxmayaraq, innovativ həllərin mütəmadi mənimsənilməsinə və inteqrasiyasına ehtiyac qalmaqdadır. Eyni zamanda qida məhsullarına nəzarət üçün (onların izlənilməsi, saxtalaşdırılmasının qarşısının alınması və s.) qida subyektləri tərəfindən müasir texnologiyalardan və süni intellektdən istifadə ən vacib məsələlərdən biridir. Belə ki, istehlakçılara və sahibkarlara göstərilən xidmətlərin təmin edilməsi məqsədilə yeni texnologiyaların və innovativ üsulların tətbiqinin genişləndirilməsi vacibdir;

**6.1.8.2. görüləcək tədbirlər:**

6.1.8.2.1. Agentliyin və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri (ehtiyatları) arasında inteqrasiyanın genişləndirilməsi;

6.1.8.2.2. AQTİS-in heyvan sağlamlığı altsisteminin təkmilləşdirilməsi (elektron hesabatlılıq, xəritələşmə və s.);

6.1.8.2.3. AQTİS-də vahid izləmə altsisteminin proqram təminatının hazırlanması və qida zənciri sahəsində fəaliyyət göstərən qida subyektlərinin həmin proqram təminatına qoşulması;

6.1.8.2.4. qida subyektləri tərəfindən qida təhlükəsizliyinin təmin olunmasına dair innovativ üsulların tətbiqinin təşviqi (rəqəmsal monitorinq sistemləri, bakteriyaların sensorla izlənilməsi və s.);

6.1.8.2.5. qida məhsullarının saxtalaşdırılmasının qarşısının alınması üçün rəqəmsal texnologiyalardan (Radiotezlikli İdentifikasiya, IoT və s.) istifadənin təşviqi;

6.1.8.2.6. qida subyektlərində daxili nəzarət sisteminə və elektron izlənilməyə dair proqram təminatının hazırlanması və tətbiqinin təşviqi;

6.1.8.2.7. AQTİS-də nəzarət və tənzimləmə fəaliyyətinin səmərəliliyinin artırılması, habelə sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədilə süni intellektə əsaslanan təhlil və proqramlaşdırma üsullarının tətbiqi;

**6.1.8.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.3.1. bütün aidiyyəti dövlət orqanları (qurumları) arasında məlumatların real vaxt rejimində ötürülməsi təmin olunacaqdır;

6.1.8.3.2. baytarlıq məlumatları elektron formatda təqdim ediləcək və ondan istifadə asanlaşacaqdır;

6.1.8.3.3. istehsaldan son istehlakçıyadək hər bir mərhələdə (istehsal, emal, dövriyyə və istehlak) qida məhsullarının izlənilməsi təmin ediləcəkdir;

6.1.8.3.4. qida subyektləri tərəfindən qida təhlükəsizliyinin təmin olunmasına dair innovativ üsulların tətbiqi ilə bağlı ilk pilot layihələrin və qida məhsullarında təhlükəsizlik və keyfiyyətin monitorinqi üçün sistemlərin tətbiqinə başlanılacaqdır;

6.1.8.3.5. qida istehsalı, emalı, daşınması və satışına qədər bütün mərhələlərdə müasir texnologiyaların tətbiqinə başlanılacaqdır;

6.1.8.3.6. pilot layihə qismində 50 qida subyektinin vahid izlənilməyə dair proqram təminatına qoşulması təmin ediləcəkdir;

6.1.8.3.7. qida təhlükəsizliyi ilə bağlı risklərin və potensial problemlərin təhlilinə imkan verən süni intellekt modeli tətbiq ediləcəkdir;

**6.1.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** Agentliyin və digər qurumların müvafiq sistemlərinin inteqrasiyası infrastruktur və maliyyə məsələsi baxımından proses müəyyən qədər uzana bilər. Bundan əlavə, yeni texnologiyaların tətbiqi qida subyektləri tərəfindən əlavə xərc baxımından ilkin mərhələdə birmənalı qarşılanmayacaqdır. Bunun qarşısının alınması üçün ilk növbədə qurumlarla müvafiq informasiya sistemlərinin (ehtiyatlarının) inteqrasiyasının başa çatdırılması nəzərdən keçiriləcəkdir. Qida obyektlərində məhsulların izlənilməsi üçün müasir texnologiyalardan istifadənin təbliği və bunun vacibliyi, onlar üçün yaradacağı üstünlüklər barədə məlumatlar verilməklə müvafiq istiqamət üzrə onların tətbiqinin təşviqi genişləndiriləcəkdir;

**6.1.9. idxal, ixrac nəzarətinin və beynəlxalq əməkdaşlığın gücləndirilməsi:**

**6.1.9.1. əsaslandırma:** idxal və ixrac üzrə nəzarətin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində əhəmiyyətli və vacib addımlar atılmışdır. Eyni zamanda Agentlik ölkənin ticarət tərəfdaşlarını qida təhlükəsizliyi sahəsində hüquqi aktlarda dəyişikliklər barədə məlumatlandırmaq üçün mütəmadi tədbirlər görür və onlarla sağlamlıq sertifikatlarının qarşılıqlı qəbulu üzrə səmərəli işləyir.

İxrac tərəfdaşlığının genişləndirilməsi və qarşılıqlı razılıq əldə edilməsi, eyni zamanda idxal və ixrac əməliyyatları üzrə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti üzrə məntəqələrin qurulması istiqamətində işlərin davam etdirilməsi olduqca vacibdir. Bundan əlavə, qabaqcıl beynəlxalq təcrübənin mənimsənilməsi və təcrübə mübadiləsinin təmin olunması üçün qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədəuyğundur;

**6.1.9.2. görüləcək tədbirlər:**

6.1.9.2.1. idxal və ixrac əməliyyatları üzrə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti üzrə məntəqələrin qurulması;

6.1.9.2.2. transsərhəd heyvan xəstəliklərinə və bitki zərərvericilərinə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı qonşu ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi;

6.1.9.2.3. arıçılıq məhsullarının (o cümlədən balın) xarici ölkələrə, xüsusilə Avropa İttifaqı ölkələrinə ixracı üçün müvafiq icazənin alınması ilə bağlı iş aparılması;

6.1.9.2.4. quşçuluq məhsullarının (o cümlədən yumurtanın) yeni bazarlara ixracı üçün müvafiq icazənin alınması ilə bağlı iş aparılması;

**6.1.9.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.9.3.1. idxal və ixrac edilən məhsulların baytarlıq və fitosanitar yoxlamalarının həyata keçirilməsi üçün 2 yeni qida təhlükəsizliyinə nəzarət məntəqəsi fəaliyyətə başlayacaqdır;

6.1.9.3.2. heyvan xəstəliklərinin və bitki zərərvericilərinin yayılması zamanı qonşu ölkələrlə birlikdə mübarizə mexanizmlərinin səmərəli şəkildə tətbiq olunması həyata keçiriləcəkdir;

6.1.9.3.3. Azərbaycan Respublikasında istehsal olunan arıçılıq məhsullarının (o cümlədən balın) xarici ölkələrə, xüsusən Avropa İttifaqı ölkələrinə ixrac edilə bilməsi üçün müvafiq icazənin alınmasına nail olunacaqdır;

6.1.9.3.4. yeni bazarlara quşçuluq məhsullarının (o cümlədən yumurtanın) ixracına dair icazənin alınmasına nail olunacaqdır;

**6.1.9.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** idxal və ixrac əməliyyatları üzrə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti məntəqələrinin qurulması və transsərhəd əməkdaşlığın gücləndirilməsi zamanı əsas risklərə nəzarət mexanizmlərinin uyğunsuzluğu, məlumat mübadiləsinin gecikməsi, infrastruktur və kadr çatışmazlığı, eləcə də yoluxucu heyvan xəstəliklərinin və bitki zərərvericilərinin sürətlə yayılması ehtimalı daxildir. Bu risklərin qarşısının alınması üçün qonşu ölkələrlə vahid nəzarət protokollarının razılaşdırılması, operativ məlumat mübadiləsi sistemlərinin qurulması, birgə monitorinq və təlimlərin təşkili, laboratoriya potensialının gücləndirilməsi və sərhəd nəzarətində riskə əsaslanan yanaşmanın tətbiqi zəruridir;

**6.1.10. istehlakçıların sağlam qidalanma vərdişlərinin inkişaf etdirilməsi və ictimai nəzarətinin gücləndirilməsi:**

**6.1.10.1. əsaslandırma:** qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi və sağlam qidalanmanın təşviqi cəmiyyətdə sağlam həyat tərzinin formalaşmasına, qida mənşəli və qeyri-sağlam qidalanma nəticəsində yaranan xəstəliklərin qarşısının alınmasına və ümumi həyat keyfiyyətinin yaxşılaşmasına böyük töhfə verir. Eyni zamanda istehlakçıların sağlam qidalanma vərdişlərinin və onların ictimai nəzarətinin gücləndirilməsi birbaşa ölkə üzrə ümumi qida təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərir. Qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sadəcə qida məhsullarının təhlükəsiz istifadəsini təmin etməklə kifayətlənmir, həm də ümumi sağlamlıq səviyyəsini yüksəldir, xəstəliklərin qarşısını alır və cəmiyyətin həyat keyfiyyətini artırır. Sağlam qidalanmanın təşviqi və qida təhlükəsizliyi sahəsində maarifləndirmə, həmçinin gələcək nəslin rifahı üçün də mühüm bir faktordur;

**6.1.10.2. görüləcək tədbirlər:**

6.1.10.2.1. sağlam qidalanma məqsədilə xüsusi etiketlənmə yanaşmasının tətbiqinin təşviqi;

6.1.10.2.2. diyetologiya və nutrisiologiya sahəsi üzrə çalışan mütəxəssislərin fəaliyyətinə nəzarətin gücləndirilməsi;

6.1.10.2.3. dəyişən istehlakçı vərdişlərinin insan həyatına və sağlamlığına təsiri ilə bağlı təhlillər aparılması, qida istehlakı məlumat bazasının yaradılması;

6.1.10.2.4. qida israfının qarşısının alınması ilə bağlı təşviqat işlərinin görülməsi;

6.1.10.2.5. bioloji aktiv qida məhsulları barədə istehlakçıların maarifləndirilməsi;

**6.1.10.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.10.3.1. xüsusi etiketlənmənin istehsalçılar tərəfindən tətbiqinə nail olunacaqdır;

6.1.10.3.2. diyetologiya və nutrisiologiya sahəsi üzrə qeydiyyata alınaraq çalışan mütəxəssislər fəaliyyətinin təkmilləşdirilməsi üçün təlimlərə cəlb ediləcəklər;

6.1.10.3.3. qida istehlakı üzrə məlumat bazası yaradılacaqdır;

6.1.10.3.4. ictimaiyyətin qida israfı ilə bağlı məlumatlılıq səviyyəsi artırılacaqdır;

6.1.10.3.5. bioloji aktiv qida məhsullarının farmasevtik və bioloji fərqləri barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır;

**6.1.10.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** əhalinin məlumatlılıq səviyyəsinin aşağı olması və maarifləndirmə kampaniyalarına marağın azlığı, sosial şəbəkədə maarifləndirmə işlərinin təsirinin zəif olması, qida marketinqinə külli miqdarda investisiyalar yatırılması və maarifləndirmə materiallarının kifayət qədər əhatəli olmaması kimi risklərin mövcudluğu bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsini labüd edir. Belə ki, maarifləndirmə kampaniyalarını daha cəlbedici etmək üçün interaktiv və əyləncəli metodlardan istifadə etməklə (oyunlar, yarışmalar, sosial media çağırışları və s.), məşhur şəxslərlə əməkdaşlıq edərək geniş auditoriyaya çıxışı artırmaqla, çoxdilli və fərqli auditoriyalara uyğunlaşdırılmış materiallar hazırlanmaqla uğurlu nəticələr əldə etmək mümkündür.

## 7. Dövlət Proqramının maliyyələşdirmə mexanizmləri

7.1. Dövlət Proqramındakı tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

7.1.1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aidiyyəti dövlət orqanları (qurumları) üçün müvafiq il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait;

7.1.2. büdcədənkənar fondlar;

7.1.3. dövlət-özəl tərəfdaşlığı nəticəsində formalaşan maliyyə vəsaiti;

7.1.4. yerli və xarici investisiyalar;

7.1.5. beynəlxalq təşkilatların maliyyə vəsaiti;

7.1.6. qanunla qadağan edilməyən digər mənbələr.

*Ardı 6-cı səh.*

# Baş nazir Əli Əsədov Dünya Bankının regional direktoru ilə görüşüb



Azərbaycanın Baş naziri Əli Əsədov sentyabrın 10-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli və səmərəli tərəfdaşlığın mövcud olduğu qeyd edilib, ötən dövr ərzində birgə həyata keçirilmiş layihələrin ölkəmizin sosial-iqtisadi inkişafının dəstəklənməsinə töhfə verdiyi diqqətə çatdırılıb.

Dayanıqlı şəhər inkişafı, "yaşıl enerji", nəqliyyat infrastrukturu, kənd təsərrüfatı, su təchizatı və su ehtiyatlarının idarə edilməsi, həmçinin bir sıra digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında qarşılıqlı faydalı tərəfdaşlığın inkişaf perspektivləri və gələcək birgə layihələr müzakirə olunub. Görüşdə Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Kazımov iştirak edib.

## "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 mart tarixli 622 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 288** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 mart tarixli 622 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qiymətli metalların və qiymətli daşların sertifikatlaşdırılma qaydaları, onlardan hazırlanan məhsulların (zərgərlik və digər məişət məmulatları istisna olmaqla) növlərinin siyahısını, sertifikatlaşdırılma formalarını, habelə bu məhsul növlərinin sertifikatlaşdırılmasını tələb edən hallar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 60 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 135 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 22 iyun tarixli 192 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 1-ci hissəyə "zərgərlik" sözündən əvvəl "emal edilməmiş almazlar," sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların sertifikatlaşdırılma qaydaları, onlardan hazırlanan məhsulların (zərgərlik və digər məişət məmulatları istisna olmaqla) növlərinin siyahısını, sertifikatlaşdırılma formalarını, habelə bu məhsul növlərinin sertifikatlaşdırılmasını tələb edən hallar" üzrə:

1.2.1. adına, 1-ci, 4-cü və 9-cu hissələrə "zərgərlik" sözündən əvvəl "emal edilməmiş almazlar," sözləri əlavə edilsin;

1.2.2. "Qiymətli metalların və qiymətli daşların sertifikatlaşdırılma qaydaları, onlardan hazırlanan məhsulların (zərgərlik və digər məişət məmulatları istisna olmaqla) növlərinin siyahısını, sertifikatlaşdırılma formalarını, habelə bu məhsul növlərinin sertifikatlaşdırılmasını tələb edən hallar"a Əlavə - "Qiymətli metallardan və qiymətli daşlardan hazırlanan məhsul (zərgərlik və digər məişət məmulatları istisna olmaqla) növlərinin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.2.2.1. yuxarı sağ küncünə və adına "zərgərlik" sözündən əvvəl "emal edilməmiş almazlar," sözləri əlavə edilsin;

1.2.2.2. 3-cü sətir ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1030 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 9, maddələr 1090, 1106, № 12 (II kitab), maddə 1460; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nın 3.3.8-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.3.9-cu yarımbənd əlavə edilsin:

"3.3.9. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən emal edilməmiş almazlara dair Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rəyinin surəti.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 oktyabr tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1207 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 12 (II kitab), maddə 1460; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın 8.3-cü bəndinə "sənədlərlə," sözündən sonra "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən emal edilməmiş almazlara dair Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rəyi ilə," sözləri, "çıxarış" sözündən sonra ", rəy" sözü əlavə edilsin.

4. Bu Qərar Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 292** **Bakı şəhəri, 10 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının 1.1-1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Ağstafa, Göygöl, Ağdam və Füzuli rayonlarında (işğaldan azad olunmuş ərazilər istisna olmaqla) su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, suvarma suyuna olan tələbatın ödənilməsi, eləcə də tikili və hidrotexniki qurğuların inşa olunacağı layihələrlə əlaqədar olaraq tikinti altına düşən torpaq sahələrinin dövlət ehtiyacları üçün alınması ilə bağlı alan orqan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi müəyyən edilsin.

2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan rayonlarda torpaq sahələrinin dövlət ehtiyacları üçün alınması ilə bağlı hazırlıq tədbirlərini "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirsin və bu barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 284** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I); 2024, №7, maddə 899; 2025, №12 (II kitab), maddə 1204; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 iyul tarixli 225 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nın on üçüncü sətrinə "ağciyər" sözündən sonra ", kök hüceyrələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 dekabr tarixli 229 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 286** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 dekabr tarixli 229 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1229 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə 3-cü hissə hesab olunsun və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1.3-cü hissə üzrə:

2.1.1. 3.2.6-cı yarımbənddən ", nəqli" sözü çıxarılsın;

2.1.2. 3.2.7-ci və 3.2.8-ci (birinci halda) yarımbəndlərə ismin müvafiq hallarında "təchizat" sözündən əvvəl "istilik" sözü əlavə edilsin;

2.1.3. 3.2.13-cü yarımbənddən "enerjisi" sözü çıxarılsın;

2.1.4. 3.2.14-cü, 3.2.16-cı, 3.2.19-cu, 3.2.20-ci və 3.2.22-ci yarımbəndlərə ismin müvafiq hallarında "təchizat" sözündən əvvəl "istilik" sözü əlavə edilsin;

2.2. "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 may tarixli 662 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 287** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 may tarixli 662 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I); 2024, № 2, maddə 206, № 12 (I kitab), maddə 1313; 2025, № 8, maddə 811; 2026, № 2, maddə 191) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nın 143-cü hissəsindən ", "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyəti Depo 2" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264, № 4, maddə 360, № 4, maddə 387, № 5, maddələr 466, 470, 474; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 iyun tarixli 165 nömrəli, 9 iyun tarixli 173 nömrəli, 25 iyun tarixli 200 nömrəli və 24 iyul tarixli 237 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 98-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 289** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 aprel tarixli 654 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 614 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1-ci bənddə və 6.1.3-cü yarımbənddə "mədəniyyət sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

2. 6-cı hissənin adında və 6.1-ci bənddə "Mədəniyyət sənayesinin" sözləri "Mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

3. 6.1.1-ci yarımbənddə "mədəniyyət, o cümlədən əyləncə sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Səfərbərlik ehtiyatlarının nomenklaturası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 290** **Bakı şəhəri, 10 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Səfərbərlik ehtiyatlarının nomenklaturası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi səfərbərlik ehtiyatlarının nomenklaturasında qeyd edilən malların tədarükünün 2027-ci ilin dövlət büdcəsindən maliyyələşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi səfərbərlik ehtiyatlarının nomenklaturası üzrə ehtiyatların uçotunun aparılmasını və bu sahədə nəzarətin həyata keçirilməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*




# Avrasiyanın güc mərkəzi

## Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə dərinləşən tərəfdaşlığı hər iki regionu vahid strateji məkanda birləşdirir

Avrasiya qitəsinin nəqliyyat, enerji və təhlükəsizlik xəritəsi köklü şəkildə yenidən formalaşır. Bu tarixi dəyişikliyin mərkəzində isə Cənubi Qafqaz ilə Mərkəzi Asiya regionlarının sürətli, sistemli və hərtərəfli inteqrasiyası dayanır. 44 günlük Vətən savaşında qazanılan tarixi Zəfərdən sonra Azərbaycanın yüksələn beynəlxalq mövqeyi, qlobal enerji bazarındakı önəmli rolu və milli maraqlara söykənən çoxvektorlu xarici siyasəti ölkəmizin geostrateji çəkisini daha da artırıb.

Şərqlə Qərb, Şimalla Cənub arasında təbii və etibarlı körpü rolunu oynayan, eləcə də regionun əsas tranzit-logistika mərkəzinə çevrilən Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə tarixi, mədəni və mənəvi bağlara söykənən əlaqələri Prezident İlham Əliyevin uzaqgörən, praqmatik və ardıcıl diplomatiyası sayəsində keyfiyyətcə yeni mərhələyə, müttəfiqlik müstəvisinə yüksəlib.

Çoxşaxəli tərəfdaşlıq xəttinin mühüm tərkib hissəsi kimi, son vaxtlar Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında ali səviyyəli dialoq xüsusilə intensiv xarakter alıb. Sentyabrın 9-da Prezident İlham Əliyevin Tacikistanın dövlət müstəqilliyinin 35 illiyi münasibətilə bu ölkənin Prezidenti Emoməli Rəhmona ünvanladığı təbrik məktubu ikitərəfli münasibətlərin yüksək səviyyəsini və səmimiyyətini bir daha aydın şəkildə nümayiş etdirdi. Məktubda ortaq dini-mədəni və tarixi köklərlə sıx bağlı olan xalqlarımızın iradəsini özündə təcəssüm etdirən Azərbaycan-Tacikistan dostluğunun və qardaşlığının günbəgün möhkəmlənməsi, yeni məzmunla zənginləşməsi böyük məmnunluqla vurğulandı.

Son illərdə Tacikistan və Azərbaycan arasında siyasi dialoq, ticari-iqtisadi, investisiya, nəqliyyat, energetika və humanitar sahələr də daxil olmaqla, bütün istiqamətlər üzrə müsbət dinamika müşahidə olunur. İki ölkə arasında formalaşmış uzunmüddətli və çoxşaxəli əməkdaşlığın dərinləşməsində ali səviyyəli dövlət səfərləri həlledici rol oynayıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü il aprelin 5-də Tacikistana dövlət səfəri, eynilə Tacikistan Prezidenti Emoməli Rəhmonun 2024-cü ildə Azərbaycana səfəri ikitərəfli əlaqələrə güclü təkan verib, münasibətlərdə həqiqi dönüş nöqtəsinə çevrilib. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması isə ikitərəfli dialoqu tarixi zirvəyə çatdıraraq, Bakı və Düşənbənin bir-birinə etibarlı və uzunmüddətli strateji tərəfdaş kimi baxdığını rəsmiləşdirib. Hazırda iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılması, energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi, regional logistika üzrə birgə təşəbbüslərin reallaşdırılması yaxın perspektiv üçün prioritet vəzifələr kimi önə çıxır.

Azərbaycanın ümumilikdə Mərkəzi Asiya dövlətləri ilə münasibətləri ikitərəfli çərçivələri aşaraq regional tərəfdaşlığın əsasını qoyub. Prezident İlham Əliyevin avqustun 31-də Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak etmək məqsədilə Qırğız Respublikasına işgüzar səfəri və bu çərçivədə imzalanan müttəfiqlik münasibətləri haqqında müqavilə ölkəmizin Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında siyasi, iqtisadi və nəqliyyat əlaqələrinin gücləndirilməsindəki aparıcı rolunu bir daha təsdiqlədi.

Dövlət başçıları səviyyəsində müntəzəm səfərlər və görüşlər prosesə güclü təkan verdi. Statistika da bu dinamikanı sübut edir. 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 17 dəfə səfər etməsi, region liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi Cənubi Qafqaz və Mərkəzi Asiyanın vahid siyasi-iqtisadi məkan kimi fəaliyyət göstərdiyinin bariz göstəricisidir.

Bu strategiyanın mühüm dönüş nöqtəsi 2025-ci ilin noyabrında Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü olub. Azərbaycanın xüsusi qonaq statusundan tamhüquqlu iştirakçı statusuna keçməsinə dair tarixi qərarın qəbul edilməsi ilə əvvəllər "5+1" olan format faktiki olaraq C6 müstəvisinə keçdi. Bu tarixi addım Azərbaycanın Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, Mərkəzi Asiya regionunun ayrılmaz parçası, regional qərarların qəbulunda aparıcı ölkə olduğunu rəsmiləşdirdi.

Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının işğaldan azad olunmuş ərazilərə səfərləri, o cümlədən Qırğızıstan tərəfindən Ağdamda inşa edilən və böyük mənəvi dəyərə malik "Manas" adına məktəb binası, Özbəkistanın Füzulidə tikdirdiyi Mirzə Uluqbəy adına məktəb, Qazaxıstanın Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi və digər qardaş dövlətlərin sosial-infrastruktur töhfələri də regional həmrəyliyin və mənəvi bağlılığın təzahürüdür.

Siyasi müstəvidə formalaşan yüksək etimad və sıx dialoq nəqliyyat-logistika, energetika və qarşılıqlı investisiya sahələrində də real layihələrlə dəstəklənir. Dünyada yaşanan gərginliklər fonunda nəqliyyat xəritəsinin dəyişməsi Orta dəhlizin strateji əhəmiyyətini artırır. Azərbaycan Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanı Türkiyə və Avropaya birləşdirən əsas mərkəz olmaqla, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürücülük gücünün artırılması, Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi, Ələt Azad İqtisadi Zonası və Zəngəzur dəhlizinin (TRIPP) açılması perspektivi ilə region ölkələrinin limanlara və dünya bazarlarına çıxışını əhəmiyyətli dərəcədə asanlaşdırır. Təsadüfi deyil ki, son illərdə Orta dəhliz vasitəsilə daşınan yüklərin həcmi dəfələrlə artaraq əməkdaşlığın real iqtisadi töhfəsini ortaya qoyur. Eyni zamanda iqtisadi əlaqələri möhkəmləndirmək məqsədilə Azərbaycan-Qazaxıstan, Azərbaycan-Özbəkistan və Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya fondlarının yaradılması müxtəlif sahələrdə birgə layihələrin maliyyələşdirilməsinə xidmət edir.

Energetika, rəqəmsallaşma və beynəlxalq platformalarda həmrəylik sahəsində də regional inteqrasiya keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji sistemlərinin birləşdirilməsi və "yaşıl enerji"nin Xəzər dənizinin dibi ilə Avropaya ixracı layihələri strateji önəm daşıyır.

Çoxtərəfli əlaqələrin inkişafında Türk Dövlətləri Təşkilatı (TDT) da xüsusi çəkiyə malikdir. Beynəlxalq aləmdə təsirli mexanizmə çevrilən TDT türk dünyasının hərtərəfli inteqrasiyasını sürətləndirir və region ölkələrinin qlobal çağırışlara qarşı vahid güc mərkəzi kimi çıxış etməsinə imkan yaradır. Tərəflər, eyni zamanda Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də razılaşdırılmış vahid mövqedən çıxış edirlər.

Xəzər dənizinin ayırıcı deyil, birləşdirici amilə çevrilərək vahid iqtisadi, nəqliyyat və enerji məkanında qovuşdurduğu Cənubi Qafqaz və Mərkəzi Asiya regionları Avrasiya qitəsində dayanıqlı, təhlükəsiz və iqtisadi baxımdan özünü təmin edən yeni geostrateji güc mərkəzinin formalaşdığını sübut edir. Bu qarşılıqlı inteqrasiya həm də qlobal çağırışlar fonunda sülhün və təhlükəsizliyin etibarlı zəmanətinə çevrilir. Məhz bu siyasət nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiya Avrasiyanın gələcək inkişaf xəritəsində aparıcı və həlledici qütbə çevrilir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Qlobal iqlim fəaliyyətinin prioritetləri Bakıda müzakirə olundu

Bu günlərdə Azərbaycan növbəti dəfə qlobal əhəmiyyətli beynəlxalq tədbirə evsahibliyi etdi. Sentyabrın 7-dən başlayan və paytaxtımızın iqlim diplomatiyasının mərkəzi kimi mövqeyini daha da möhkəmləndirən "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW) bu gün başa çatır.

BCAW bu il ilk dəfə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konfransının 4-cü İqlim Həftəsi (CW4) ilə eyni vaxtda paralel təşkil olunub. Sentyabrın 11-dək davam edən tədbirlər iqlim qərarlarının praktiki icrası, beynəlxalq əməkdaşlıq və COP31 ərəfəsində iqlim fəaliyyətinin gücləndirilməsinə həsr olunub.




Qeyd edək ki, iqlim dialoqu, tərəfdaşlıq və real icra üçün aparıcı beynəlxalq platformaya çevrilən "Bakı İqlim Fəaliyyəti Həftəsi" Paris Sazişinin və milli iqlim öhdəliklərinin icrasını sürətləndirmək məqsədilə dünyanın dörd bir yanından gələn nüfuzlu qonaqları bir araya gətirib. "Bakı İqlim Fəaliyyəti Həftəsi" ildən-ilə daha böyük miqyasda və daha zəngin proqramla keçirilir. BCAW2026 daha geniş sektor və iştirakçı qruplarını bir araya gətirərək iqlim gündəliyinin prioritetlərini konkret fəaliyyət, tərəfdaşlıq və investisiya imkanları ilə əlaqələndirməyə fokuslanır. Tədbirlərdə ölkəmizin Energetika və Xarici İşlər nazirliklərinin rəhbər şəxsləri, həmçinin COP29, COP30 və COP31 sədrliyi komandalarının nümayəndələri yer alıblar. Eyni zamanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) və Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) təmsilçiləri, bir çox nüfuzlu qlobal qurumun rəsmiləri müzakirələrə qoşulublar. Çıxışlar və panellər zamanı əsas diqqət COP29-dan COP31-ə qədər davam edən keçid dövründə iqlim gündəliyinin tempinin itirilməməsinə və öhdəliklərin real, ölçülə bilən praktiki nəticələrə çevrilməsinə yönəldilib. Eyni zamanda bütün maraqlı tərəflər arasında qarşılıqlı tərəfdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi xüsusi vurğulanıb. Bu müxtəliflik həm də Azərbaycanın inklüziv iqlim dialoqunun aparıcı təşkilatçısı qismində qlobal miqyasda oynadığı körpü rolunu bir daha nümayiş etdirir.

Başladığı gündən intensiv şəkildə davam edən müzakirələr xüsusi istiqamətləri və praktiki həlləri əhatə edib. Həm plenar iclaslarda, həm də panellərdə müxtəlif məsələlər müzakirə olunub və konkret addımlar müəyyənləşdirilib. Enerji təhlükəsizliyi, maliyyə mexanizmləri, iqlimə uyğunlaşma strategiyaları, kiçik və orta biznesin "yaşıl iqtisadiyyat"a inteqrasiyası və ədalətli keçid kimi məsələlər müzakirə olunub. İqlim məsələlərində hökumətlərlə özəl sektorun birgə səfərbər olunması yolları araşdırılıb. Həmçinin sənaye və innovasiya liderləri, "yaşıl texnologiya" sahibkarları praktiki təcrübələrini bölüşüblər. Az karbonlu inkişafın təmin edilməsi üçün sənayedə tətbiq olunan yenilikçi yanaşmalar diqqət mərkəzində olub.

Tədbirdə iqlim idarəçiliyinə gənc nəslin baxış bucağını gətirən gənclərin moderatorluğu ilə keçirilən sessiyalar da xüsusi maraq doğurub. Gənclərin "yaşıl bacarıq"lara yiyələnməsi və iqlim təhsilinin gücləndirilməsi prioritet istiqamətlərdən olub. Həmçinin kiçik və orta biznesin ekoloji dayanıqlığı və ekoloji cəhətdən uyğun dəb sahəsində öhdəliklərin yerinə yetirilməsinə dəstək məqsədilə yeni tərəfdaşlıq sazişləri və təşəbbüslər irəli sürülüb.

BCAW proqramı çərçivəsində vurğulanan əsas məsələlərdən biri də dairəvi iqtisadiyyat və "Sıfır Tullantı" yanaşmasıdır. İqlim dəyişikliyinin təsirlərinin azaldılması və adaptasiya tədbirlərinin gücləndirilməsi səbəbindən təbii sərvətlərdən səmərəli istifadə, tullantıların idarə olunması və etibarlı maliyyə mexanizmlərinin işlənib hazırlanması gələcək nəsillər qarşısında ən başlıca vəzifədir. Çünki bu qlobal çağırışların vaxtında və uğurlu həlli bugünkü nəsillərin ədalətli və qətiyyətli addımlarından asılıdır.

Beləliklə, "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" Azərbaycanın həm regional, həm də qlobal səviyyədə iqlim hərəkatının əsas hərəkətverici platformasından olduğunu bir daha təsdiqlədi. Paytaxtımızdan dünyaya ünvanlanan hər bir çağırış, imzalanan hər bir tərəfdaşlıq sənədi və irəli sürülən praktiki həll yolu planetimizin daha yaşıl, dayanıqlı və təhlükəsiz gələcəyinə verilən mühüm töhfədir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Terrordan ən çox əziyyət çəkən ölkələrdən biri Azərbaycandır

2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş dəhşətli terror aktından 25 il ötür. Bu faciəvi olaydan sonra dünyanın təhlükəsizlik anlayışında tamamilə yeni bir dövr başladı. Bütün bəşəriyyət terrorizmə qarşı birgə mübarizə etməyin vacibliyini anladı. Bu qlobal mübarizəyə ilk dəstək verən və ön sıralarda yer alan ölkələrdən biri də Azərbaycan oldu. Ölkəmizin antiterror koalisiyasına dərhal qoşulması təsadüfi deyildi. Çünki Azərbaycan dünyada terrordan və separatizmdən ən çox əziyyət çəkən dövlətlərdən biri idi.

### Ölkəmiz terrorla mübarizədə ön sıralardadır

Ölkəmiz bu beynəlxalq fəlakətlə mübarizədə ilk növbədə informasiya mübadiləsi, beynəlxalq terrorizm şəbəkəsi ilə əlaqəsi olan şəxslərin və ya qurumların ifşa olunması, terrorizmin maliyyələşmə şəbəkəsinin üzə çıxarılması kimi məsələlərə xüsusi diqqət yetirir. Bununla yanaşı, Azərbaycan hərbçiləri beynəlxalq sülh yaratma missiyalarında fəal iştirak edirlər. Hətta 2021-ci ilin avqustunda missiya başa çatanda Əfqanıstanı ən son tərk edən məhz Azərbaycan sülhməramlıları oldu. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens cari il fevralın 10-da Prezident İlham Əliyevlə mətbuat konfransı zamanı Azərbaycan hərbçilərinin bu cəsarətini və etibarlı tərəfdaşlığını xüsusi vurğuladı: "Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-nin hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar".

Xatırladaq ki, 2002-ci il noyabrın 20-dən Azərbaycan Ordusunun 22 nəfərlik sülhməramlı taqımı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. 2015-ci il yanvarın 1-dən etibarən Azərbaycan sülhməramlıları Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 6 aylıq rotasiya planına uyğun olaraq fəaliyyətə başlayıb. İlkin mərhələdə 94 nəfərlik kontingent ilə xidmətə başlayan Azərbaycan Ordusu 9 yanvar 2018-ci il tarixdən missiyaya töhfəsini artırmaq məqsədilə şəxsi heyətinin sayını 120-yə çatdırıb. Missiyanın sona çatması ilə əlaqədar, Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci ildə ölkəyə geri dönüblər. Əfqanıstanda NATO-nun rəhbərlik etdiyi sülhməramlı əməliyyatlarda Azərbaycan hərbçilərinin peşəkarlıqla xidmət göstərməsi, təhlükəsizlik və sabitliyin təmininə real töhfə verməsi ölkəmizin qlobal təhlükəsizlik sistemində məsuliyyətli tərəfdaş olduğunu bir daha sübut etdi.

### Qanlı faktlar

Amerikalılar terrorun nə olduğunu 25 il əvvəl daha çox anladılar. Azərbaycan xalqı isə buna qədər nəinki onilliklər, əsrlər boyu erməni terrorunun ağrı-acısı ilə yaşayıb. Təkcə müasir statistika xalqımıza qarşı erməni terrorunun miqyasını və dəhşətini faktlarla ortaya qoyur.

1967-ci ildən 1994-cü ilə qədər ermənilər azərbaycanlılara qarşı 50-dən çox terror hadisəsi törədiblər. 1988-1993-cü illərdə ermənilər tərəfindən mülki şəxslərə və hərbçilərə qarşı törədilmiş terror aktları nəticəsində 1250 nəfər həlak olub, 1283 nəfər yaralanıb, 65 nəfər itkin düşüb.



3 iyul 1967-ci ildə Xankəndidə keçirilən məhkəmədən sonra ermənilər şərləyərək həbs etdirdikləri Qaradağlı kəndinin 3 sakininin olduğu polis maşınına hücum edib, onları qətlə yetirdikdən sonra üstlərinə benzin tökərək yandırıblar.

1988-ci ilin fevralında Əsgəranda iki azərbaycanlı gənc - Əli Hacıyev və Bəxtiyar Quliyev qətlə yetirildi.

10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" avtobusunun partladılması ilə 20 nəfər həlak oldu, 30 nəfər yaralandı.

20 noyabr 1991-ci ildə Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun vurulması nəticəsində Azərbaycanın dövlət xadimləri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər daxil olmaqla 22 nəfər həlak oldu.

1992-ci ilin yanvarında Kərkicahan qəsəbəsində 80 nəfər dinc sakin qətlə yetirildi. Həmin ilin 28 yanvarında isə "Ağdam-Şuşa" mülki vertolyotunun vurulması nəticəsində çoxu qadın və uşaq olan 44 nəfər həyatını itirdi.

17 fevral 1992-ci ildə Qaradağlı kəndinin 56 sakini (onlardan 12-si uşaq) güllələndi.

26 fevral 1992-ci ildə törədilən Xocalı soyqırımı zamanı 613 dinc sakin həlak oldu, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü.

19 mart 1994-cü ildə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilən partlayışda 14 nəfər həlak oldu, 49 nəfər yaralandı.

1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımız deportasiya edilən zaman erməni caniləri onlara qarşı çoxsaylı cinayət əməlləri törədiblər.

Ermənistan terror əməllərindən 2020-ci il Vətən müharibəsi dövründə də əl çəkmədi. Cəbhədən uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə və Mingəçevir kimi şəhərlərimiz ballistik raketlər və kasetli mərmilərlə bombalandı, 100-dən çox günahsız dinc sakin həlak oldu. Prezident İlham Əliyev BMT-nin 80-ci sessiyasındakı çıxışında vurğuladığı kimi, Ermənistan dinc əhalini hədəf aldığı halda, Azərbaycan müharibəni beynəlxalq humanitar hüquqa tam əməl edərək apardı, qeyri-hərbi infrastrukturu hədəfə almadı və mülki şəxsləri qorudu.

Otuz ilə yaxın davam edən işğal dövrü həm də torpaqlarımızı mina tarlasına çevirdi. Ərazimizin 13 faizindən çoxu mina və partlamamış sursatlarla çirkləndirilib. Münaqişə başlayandan bəri 3500-dən çox vətəndaşımız minalardan zərər çəkib. Təkcə 2020-ci ildən indiyədək mülki şəxslər, hərbçilər, minaaxtaranlar və jurnalistlər də daxil olmaqla, 437 nəfər mina qurbanı olub, onlardan 73-ü həyatını itirib. Ermənistanın verdiyi mina xəritələrinin dəqiq olmaması və minaların yollara, yaşayış sahələrinə, qəbiristanlıqlara basdırılması bu gün də mülki insanların həyatına təhlükə yaratmaqda davam edir.

Azərbaycanın üzləşdiyi erməni terroru və mina təhlükəsi təkcə bir regionun deyil, bütün bəşəriyyətin ortaq problemidir. 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatları nəticəsində Qarabağda separatizmin kökü kəsildi. Bakıda ədalət qarşısına çıxarılan müharibə caniləri bir daha sübut etdilər ki, terror cəzasız qala bilməz. Bu gün beynəlxalq ictimaiyyət terrordan əziyyət çəkən və qlobal təhlükəsizliyə real töhfələr verən Azərbaycanın haqlı mübarizəsinə dəstək olmalı, Ermənistanın mina terroruna qarşı həmrəylik nümayiş etdirməli və İrəvanın dəqiq mina xəritələrini ölkəmizə təqdim etməsinə nail olmalıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

“AZƏRBAYCAN” - 108

# Müstəqillik tariximizin yazıldığı ilk ünvan

## "Azərbaycan" qəzetinin Gəncə dövrü

**Mətbuatımızın "Azərbaycan"ı ilk addımlarını 108 il öncə Gəncə şəhərində atıb. 1908-ci il sentyabrın 15-də qəzetin ilk sayı bu şəhərdə işıq üzü görüb. "Azərbaycan"ın Gəncə dövrü uzun sürməyib. Qəzetin cəmi dörd sayı Gəncə ünvanı ilə təqdim olunub. Amma bu qısa zamanda da "Azərbaycan" öz səhifələrində böyük tarix yazıb.**








### "Azərbaycan"a gələn yol...

XX əsrin ilk illərindən Rusiyada iğtişaşlar gücləndi. İctimai-siyasi hadisələr kəskinləşməyə, inqilabi hərəkat genişlənməyə başladı. Romanovların 300 illik taxtı sanki burulğana doğru yönəlmişdi. Çarizm həyata keçirdiyi ən kəskin tədbirlərlə, hətta güzəştlər vəd etməklə bunun qarşısını ala bilmirdi. Belə bir vaxtda imperiyanın müstəmləkəsində olan xalqların öz hüquqlarını müdafiə etmək səyləri daha da güclənirdi.

XX əsrin əvvəlləri xalqımızın milli oyanış və özünüdərk dövrü kimi tarixə yazılırdı. Zamanın nəbzini tutan, soydaşlarını düşdükləri gerilik, cəhalət, ətalət bataqlığından xilas etməyə çalışan mütərəqqi fikirli, vətənpərvər, təəssübkeş ziyalılarımız çarizmin zülmlərinə, ədalətsizliyinə qarşı çıxır, qurtuluş yolu axtarırdılar. Onlar əsrin ilk illərindən bu səbəblərdən təşkilatlanmağa başladılar.

Azərbaycan xalqının azadlıq mübarizəsində 1917-ci ilin Fevral inqilabının mühüm rolu oldu. Çar hakimiyyəti süquta uğradı. Hakimiyyət Müvəqqəti hökumətin əlinə keçdi. Ancaq siyasi tüğyanın səngiməməsi Müvəqqəti hökumətin də sonunu gətirdi. 1917-ci ilin oktyabrında yenidən inqilab baş verdi və bolşeviklər hakimiyyətə gəldilər.

Müstəmləkədən qurtulan millətlərin müstəqilliklərini qazanmalarına şərait yarandı. Lakin Vladimr İliç Leninin rəhbərlik etdiyi bolşevik hökuməti Bakı neftini əldən vermək niyyətində deyildi. Azərbaycanın müstəqilliyinin qarşısını almaq üçün bolşevik Rusiyası ilə erməni daşnakları ittifaqa girdilər, məkrli planlar qurdular. I Dünya müharibəsində döyüşmüş hərbçilər Azərbaycana gətirildi. 1918-ci ilin martında bolşevik-daşnak birləşmələrindən ibarət çox güclü silahlı dəstələr Bakıda soyqırımı törətdilər. Azğınlaşmış bolşevik-daşnak dəstələri qətliama son qoymadılar. Azərbaycanın digər bölgələrində də dəhşətli faciələr, kütləvi qətllər həyata keçirməyə başladılar.

Azərbaycan Xalq Cümhuriyyəti belə bir zamanda yarandı. Vətənpərvər övladları Azərbaycanın dövlət müstəqilliyini Tiflisdə elan etməli oldular. 1918-ci il mayın 28-də qurulan Cümhuriyyət hökumətinin Bakıda fəaliyyət göstərməsi də asan olmadı. Çünki Azərbaycanın paytaxtı hələ də bolşevik-erməni dəstələrinə azərbaycanlıların soyqırımı göstərişini verən, qəddar daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin əlində idi.

Azərbaycan Milli Şurasının üzvləri və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Cumhuriyyət hökumətinin qurucularının bir gözü gülür, biri ağlayırdı. Çünki bolşevik-daşnak birləşmələri Azərbaycanın müxtəlif bölgələrində vəhşiliklə qırğınlar törətmiş, evləri, yurdları viran qoymuşdular.

1918-ci il iyulun 31-də Bakı Xalq Komissarları Soveti səlahiyyəti öz üzərindən götürdü. Bakıda əksinqilabçı Sentrokaspi diktaturası yarandı. Azərbaycan xalqına qarşı soyqırımı bundan sonra da davam etdirildi...

### Müstəqil hökumətin yol yoldaşı, çiyindaşı...

Ölkənin vəziyyəti ağır, əhalisi yas, ələm içərisində idi. Ancaq müstəqil dövlət qurmağın coşğusu, onu yaşatmağın məsuliyyəti, gələcəyə bəslədikləri ümidlərlə Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bütün sahələrdə böyük əzmlə çalışırdılar. Onlar mətbuatın gücünü də nəzərdən qaçıra bilməzdilər. Odur ki, mühüm tədbirlərindən biri mətbuatın inkişaf etdirilməsi oldu. Bu sahədə mühüm işlər görüldü.

Cümhuriyyət hökumətinin siyasətini vətəndaşlara izah edən mətbu orqana böyük ehtiyac vardı. Yeni qəzetin büdcəsini tərtib etmək, hökumətin təsdiqinə göndərmək, Gəncədəki mətbəəni bu nəşrin çapına hazırlamaq üçün 1918-ci ilin 25 iyununda müvafiq tapşırıq verildi. Mətbəə ləvazimatının Tiflisdən alınması nəzərdə tutuldu. 1918-ci il iyulun 3-də "Azərbaycan Cümhuriyyəti hökuməti xəbərləri"nin nəşrinə başlamaq qərarı verildi. "Hökumət xəbərləri" həftədə iki dəfə buraxılmalı, səhifələrində əsasən milli hökumətin, ayrı-ayrı nazirliklərin qərarları, təlimatları, xəbərləri, elanları və digər məlumatlar dərc olunmalı idi. "Hökumət xəbərləri"nə rəhbərlik xalq maarif nazirinə həvalə edildi. Lakin bu, qaneedici olmadı. Hökumət sentyabrın əvvəllərində Gəncədə "Azərbaycan" adlı qəzetin nəşrinə başlamaq barədə tarixi qərar qəbul etdi.

1918-ci il sentyabrın 15-də Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində "Azərbaycan" qəzetinin ilk sayı işıq üzü gördü. Azərbaycan dilində buraxılmış səhifələrinin başında, qəzetin adı ilə yanaşı qeyd olundu: "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır".

Müstəqil hökumətin çox ağır vəziyyətdə olduğu bir zamanda mətbuat meydanına çıxan "Azərbaycan" qəzetinin üzərinə böyük vəzifələr və məsuliyyət düşürdü. Bu mətbu orqan Azərbaycan Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından birinə çevrilməli idi. "Azərbaycan" millətin qürurverici tarixinə, sadəcə, yolyoldaşı olmayacaqdı. Bu qəzet Cümhuriyyət hökumətinin keşməkeşli yoluna yoldaş, çiyindaş olmalı idi. Yeni hökumətin öz vətəndaşlarına ünvanladığı müraciətləri, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirməliydi.

"Azərbaycan" qəzetinin ilk sayı A-3 formatda, dörd səhifə həcmində, iki dildə təqdim olundu. Qəzetin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dillərindəydi. Rusca nəşri xırda istisnalarla Azərbaycancanın tərcüməsi idi.

### Ölkəyə müjdə ilə gələn "Azərbaycan"

Qəzetin ilk sayı xoş xəbərlər məcmusu oldu. Həmin gün - sentyabrın 15-də Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz Bakını bolşevik-daşnak işğalından azad etmişdilər. Bu misilsiz qalibiyyətlə bağlı xəbərlər, təbrik teleqramları "Azərbaycan"ın birinci sayına bayram ovqatı gətirmişdi. "Bakının süqutu" adlı məqalədə qeyd olunmuşdu: "Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri Paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: "Bismihil-kərim, Bakı şəhəri 15.9.34 saat 9 əvvəldə qitəatimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Farik Nuri".

Sentyabrın 15-də Nuru Paşa növbəti teleqramda Azərbaycan hökumətini Bakıya dəvət edirdi: "Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik-Nuri".

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan Xoyskinin cavab teleqramı isə belə idi: "Qafqaz İslam Ordusu komandanı səadətli Nuri Paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan".

Qəzet ilk sayında Qafqaz İslam Ordusu Bakını azad edərkən 30 minədək silahlı düşmənin əsir alındığını, çoxlu qənimət ələ keçirildiyini, şəhərdə sakitliyin bərqərar edildiyini yazdı.

### Üzü paytaxta doğru...

"Azərbaycan" qəzeti redaksiyasının birinci ünvanı belə idi: Gəncə şəhəri, Bulatov küçəsindəki 26 nömrəli ev... Bu ev müstəqil "Azərbaycan"ın ilk addımlarına, mürəttib çatışmazlığına, kağız və şrift qıtlığı ilə bağlı çətinliklərinə şahid oldu.

"Azərbaycan" həmin evdə qonaqdır. Hökumət idarələri kimi onun da yolu Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına idi... Qəzetin sentyabrın 19-da işıq üzü görən ikinci sayında bildirilirdi: "Hökumət idarələri hələlik Gəncədə fəaliyyət göstərir. Bu günlərdə hökumət ilk imkan düşən kimi mərkəzi idarələri Bakıya köçürəcəkdir".

"Azərbaycan" qəzetinin üçüncü sayı sentyabrın 22-də, dördüncü sayı isə sentyabrın 25-də çap olundu. Qəzetin dörd səhifəlik, üç səhifəsi rus, bir səhifəsi Azərbaycan dilində olan dördüncü buraxılışında Bakıya köçmək barədə elan verildi. Rus dilində "Gəncə, 25 sentyabr 1918" sərlövhəli yazıda Azərbaycan hökumətinin 3 aylıq fəaliyyətdən sonra Gəncəni tərk edərək öz paytaxtına köçdüyü qeyd olundu. Məqalədə Gəncənin Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli yer tutduğu da vurğulandı. "Azərbaycan"ın həmin sayında "İdarədən" başlığı ilə xəbər verildi: "Qəzetimiz bu gündən Bakıya köçdüyünə binaən hər bir sifarişat üçün bundan sonra bu ünvana müraciət etməli: Bakı, "Azərbaycan" qəzeti idarəsinə".

"Azərbaycan" qəzetinin "Heyəti-idarə"si (Redaksiya heyəti) 1918-ci il sentyabrın 25-də Nazirlər Şurası və mühüm dövlət idarələri ilə birlikdə Bakıya köçdü və müstəqil Azərbaycanın ilk rəsmi qəzetinin on günlük Gəncə dövrü bitdi. "Azərbaycan" qəzeti növbəti, beşinci sayından başlayaraq, tariximizə yeni səhifələri Cümhuriyyət dövlətinin paytaxtından - Bakıdan yazdı...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Azərenerji" və "China Energy" rəhbərlərinin görüşü olub



**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Çinin aparıcı enerji şirkətlərindən olan "China Energy" International Group-un icraçı prezidenti Lin Xiaodanın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüş zamanı Azərbaycan ilə Çin arasında enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, xüsusilə bərpaolunan enerji layihələri üzrə tərəfdaşlıq imkanları müzakirə olunub. Həmçinin Çin enerji şirkətlərinin Azərbaycandakı fəaliyyəti və qarşılıqlı əməkdaşlığın genişləndirilməsi istiqamətində görülə biləcək işlər nəzərdən keçirilib.

Müzakirələr zamanı hazırda icra olunan "yaşıl enerji" layihələri ətrafında fikir mübadiləsi aparılıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*




# BP artıq "yaşıl enerji" sahəsində də tərəfdaşımızdır

Ölkəmizdə ən iri neft,qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti indi mühüm bir "yaşıl enerji" layihəsinə də imza atıb. İşğaldan azad olunmuş Cəbrayil rayonunda şirkətin tikdiyi "Şəfəq" Çünəş-Eletrik Stansiyasında işlər uğurla davam edir.

Görünür ki, BP bizim "yaşıl gündəliyimiz"in də yaxın iştirakçısı olacaq. Bu niyyət özünü şirkətin həyata keçirdiyi sosial layihələrdə də göstərir. Belə ki, son dövrdə BP təhsilə yönəltdiyi dəstək çərçivəsində bərpaolunan enerji sahəsinə xüsusi yer verir. Artıq bir neçə belə layihə həyata keçirilir, yaxud yekunlaşıb. Elə bu günlərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində başa çatan proqramın ardınca BP ölkəmizdə bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində yerli mütəxəssislərin inkişafına dəstək məqsədli daha bir sosial sərmayə layihəsinə start verib.

Belə ki, BP "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrindəki tərəfdaşları olan SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, "ExxonMobil", MVM və "ONGC Videsh" şirkətlərinin adından bildirib ki, təşəbbüs yerli bilik və bacarıqların gücləndirilməsinə və ölkədə uzunmüddətli potensialın inkişafına davamlı dəstəyin bir hissəsidir.

Layihə bərpaolunan enerji və enerji səmərəliliyi üzrə peşəkar və tədris standartlarına uyğun müstəqil şəkildə təlim proqramları həyata keçirə biləcək yüksəkixtisaslı yerli təlimçilərin hazırlanması üçün nəzərdə tutulub. Təşəbbüs çərçivəsində 20 nəfər yerli mütəxəssis "Təlimçinin Təlimi" proqramında iştirak etmək üçün seçilib. Proqram bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində təlimlər üzrə ixtisaslaşmış, beynəlxalq səviyyədə tanınan və Berlində yerləşən Bərpa Olunan Enerji Akademiyası tərəfindən keçiriləcək.

Proqram təxminən 50 saatlıq sərbəst rejimli onlayn təlimdən və bunun ardınca keçiriləcək səkkiz yarımgünlük virtual sessiyadan ibarət olacaq. Texniki bilikləri müasir tədris metodları ilə birləşdirən bu proqram iştirakçılara həm müvafiq ixtisas sahələri üzrə biliklərini, həm də təlimçilik bacarıqlarını daha da artırmağa imkan verəcək. İştirakçılar qabaqcıl beynəlxalq təcrübədən yararlanmaqla və təlim yanaşmalarını yerli ehtiyaclara uyğunlaşdırmaqla yanaşı, təlim kurslarını müstəqil və səmərəli şəkildə tərtib etməyi, həyata keçirməyi və qiymətləndirməyi öyrənəcəklər. Proqramı uğurla başa vuran iştirakçılara "Təlimçinin Təlimi" sertifikatları təqdim olunacaq.

Layihənin yerli mütəxəssislərə öz bilik və təcrübələrini bölüşmək imkanı yaratmaqla, bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində potensialın gücləndirilməsi üçün dayanıqlı zəmin formalaşdıracağı gözlənilir.

Layihənin başlanması münasibətilə keçirilən tədbirdə çıxış edən BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Yerli potensialın gücləndirilməsi və bacarıqların inkişaf etdirilməsinə dəstək ölkədə sosial sərmayə fəaliyyətimizin prioritetlərindən biri olaraq qalmaqdadır. Azərbaycan öz enerji keçidi hədəflərinə doğru irəlilədikcə bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində biliklərin genişləndirilməsinə və ötürülməsinə töhfə verə biləcək ixtisaslı yerli mütəxəssislərə ehtiyac daha da artır. Bu layihədə məqsədimiz iştirakçıları qabaqcıl texniki və təlim bacarıqları ilə təchiz etməklə yanaşı, proqram başa çatdıqdan sonra belə dəyər yarada biləcək dayanıqlı yerli təlim potensialının formalaşmasına kömək etməkdir".

Müddəti bir il olan bu layihənin dəyəri 49 min dollar təşkil edir. Layihə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi (CECECO) tərəfindən həyata keçiriləcək.

Xatırladaq ki, bu vaxtadək BP öz tərəfdaşları ilə birlikdə ölkəmizdə icraçısı olduğu layihələrə 89 milyard dollardan çox sərmayə qoyub. Onlar eləcə də ən çox töhfə verə biləcəklərinə inandıqları sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək göstərmək öhdəliyi götürüblər. Beləliklə, fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 115 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## Tovuzda bu il ali məktəblərə qəbul olunanlar sırasında şəhid övladları da var

**Bu il qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanan tovuzlu gənclər arasında şəhid övladları da var. Bu barədə ali məktəblərə qəbul olan məzunlarla Tovuz RİH-də keçirilən görüşdə məlumat verilib.**

Görüşdə şəhid övladlarının da ali təhsil müəssisələrinə yüksək balla qəbul olunmaları tədbir iştirakçıları tərəfindən xüsusi qürur və fəxrlə qeyd edilmişdir. Bildirilmişdir ki, Vətən uğrunda canından keçmiş mərd oğulların övladlarının təhsildə qazandıqları uğurlar böyük mənəvi əhəmiyyət daşıyır və onların əldə etdikləri hər bir nailiyyət dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğının nəticəsidir.



RİH-in başçısı Məmməd Məmmədov çıxış edərək yüksək bal toplayaraq ali məktəblərə qəbul olan məzunları təbrik etmiş, onlara gələcək həyatlarında uğurlar arzulamışdır. Qeyd edilmişdir ki, məzunların yüksək nəticələr əldə etməsi yalnız onların şəxsi zəhmətinin deyil, eyni zamanda müəllimlərin fədakar əməyinin, valideynlərin dəstəyinin və məktəb kollektivlərinin fəaliyyətinin nəticəsidir. Ölkəmizdə təhsil sahəsinə göstərilən yüksək diqqət və qayğının təhsilin inkişafına, gənclərin hərtərəfli formalaşmasına və onların intellektual potensiallarını reallaşdırmalarına imkanlar yaratdığını bildirən RİH başçısı qeyd etmişdir ki, hər il tovuzlu məzunların qəbul imtahanlarında göstərdikləri yüksək nəticələr bunun bariz nümunəsidir.

Məzunlar çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmiş və təhsildə yüksək nəticələr əldə etmək, gələcəkdə ölkənin inkişafına öz töhfələrini vermək üçün səylə çalışacaqlarını bildirmişlər.

Sonda yüksək bal toplayaraq tələbə adını qazanan məzunlara Tovuz Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və pul mükafatları təqdim olunmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Lənkəranda dövlət proqramının icrası çərçivəsində növbəti hədəflər müəyyən edilib

**Lənkəranda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfatların və emal müəssisələrinin nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Tədbirin məqsədi zona müşavirəsində irəli sürülmüş təşəbbüslərin icra vəziyyətini, habelə dövlət proqramı çərçivəsində həyata keçirilən digər tədbirlərə dair məlumatları dəqiqləşdirmək olub.**

Çıxış edən ŞİH-in başçısı Taleh Qaraşov Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirəni xatırladaraq ölkədə aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və kənd təsərrüfatının dayanıqlığının təmin edilməsi istiqamətində qarşıya qoyulan vəzifələrin əhəmiyyətini vurğulayıb. O, dövlət başçısının müəyyən etdiyi prioritetlərə uyğun olaraq Lənkəranda görülən işlər barədə məlumat verib. Bildirib ki, rayonda kənd təsərrüfatının inkişafını sürətləndirmək, əkin sahələrindən səmərəli istifadə etmək, məhsuldarlığı artırmaq və mövsümi işləri əlaqələndirmək üçün xüsusi qərargah yaradılıb.

Tədbirdə iştirak edən Prezident Administrasiyasının məsul əməkdaşı Dəyanət Abdullayev çıxışında dövlət proqramının ölkənin aqrar potensialından maksimum səmərəli istifadə etmək və qlobal çağırışlara cavab vermək üçün hazırlanmış genişhəcmli fəaliyyət planı olduğunu qeyd edib. Vurğulayıb ki, dövlət başçısı tərəfindən müəyyən edilmiş prioritet istiqamətlər və yeni dövlət proqramı kənd təsərrüfatının müasir standartlara uyğun inkişafını, innovativ yanaşmaların tətbiqini və kənd yerlərində məşğulluğun genişləndirilməsini nəzərdə tutur.

Çıxış edən fermer və sahibkarlar dövlət proqramının icrası ilə bağlı növbəti dövr üçün hədəflərini açıqlayıb, qarşılaşdıqları çətinlikləri diqqətə çatdırıblar. Lənkəranlı fermer və sahibkarlar dövlət proqramının icrasına yaxından qoşulacaqlarını bildirib, nəzərdə tutulan tədbirlərin uğurla reallaşdırılması üçün bütün potensiallarını səfərbər edəcəklərini vurğulayıblar.

Qarşılıqlı müzakirə formatında davam edən görüşdə iştirakçıların sualları cavablandırılıb.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Gəncədə beynəlxalq yarışlarda yüksək nəticələr göstərən idmançılarla görüş keçirilib



**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Avropa və dünya çempionatlarında müxtəlif idman növləri üzrə yüksək nailiyyətlər əldə edən bir qrup idmançı ilə görüşüb.**

N.Bayramov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti nəticəsində Azərbaycan idmanının uğurlarından danışaraq diqqətə çatdırmışdır ki, bu gün ölkə idmançıları beynəlxalq arenalarda böyük uğurlar qazanırlar. Ölkənin bütün bölgələrində olduğu kimi, Gəncədə də idmana xüsusi diqqət və qayğı göstərildiyini qeyd edən RİH-in başçısı demişdir ki, Prezident İlham Əliyevin göstərişi ilə Gəncədə yeni idman sarayı, həmçinin Gəncə Şəhər Stadionu inşa olunmuş, bir sıra idman obyektlərində təmir və yenidənqurma işləri aparılmışdır: "Yaradılan müasir infrastruktur və əlverişli şərait idmançılarımızın ölkə və beynəlxalq yarışlarda yüksək nəticələr əldə etməsinə imkan vermişdir".

Görüşdə çıxış edən idmançılar onlara göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirmişlər.

Tədbirin sonunda bir qrup idmançıya Gəncə Şəhər İcra Hakimiyyətinin "Təşəkkürnamə"si təqdim olunmuş və xatirə şəkli çəkdirilmişdir.

*S.YUNİSOĞLU, "Azərbaycan"*

# Payız nağılı

## "Məxməri mövsüm" Azərbaycan təbiətinin rəngini və ahəngini kəşf etmək üçün qaçılmaz fürsətdir

**Artıq qızılı payızın ayaq səsləri duyulur. Payızın ovqatı bir ayrıdır, nağıla bənzəyir. Burada nə yayın gurultusu, nə də qışın sərtliyi insanı yorur. Sadəcə sakitlik, rəng və bir az da romantika dolu kövrəklik. Bəlkə də elə buna görə payızda səyahət etmək başqa fəsillərdən fərqlidir. Bu səyahət insanı təbiətin ən sakit, ən rəngarəng və ən duyğulu halı ilə görüşdürür. Bu baxımdan, payız turizmi saralmış yarpaqların arasından keçən yollar, dumanlı dağlar, sərin meşələr və yaddaşda uzun müddət yaşayan mənzərələr deməkdir.**



Mövsümün gəlişi ilə yayın gursəsli, intensiv günlərindən sonra turizm məkanlarında temp tədricən azalır. Bu dövr bir növ mövsümlərarası nəfəsdir. Yəni yay fəslində qonaqlara xidmət göstərən turizm obyektləri və şirkətləri əməkdaşlarının istirahətinə imkan yaradır, eyni zamanda qarşıdakı qış mövsümünə hazırlıqlarını görürlər. Amma bu, o demək deyil ki, payız fəsli turizm üçün səssiz bir mövsümdür.

Turizm üzrə ekspert Kənan Hənifəyev deyir ki, bu müddətdə turizm subyektləri yeni turizm proqramlarının hazırlanması, marşrutların yenilənməsi, xidmətlərin təkmilləşdirilməsi və qış turizmi mövsümünə hazırlıq istiqamətində intensiv işlər həyata keçirirlər: "Payız ayları turizm sektorunda növbəti mövsüm üçün planlaşdırma və heyətlərin peşəkarlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə Qəbələ, Şahdağ və Tufandağ kimi dağxizək mərkəzlərində infrastrukturun texniki baxışdan keçirilməsi, mehmanxana və yerləşmə məkanlarının qış mövsümü üçün rezervasiya sistemlərinin yenilənməsi məhz bu dövrə təsadüf edir. Bundan əlavə, bölgələrdə aqroturizm, sağlamlıq (sanatoriya-kurort) və mədəni turizm istiqamətində payız paketlərinin formalaşdırılması da aktuallıq qazanır".

Yay aylarının sıxlığından və izdihamından dolayı kəşf edə bilmədikləri məkanlar payızda turistlər üçün daha əlçatan olur. Təbiətin sakitləşdiyi, yolların seyrəldiyi bu mövsüm Azərbaycana gələn xarici qonaqlar üçün ölkəni daha yaxından tanımaq imkanı yaradır. Bəlkə də elə buna görə payız aylarında ölkəyə üz tutan turistlərin sayı yay mövsümündən o qədər də fərqlənmir. Yayda daha çox sərin iqlimdən gələn turistlərə rast gəlinirsə, payızda isti ölkələrdən gələn qonaqların sayı artır. Xüsusilə Fars körfəzi ölkələrindən gələnlər üçün Azərbaycanın payızı tamam başqa bir aləmdir. Sarı-qızılı yarpaqlara bürünən meşələr, sakit parklar, al-əlvan rəngə boyanan bağlar onları özünə çəkir. Ərəb ölkələrindən gələn turistlər üçün mülayim, bəzən də yağışlı, çiskinli və küləkli payız havası fərqli bir təəssürat yaradır. Onların öyrəşdikləri isti iqlimdən sonra Azərbaycanın sərin nəfəsi, yağışın şəhər küçələrinə gətirdiyi romantika və dumanlı dağ mənzərələri əsl təbiət tablosuna çevrilir.

Amma payızın sehri yalnız havada və rənglərdə deyil. Bu fəsil həm də bolluq fəslidir. Bağlarda yetişən heyva, nar, xurma, kivi, naringi, portağal, limon və zeytun sanki süfrələrə təbiətin öz əli ilə çəkilmiş rəngli bir tablo gətirir. Yayın meyvələri ilə vidalaşan yollar bu dəfə payızın şirin nemətləri ilə turistlərə "gəl-gəl" deyir. Qubanın "Alma festivalı", Göyçayın "Nar festivalı", Lənkəranın "Çay, çəltik və sitrus meyvələri festivalı", Qəbələnin "Mürəbbə festivalı" payızın rənglərinə daha bir çalar qatır. Bu festivallar hər il özünəməxsusluğu ilə turistləri bölgələrə səsləyir. Burada bolluq bayrama, məhsul isə sevincə çevrilir, milli musiqi və şənliklər insanda xoş ovqat yaradır. Xarici turist üçün isə bütün bunlar yeni və unudulmaz bir təəssüratdır. O, Azərbaycanın təkcə mənzərələrini deyil, bu torpağın bayram sevincini də özü ilə aparır.

Payızın sakit ritmi bəzən beynəlxalq tədbirlərin yaratdığı hərəkətliliklə pozulur, ölkənin turizm həyatında yeni bir canlanma başlayır. Bu dinamikanın turizmə təsirini dəyərləndirən Kənan Hənifəyev payızda keçiriləcək beynəlxalq idman tədbirlərinin və mövsümi biznes konfranslarının xarici turist axınının artmasına təsir göstərəcəyini söyləyir: "Xüsusilə "Formula-1" Azərbaycan Qran-Prisinin keçirilməsi, eləcə də "Sabah" futbol klubunun UEFA Çempionlar Liqasının oyunları çərçivəsində Bakıda keçirəcəyi qarşılaşmalar zamanı ölkəyə xarici qonaqların səfərinin artacağı gözlənilir. Bu cür beynəlxalq tədbirlər yalnız turist axınının artmasına deyil, eyni zamanda ölkənin turizm imkanlarının xarici auditoriyaya daha geniş təqdim olunmasına, mehmanxana, iaşə, nəqliyyat və digər xidmət sahələrində aktivliyin yüksəlməsinə də şərait yaradır".

Ekspertin fikrincə, irimiqyaslı beynəlxalq idman və mədəniyyət tədbirləri birbaşa və dolayısı ilə iqtisadiyyatın müxtəlif sahələrinə təsir göstərir. Payız aylarında paytaxta gələn azarkeş və nümayəndə heyətlərinin hesabına hotel sektorunun gəlirləri artır. Üstəlik, şəhər nəqliyyatı, suvenir satışı, milli mətbəx obyektləri və muzeylərin qazancının yüksəlməsinə təkan verir. Bu da öz növbəsində mövsüm risklərini azaldaraq, ölkədə 12 aylıq davamlı turizm modelini formalaşdırır.

İki-üç günlük payız turları da səyahət həvəskarlarının seçimində xüsusi yer tutur. Quba, Qəbələ, İsmayıllı, Şəki-Qax-Zaqatala, Lənkəran, Masallı, Lerik və Astara istiqamətləri payızın rənglərinə bürünən ən sevilən marşrutlardandır. Xüsusilə cənub bölgəsində sitrus bağları, çay plantasiyaları və kənd mənzərələri bu səfərlərə ayrı bir rəng qatır. Payız həm də piyada turlar üçün ideal mövsümdür. Sərin hava, yarpaqlarla örtülən meşə yolları və dağ cığırları insanı təbiətin qoynunda addımlamağa çağırır. Quba və Qəbələnin meşələrindən Lerik və İsmayıllının dağ yollarına qədər hər cığır öz hekayəsini danışır. Belə turlarda yol yalnız gedilən məsafə deyil, təbiətlə qurulan səssiz bir söhbətdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda turizmin inkişafı üçün görülən işlər payız turizminə də yeni nəfəs gətirir. Bu mövsüm ildən-ilə daha çox diqqət çəkir, daha çox insanı yollara çıxarır. Çünki payız, sadəcə, bir fəsil deyil. O, təbiətin insana "bir az dayan, nəfəs al və yaşadığın anın gözəlliyini hiss et" dediyi zamandır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Tibbi aksiyadan 322 nəfər yararlanıb

**Daşkəsənin Quşçu kəndində "AzerGold" QSC-nin təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin və Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi ilə səyyar tibbi müayinə günləri keçirilib.**

"AzerGold" QSC-nin fəaliyyətə başlamasının 10 illiyi ilə bağlı ənənəvi "Öncə sağlamlıq!" devizi altında təşkil edilən aksiyada xüsusilə "Çovdar" qızıl mədəninin ətrafında yerləşən yaşayış məntəqələrinin sakinlərinin ödənişsiz tibbi müayinədən keçməsi təmin olunub. Ümumiyyətlə, 3 gün ərzində 322 rayon sakini müxtəlif ixtisaslar üzrə həkim müayinəsindən keçib. Sakinlər oftalmoloq, terapevt, LOR, endokrinoloq, kardioloq, nevroloq, pediatr və ümumi cərrahın xidmətlərindən istifadə ediblər. Aksiya zamanı USM, EXO, EKQ, qan və digər ümumi analizlər, virus hepatitlərinin və qanda şəkərin təyini kimi diaqnostik müayinələr də aparılıb.

Sakinlər müasir avadanlıqlarla təchiz edilmiş səyyar oftalmoloji klinikanın xidmətlərindən də yararlanıblar. Burada ümumi göz müayinəsi, görmə diaqnostikası, gözdaxili təzyiqin ölçülməsi, gözün optik gücünün müəyyənləşdirilməsi və digər oftalmoloji müayinələr həyata keçirilib.

Aksiya müddətində ümumilikdə 2165 tibbi xidmət göstərilib. Müayinələr zamanı müxtəlif sağlamlıq problemləri aşkarlanan şəxslərə müalicə və əlavə müayinələrlə bağlı tövsiyələr verilib. İxtisaslaşmış tibbi yardıma ehtiyacı olan vətəndaşlara isə aidiyyəti tibb müəssisələrinə müraciət etmək tövsiyə olunub.

*"Azərbaycan"*

## Masallıda əlilliyi olan uşaqlar üçün xeyriyyə tədbiri təşkil olunub

**Masallı şəhərində əlilliyi olan uşaqlara dəstək məqsədilə növbəti xeyriyyə tədbiri keçirilib. Tədbirdə çıxış edən RİH-in başçısı Araz Əhmədov belə xeyriyyə tədbirlərinin təşkilinin əhəmiyyətini vurğulayıb.**

Bildirilib ki, əlilliyi olan şəxslər, o cümlədən uşaqlar və sosial müdafiəyə ehtiyacı olan digər həssas qruplar dövlətin daim diqqət və qayğısı ilə əhatə olunurlar.

A.Əhmədov sonra tədbirdə iştirak edən uşaqlar və onların valideynləri ilə söhbət edib, onların qayğı və istəkləri ilə maraqlanıb. Qeyd olunub ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən sosial həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə hər zaman xüsusi diqqət və qayğı göstərilir.

Xeyriyyə tədbiri çərçivəsində "Ümid Yelkəni" İctimai Birliyi adından əlilliyi olan 35 uşağa ərzaq payları təqdim olunub.

Uşaqlar və onların valideynləri göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına və "Ümid Yelkəni" İctimai Birliyinə minnətdarlıqlarını bildiriblər.

*S.QUBADOĞLU, "Azərbaycan"*

## Bir qrup gənc Şəmkir RİH-də könüllülük fəaliyyətini başa vurub

**Bununla bağlı keçirilən görüşdə gənclərin fəaliyyəti, qazandıqları təcrübə və gələcək planları ilə bağlı fikir mübadiləsi aparılıb. Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev qeyd edib ki, Azərbaycanda gənclərin ictimai həyatda fəal iştirakının təmin edilməsində, potensiallarının üzə çıxarılmasında könüllülük hərəkatı böyük rol oynayır.**

RİH başçısı bu sahədə Şəmkirdə görülən işlərdən danışarkən bildirib ki, rayon icra hakimiyyəti gənclərin könüllülük prinsipi çərçivəsində dövlət idarəçiliyində və ictimai fəaliyyət sahəsində praktiki təcrübə qazanmasında, peşəkar bacarıqlarının, yaradıcı və innovativ potensiallarının üzə çıxarılmasında əhəmiyyətli rol oynamışdır. Könüllülük fəaliyyəti zamanı qazanılan təcrübənin gənclərin gələcək karyerası üçün əhəmiyyətini vurğulayan R.Tağıyev rayonda gənclərin inkişafına göstərilən diqqət və qayğının davamlı xarakter aldığını, onların rayon icra hakimiyyətində könüllü kimi fəaliyyət göstərmələri üçün lazımi şərait yaradıldığını bildirib.

Görüşdə çıxış edən könüllü gənclər rayon icra hakimiyyətində fəaliyyət göstərdikləri müddətdə təcrübə və səriştə qazandıqlarını, əldə etdikləri bilik və bacarıqların gələcək əmək fəaliyyətlərində mühüm rol oynayacağına əminlik ifadə ediblər.

Sonda könüllülük fəaliyyətini başa vuran gənclərə Şəmkir Rayon İcra Hakimiyyətinin sertifikatları təqdim olunub.

*"Azərbaycan"*





# Vətən deyəndə...





## Bir ömrə sığmayan qəhrəmanlıq dastanı

### Vətən uğrunda son nəfəsinədək döyüşən zabitin portreti

**Bəzən Vətən üçün yazılan ən böyük dastanların müəllifi qələm adamları olmur. O dastanlar səngərlərdə yazılır, torpağın sinəsinə qanla həkk olunur, şəhid məzarlarının başında dil açıb danışır. Həmin qəhrəmanların həyatına nəzər salanda anlayırsan ki, Vətən sevgisi insanın ürəyində, sadəcə, duyğu deyil, taledir, anddır, ömrün mənasıdır.**

Valeh Bədəlov da belə ömür sahiblərindəndir. Ata-anasının ilk övladı, iki qardaşın böyüyü, bir bacının qardaşı, kitabı sevən, üç dil bilən, filologiya təhsili almış gənc ziyalı idi. Qarşısında sakit və işıqlı bir həyat yolu vardı. Məktəbdə Azərbaycan dili və ədəbiyyatdan dərs deyər, kitablarla, sözlərlə, elm və təhsillə bağlı bir ömür sürə bilərdi. Amma onun ürəyindəki başqa bir duyğu - Vətənin səsi idi.

Valeh qələmə deyil, silaha sarılmağa üstünlük verdi. O, Vətəni sevməyin yalnız sözlə ifadə olunan bir hiss olmadığını, onun keşiyində dayanmağın, torpağına sahib çıxmağın, lazım gələndə isə uğrunda canından keçməyin müqəddəs borc olduğunu anlayırdı.

Valeh Vahid oğlu Bədəlov 1990-cı il oktyabrın 10-da Zaqatalanın Aşağı Tala kəndində dünyaya göz açmışdı. Ailədə üç övlad - iki qardaş, bir bacı idilər. Valeh uşaqların böyüyü idi. Tanrı ailəni ilk dəfə Talehin itkisi ilə sınağa çəkdi. Taleh uşaq yaşlarında dünyadan köçdü. Bu itki ailə üçün ağır sarsıntı oldu. Valeh də bir böyük qardaş kimi bu ağrını yaşadı, valideynlərinin kədərini bölüşdü. Bu faciə onun uşaqlıq dünyasında dərin iz buraxsa da, Valehin xasiyyətini müəyyənləşdirən əsas cəhət həmişə ailəsinə və yaxınlarına olan bağlılığı, üzərinə düşən işə məsuliyyətlə yanaşması oldu. O, böyüdükcə bu məsuliyyət hissi daha da artdı. Vətənin müdafiəsini özünə həyat yolu seçəndə isə həmin məsuliyyət duyğusu artıq daha böyük məna daşıyacaqdı. Valeh ailəsinə dayaq olmağı öyrəndiyi kimi, bir gün əsgərinə də dayaq olacaq, döyüş meydanında özündən əvvəl əsgərin həyatını düşünəcəkdi. Onun gələcək qəhrəmanlıq yolunun əsas xüsusiyyətlərindən biri də məhz bu idi - özünü deyil, qarşısındakını düşünmək, təhlükədən geri çəkilməmək və üzərinə düşən məsuliyyətdən sonadək şərəflə çıxmaq. Ailədən başlayan məsuliyyət anlayışı ömrünün sonuna qədər onunla birlikdə oldu.

1996-cı ildə Aşağı Tala kəndindəki Ramiz Şabanov adına 3 saylı tam orta məktəbin birinci sinfinə gedən Valeh 2007-ci ilin mayında orta məktəbi əla qiymətlərlə başa vurdu. Elə həmin il Qafqaz Universitetinin Filologiya fakültəsinə daxil oldu. 2012-ci ildə Azərbaycan dili və ədəbiyyatı ixtisasını bitirdi. Valehin diplomunda yazılan ixtisas həyatının əsas istiqamətini müəyyənləşdirmədi, onun ürəyində başqa bir məktəb vardı - Vətən məktəbi.

Atası Vahid kişi xatirələrini vərəqləyir: "Orta məktəb illərində keçirilən hərbi idman yarışlarında, təlimlərdə fəallıq göstərirdi. Hərbi təlim məşğələlərində avtomat silahının sökülüb-yığılmasında həmişə birinci olardı. Valeh hər danışanda gələcəkdə hərbçi olacağını və ermənilərin torpaqlarımızdan çıxarılmasında iştirak edəcəyini deyirdi".

O vaxt bəlkə də heç kim bilmirdi ki, bu sözlər uşaqlıq arzusu deyil, gələcək qəhrəmanın ömür andıdır. 2013-cü ildə hərbi xidmətini başa vuran Valeh Bədəlov ali təhsilli gənc kimi başqa sahədə də fəaliyyət göstərə bilərdi. Amma ordudan ayrılmadı, səngəri özünə həyat yolu seçdi. Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlayan Valeh burada öz üzərində çalışdı, çətin təlimlər keçdi, XTQ kurslarında, eləcə də Türkiyədə komando kurslarında iştirak etdi. Üç il davam edən hazırlıq və təlimlər zamanı göstərdiyi yüksək nəticələr onu zabit kimi formalaşdırdı. Təlimlərdə birinci olması peşəkarlığının göstəricisi idi. Aprel döyüşləri Valehin döyüşçü xarakterini ortaya qoydu. O, artıq əsgərinin qarşısında gedən, təhlükənin üzərinə birinci atılan, döyüş meydanında soyuqqanlığını qoruyan komandir idi.



Anası Südabə xanımın sözləri isə onun necə bir hərbçi olduğunu daha aydın ifadə edir: "Oğlum əsl hərbçi idi. O, işləri barədə həyat yoldaşına belə heç nə danışmazdı. Adətən hərbi təlimlərə qoşulur, hərbi sirlərə yiyələnirdi".

Bu susqunluğun arxasında böyük bir məsuliyyət vardı. Valeh bilirdi ki, zabitin ailəsinə danışmadığı hər bir sirr bəzən yüzlərlə insanın həyatının təminatıdır. Valeh Bədəlovun Türkiyədə keçdiyi hərbi təlimlər onun peşəkarlığını daha da artırmışdı. 2018-2019-cu illərdə qardaş ölkədə keçirilən təlimlərdə fərqlənmişdi. Anasının söylədiyinə görə, həmin təlimlər zamanı Azərbaycan zabitinin bacarığı Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın da diqqətini çəkmiş, onu ön sıraya çıxararaq "əsl zabit belə olar" deyə qiymətləndirmişdi. Sözsüz ki, bu cümlə bir zabitin aldığı çoxsaylı qiymətlərin içərisində xüsusi məna daşıyırdı. Əsl zabit özünü sözlə deyil, davranışı, intizamı, peşəkarlığı və ən ağır anda göstərdiyi iradə ilə təsdiqləyir. Valeh də belə zabit idi.

Valehin portretini yalnız onun hərbi xidmətindən danışmaqla tamamlamaq mümkün deyil. Çünki bu igid zabitin daxilində döyüşçü ilə yanaşı, sözə, kitaba, elmə bağlı böyük bir dünya vardı. Bacısı Vüsalə Bədəlovanın xatirələri Valehin mənəvi dünyasına işıq salır: "Qardaşım kitab oxumağı çox sevirdi. Bir kitabı oxumağa başladığı zaman bitirənə qədər ətrafla əlaqəsi kəsilərdi".

Bu sözlərin arxasında uşaqlıqdan kitaba, biliyə və böyük arzulara bağlanan bir Valeh görünür. O, bir vaxtlar kosmonavt olmaq istəyən, uşaq yaşlarında Puşkinin "Qafqaz" şeirini əzbər söyləyən, dünyaya böyük maraqla baxan bir oğlan idi. Zaman keçdi, o oğlan böyüdü. Kitabları həyatının bir parçasına çevirdi, üç xarici dil öyrəndi, ali təhsil aldı, Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssis oldu. Amma həyat onu başqa bir yola çağırdı. Çünki o, kitabdan düşünməyi, elmdən öyrənməyi, Vətəndən isə yaşamağın mənasını əxz etmişdi. Bəlkə də elə buna görə Valeh həm ziyalı, həm də döyüşçü oldu.

2020-ci ilin Vətən müharibəsi Valeh Bədəlovun həyatının ən böyük sınağına çevrildi. Onun döyüş yolu Murovdan başladı, sonra Cəbrayıl və Füzuli istiqamətlərində irəlilədi. Qarşısında illərdir Vətən torpaqlarını işğalda saxlayan düşmən vardı. Arxasında isə Azərbaycan əsgərinin gücü, xalqın duası dayanırdı. Döyüş yoldaşları onun komandir kimi davranışını belə xatırlayırlar: "Döyüşdə ilk dəfə iştirak edənlərimiz var idi. Bəzilərimiz bir az çəkinirdik. Bizə tapşırmışdı ki, döyüşdə mənə baxın, özünüzü itirməyin, bir gözünüz məndə olsun". Valehin bu sözləri onun komandir portretinin tam ifadəsidir. Əsgər qorxanda onu danlamaq asandır, amma əsgərin qorxusunu öz cəsarətinlə məğlub etmək - əsl komandirlik budur.

Cəbrayıl döyüşləri onun necə cəsarətli olduğunu bir daha təsdiq etdi. Oktyabrın 3-də Valeh döyüş yoldaşlarından aralıda idi. Ayağa qalxıb döyüşçülərinə tərəf irəliləyəndə düşmən Valehi görüb çarpaz atəşə tutur. Yoldaşları "Yerə yat, komandir!", - deyə qışqırsalar da, Valeh dayanmır. O, atəşin içindən keçərək əsgərlərinin yanına çatır. Bir güllə şalvarını deşib keçmiş, biri də kaskasına dəymişdi. O isə bu təhlükədən danışmaq əvəzinə yoldaşlarına baxıb deyir: "Baxın, biz bura canımız bahasına torpaqlarımızı almağa gəlmişik. Heç nədən qorxmaq lazım deyil". Budur, qəhrəmanlığın əsl ölçüsü! Kaskasına güllə dəyir, amma onun iradəsini sındıra bilmir, o isə ölümün gözünə baxaraq əsgərinə "qorxma", - deyir.

Valeh Bədəlovun döyüş yolu Murovdan Cəbrayıla, oradan Füzuliyə qədər uzandı. O, hər addımda Azərbaycan torpaqlarının azadlığına doğru irəliləyirdi. 2020-ci il oktyabrın 7-də Füzuli istiqamətində gedən ağır döyüşlərin birində onun ömür yolu qəhrəmanlıq zirvəsində başa çatdı. Valeh şəhid oldu, amma ölümü bir son olmadı. Vətən uğrunda ölənlər torpağa qarışmırlar - onlar torpağın yaddaşına çevrilirlər.

Şəhidlik xəbərinin ailəyə çatdığı gün Valehin doğma evinin qapısı əvvəlki kimi açıldı. Amma bu dəfə gələn yox idi. Bacısı Vüsalə xanım deyir: "Biz həmişə Valeh məzuniyyətə gələndə həyət qapısında qarşılayırdıq... Oktyabrın 7-si ölüm xəbəri gələndə... anam gəldi, dedi qardaşını həmişəki kimi qarşılayıb, yola salacağıq. Mənim oğlum bu yolu özü seçdi. Ağlayıb, qışqırıb onu sındırmaram. Elə də etdik".

Bu cümlələrdə bir ananın, bacının, bir ailənin daşıdığı böyük dərd var. Həyət qapısında illərlə gözlənilən addımların səsi kəsildi. Həmin qapıdan Vətən tarixinin bir qəhrəmanı keçdi.

Valeh yalnız igid zabit deyildi, o, ailəsinə, həyat yoldaşına, iki qızına - Aylin və Nilaya bağlı ata idi. Bu gün onun qızlarının dilində ən ağır sual yaşayır: "Ana, atam nə zaman gələcək?" Bu sualın cavabı yoxdur. Çünki bəzi atalar evə qayıtmırlar, onlar Vətənə qayıdırlar. Onların övladlarına qoyduğu ən böyük miras isə şərəfli ad olur. Valeh Bədəlov iki qızına fəxrlə daşıyacaqları bir soyad, başlarını həmişə uca edəcək bir ata adı qoyub getdi. Qarabağ müharibəsi ilə yaşıd olan bir ömür…

Valehin həyatında qəribə və düşündürücü bir zaman uyğunluğu da var. O, Qarabağ münaqişəsinin doğurduğu ağrıların içində dünyaya gəlmişdi. Elə bil taleyin özü onun ömrünə bir missiya yazmışdı: "Bu yarımçıq dastanı tamamla". O, həmin dastanın tamamlanması üçün sonadək döyüşdü. Füzulidə şəhidlik zirvəsinə ucalanda arxasında azadlığa gedən bir yol qoydu. Bu gün Azərbaycan bayrağının Qarabağda və Şərqi Zəngəzurda dalğalanmasında Valeh Bədəlov kimi oğulların qanının, canının, ömrünün payı var.

Valeh Bədəlov ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi şücaətlərə görə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görüldü, "Vətən uğrunda" medalı ilə təltif edildi. Amma onun ən böyük mükafatı dövlət təltifi deyil, adının xalqın yaddaşında yaşamasıdır.

Bir vaxtlar Aşağı Talada stulun üstünə çıxaraq "Qafqaz" şeirini söyləyən balaca oğlan böyüdü və Qafqazın bir parçası olan Qarabağın azadlığı uğrunda canından keçdi. Bir vaxtlar "mən hərbçi olacağam", - deyən uşaq sözünün üstündə durdu. Bir vaxtlar atasına "erməniləri torpaqlarımızdan çıxaracağam", - deyən gənc andını qanı ilə yazdı. Valeh Bədəlov filoloq idi. O, sözün gücünü bilirdi. Elə ona görə də həyatının ən böyük cümləsini qələmlə deyil, qanı ilə yazdı: "Vətən varsa, mən varam. Vətən yaşayacaqsa, mənim ölümüm də əbəs olmayacaq", - dedi.

Bu gün onun məzarı önündə dayananda insanın dilinə söz gəlmir, orada yalnız ürək danışır. Və ürək deyir: "Ruhun şad olsun, Vətən Müharibəsi Qəhrəmanı Valeh Bədəlov! Sən bir ailənin övladı idin. Sonra bir ordunun zabiti oldun. Daha sonra bir xalqın qəhrəmanına çevrildin. İndi isə Azərbaycanın əbədi yaddaşındasan. Sənin kimi oğullar yaşadıqca Vətən əyilməz, bayraq enməz!

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## İki qardaş, bir amal

**Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik göstərərək şəhidlik zirvəsinə yüksələn, hünəri ilə adını qəhrəmanlıq tariximizə yazan igidlərimizdən biri də baş çavuş Nahid Musa oğlu Ağalarovdur.**

Qısa, amma şərəfli döyüş yolu keçən Nahid 19 dekabr 1983-cü ildə Goranboyun Xan Qərvənd kəndində anadan olub. Orta təhsilini başa vuran Nahid 2002-ci ildə ordu sıralarına çağırılıb. O, kiçik yaşlarından erməni işğalçılarına qarşı nifrət hissi ilə böyümüşdü və bu, səbəbsiz deyildi. Çünki böyük qardaşı Yaşar Ağalarov Birinci Qarabağ müharibəsində Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Erməni işğalçıları torpaqlarımıza hücum çəkəndə Yaşar könüllü yurdumuzun müdafiəsinə yollanmışdı. Bir çox çətin əməliyyatlarda iştirak edən Yaşar Daşaltı əməliyyatında itkin düşmüşdür.

Həm də bu səbəbdən Nahid ordu sıralarına çağırılanda ürəyi erməni qəsbkarlarna qarşı nifrət hissi ilə döyünürdü. Düşmənlərdən Vətənin və qardaşının qisasını almaq üçün Qarabağın azadlığı uğrunda müharibənin başlamasını gözləyirdi. Nahid Ağalarov xidmətə başladığı ilk günlərdən silahların dilini dərindən öyrənməyə çalışırdı. Yaxşı bilirdi ki, hazırlıqlı əsgər düşmənin qənimidir.

2003-cü ildə xidmətini başa vurub doğmalarının yanına qayıdan Nahid başqa sahələrdə işləsə də, fikri ordu sıralarında qalmışdı. Yenidən ömrünü hərbi xidmətə bağlamaq istəyirdi. Bu arzusunu 2014-cü ildə həyata keçirdi. Ordu sıralarına qayıtdı, Vətənə əsgər oldu, torpaqlarımızın müdafiəsində dayandı.

Nəhayət, hamı kimi Nahid Ağalarovun da gözlədiyi gün - 27 sentyabr 2020-ci il qapımızı döydü. Qarabağın və Şərqi Zəngəzurun erməni işğalçılarından azad olunması uğrunda müharibə başladı. Baş çavuş Nahid əməliyyatların ilk günlərindən döyüşlərə atıldı. Onların bölüklərinin şəxsi heyəti əvvəlcə Füzulinin, sonra Xocavəndin azadlığı uğrunda vuruşdu. Neçə-neçə qanlı döyüşlərdə iştirak edən Nahid Ağalarov üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Dəqiq atəşlə onlarla düşməni məhv etdi, həm qardaşı Yaşarın, həm də başqa şəhidlərimizin intiqamını aldı.

Baş çavuş Nahid Ağalarov döyüşədöyüşə Şuşaya qədər gedib çıxdı. Başqa



*Yaşar Ağalarov*



*Nahid Ağalarov*

əsgərlər kimi, düşmən üzərində qazanılan Zəfərdə onun da payı oldu. Müharibə başlayandan sona qədər əldə silah işğalçılara qarşı vuruşdu, bir an, bir gün olsun belə, silahını yerə qoymadı.

İkinci Qarabağ müharibəsi Zəfərlə başa çatsa da, qarşıda işğalçılardan azad edilməli olan Xankəndi, Xocalı, Ağdərə, Əsgəran və başqa şəhər və kəndlər var idi. O üzdən Nahid vuruşmaq, torpaqlarımızı erməni işğalçılarından tamamilə təmizləmək arzusu ilə yaşayırdı. Amma təəssüflər olsun ki, Nahid Ağalarov 23 noyabr 2020-ci ildə Şuşa yolu ətrafında komandirin verdiyi döyüş tapşırığını yerinə yetirərkən düşmənlərin basdırdığı minaya düşərək həlak oldu. Şəhid ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

Nahidin xanımı Tinatin Ağalarova deyir ki, həyat yoldaşı çox qayğıkeş idi: "2018-ci ilin noyabr ayında qızımız Zəhra dünyaya gəldi. Valideyn olduğumuz üçün çox sevinirdik. Böyük sevinc içində olan Nahid deyirdi ki, Zəhra balamı ürəyimdən keçən kimi böyüdəcəyəm, əlindən tutub məktəbə aparacağam. Təəssüf ki, Nahid həmin günü görə bilmədi. Müharibəyə yola düşəndə Zəhra balamızla bağlı olan arzularını mənə tapşırdı. Torpaqlarımızı düşmən tapdağından azad edəcəyini, şəhidlərin intiqamını alacağını dedi. Şəhidliyi bahasına olsa da, dediyini etdi. Nahidi sonuncu dəfə noyabrın 10-da gördüm. İkigünlük icazə alıb evə gəlmişdi. Axırıncı dəfə noyabrın 23-də zəng vurmuşdu, xeyli danışdıq. Deyirdi ki, qızımı da, səni də çox sevirəm, özünüzə yaxşı baxın. Balamı sənə əmanət edirəm. Elə həmin gün də şəhid xəbərini eşitdik. Demə, şəhid olacağı ürəyinə damıbmış. Gözüm həmişə, hər yerdə onu axtara-axtara ömür yoluma davam edirəm. Qızım Zəhranı Nahidin adına, göstərdiyi qəhrəmanlığa layiq böyüdəcəyəm".

Bir ailədən iki oğul - Yaşar və Nahid Ağalarov qardaşları şəhiddirlər. İkisi də Qarabağın azadlığı uğrunda gedən əməliyyatlarda həlak olublar - Yaşar birinci, Nahid isə ikinci Qarabağ müharibəsində. Ayrı-ayrı vaxtlarda şəhid olsalar da, bir amal, bir məqsəd uğrunda, ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə eyni məkanda - Şuşada canlarından keçiblər. Hər birinin ömrü bir qəhrəmanlıq dastanı olan belə igid oğulları xalqımız heç vaxt unutmur, xatirələrini ehtiramla yad edir, onlarla qürur duyur!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## "Bir dastan, bir nəsil"



**"YAŞAT" Fondunun təşkilatçılığı, Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin dəvəti və "Azərbaycan Hava Yolları" QSC-nin dəstəyi ilə şəhid övladları üçün təşkil olunan "Bir dastan, bir nəsil" layihəsi başa çatıb.**

Bu barədə AZƏRTAC-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, əsas məqsəd psixoloji dayanıqlığın və şəxsi inkişafın dəstəklənməsi, asudə vaxtın səmərəli təşkili, həmçinin yeni dostluq və ünsiyyət imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində iştirakçılar Türkiyənin tarixi və mədəni irsi ilə tanış olmaq məqsədilə müxtəlif məkanları ziyarət ediblər.

Proqrama uyğun olaraq iştirakçılar Çanaqqalada keçirilən "Kültür yolu" Festivalına qatılıb, "Tamamilə doluyuz" tamaşasını izləyiblər. Növbəti günlərdə iştirakçılar Şəhidlər xiyabanlarını, tarixi məkanları ziyarət ediblər. Proqram çərçivəsində idman və sosial fəaliyyətlərə də xüsusi yer ayrılıb, dostluq məqsədilə bocce turniri keçirilib. Çanaqqala On Səkkiz Mart Universiteti ilə əməkdaşlıq çərçivəsində iştirakçılar üçün psixoloji mövzuda maarifləndirici görüşlər də təşkil olunub.

Layihə çərçivəsində Türkiyənin ailə və sosial xidmətlər nazirinin müavini ilə görüş keçirilib. Nazir müavini Adil Çalışkan gənclərlə görüşərək onlarla fikir mübadiləsi aparıb.

İştirakçılar İstanbul şəhərində də olublar. Onlar burada Azərbaycanın bu şəhərdəki baş konsulu Zamin Əliyev ilə görüşüblər. Türkiyə Böyük Millət Məclisinin deputatı Şamil Ayrım görüşdə iştirak edib.

Sentyabrın 1-7 tarixlərini əhatə edən layihədə 17-18 yaşlı 26 şəhid övladı iştirak edib.

## Türkiyənin İğdır vilayətində Qərbi Azərbaycandan olan qəhrəmanın abidəsi təmir edilib

**Türkiyənin Azərbaycanla həmsərhəd olan İğdır vilayətinin rəhbərliyi XX əsrin birinci yarısının qəhrəmanlarından biri, erməni quldur dəstələrinə qarşı mübarizəyə töhfə vermiş Kərbəlayi İsmayıl Çəmənin abidəsini təmir edib və ətrafdakı ərazini abadlaşdırıb.**

AZƏRTAC xəbər verir ki, K.İ.Çəmən 1870-ci illərdə Qərbi Azərbaycanın Vedi rayonunda anadan olub. Ömrünün son illərini İğdırda keçirən K.İ.Çəmən digərləri ilə birlikdə Araz çayını keçərək, buraya gəlməyə məcbur olub. O, Türkiyədə Çəmən soyadını Qərbi Azərbaycanda doğulduğu yaşayış məntəqəsinin adından götürüb. K.İ.Çəmən 1948-ci ildə vəfat edib.



İğdırın Karakoyunlu rayonunun Taşburun qəsəbəsində yerləşən azərbaycanlı qəhrəmanın məzarı onilliklər keçməsinə baxmayaraq, şərq vilayətinin sakinlərinin və qonaqlarının ziyarət etdiyi məkan olaraq qalır. K.İ.Çəmənin məzarüstü abidəsinin önündə Türkiyə və Azərbaycan bayraqları ucaldılıb.

Türkiyə-Azərbaycan Dostluq Cəmiyyətləri Federasiyasının sədr müavini Sərdar Ünsal bu vilayətin hakimiyyət orqanlarına minnətdarlığını bildirib. O qeyd edib ki, bərpa işlərindən sonra qəhrəmanın məzarı daha yaxşı vəziyyətə gətirilib və bu, regionun tarixi irsinə göstərilən hörmətin növbəti təzahürüdür. "Tarixdə mühüm iz qoymuş qəhrəmanların xatirəsini yad etmək bizim borcumuzdur. Çəmən İrəvanda və ətraf rayonlarda yaşayan azərbaycanlıların hüquqları uğrunda fəal mübarizə aparıb. İki qardaş ölkənin bayraqlarının dalğalandığı belə mühüm məkanların xatırlanmasına və onların qorunmasına sevinirəm", - deyə S.Ünsal diqqətə çatdırıb.

*Mənəviyyat mövzusunda*

# Boyunbağı

## Yaxud qayınana da anadır

**Bu, olmuş hadisədir, Bakıya yaxın qəsəbələrin birində baş verib. Bizsə bu hekayəti olayın yaşandığı ailənin üzvlərinin birinin dilindən eşitmişik.**

Ənvər kişi təmkinli və tədbirli adam idi. Dörd oğul atası olduğundan fikirləşirdi ki, əvvəlcədən onların ev məsələsinin qayğısına qalmaq lazımdır. Elə bu niyyətlə də həyatinin o biri başında, öz evi ilə üzbəüz böyük oğlu Mehmanın adına ikiotaqlı xudmani bir ev qurmuşdu. Sonrasına isə ömür vəfa etmədi.

Xəstəlik yatağında olanda arvadına vəsiyyət etdi ki, bax, Sənəm, mənə uzun-uzadı yas saxlama. Uşaqlar barədə fikirləş, əslində, dördünün də evlənmək vaxtı çatıb. Mehmanın evi var, Mahiri isə öz yanında saxlayarsan. Sonbeşik kimi qoy yurdçumuz o olsun. Qaldı ki Maliklə Mehraca, onlara görə də narahat olma. Maşallah, oğullarımız fərasətlidir. Şükür ki, aralarında birlik, mehribanlıq da var. Dörd qardaş birləşib məsələni həll edəcəklər. İndi hər yanda tikinti gedir. Ev almağa, tikdirməyə hər cür imkan var. Hökumət də cavan ailələrə kömək edir, ipoteka-flan...

Sənəm ərinin vəsiyyətinə əməl etdi. Artıq bir neçə ay idi ki, evinə gəlin gətirmişdi. Mehman özünün fizika fənnindən dərs dediyi məktəbdə işləyən ibtidai sinif müəllimi Mehri ilə ailə qurmuşdu. Sənəm ona baxıb sevinərək ürəyində deyirdi: "Xoşxasiyyət qızdır, həm də qəşəngdir, oğluma yaraşır. Adları da bir-birinə oxşayır, işləri, peşələri də eynidir. Bu günə şükür".

Ancaq bir neçə gündür gəlinin eyninin açılmaması ananı çox narahat edirdi. Ən pisi isə o idi ki, Sənəm bunun səbəbini öyrənə bilmirdi.

Növbəti günlərin birində o gördü ki, Mehri həyətdəki gilas ağacının altında, otların arasında nə isə axtarır. Demə, gəlin toy hədiyyələrindən olan qızıl boyunbağını itirib. Yarım aydır elə onu axtarır. Çox peşmançılıq çəkir. Özünü məsuliyyətsizliyi üçün qınayırmı? Yoxsa, itirilən əşyanın heç də ucuz bir şey olmadığına görə və asanlıqla alınmadığına görə heyifslənirmi? Yoxsa, toy hədiyyəsinin itməsinin yaxşı bir əlamət sayılmadığına görə təlaş keçirirmi?.. Hər nə isə narahatlığı gündən-günə artırdı. Sənəm ona təsəlli verməkdən yorulmuşdu:

- Ay qızım, canınız sağ olsun. Təki zərər dünya malına dəysin.

Amma bu öyüd-nəsihət fayda vermirdi. Sənəm "nə etməli" deyə düşünürdü. Bir gecə səhərəcən yata bilmədi. Səhər tezdən kiçik oğlunu səslədi:

- Ay Mahir, bir az tez oyan, bala, çayını iç, taksi sifariş elə, mənimlə bir "Moskva" univermağına dəyək.

Sənəm ikinci oğlunu evləndirmək üçün kisə dibinə bir qədər pul atmışdı. Onu da götürüb yollandı "Moskva" Ticarət Mərkəzinə. Əlindəki vəsaitə müqabil qıvraq bir qızıl zəncir aldı. Evə dönən kimi onu Mehrinin boynundan asdı və möhkəm-möhkəm tapşırdı ki, indən belə itirdiyi zinət əşyasını yadına salmasın.

Bundan bir həftə sonra isə "möcüzə" baş verdi. İtən boyunbağı tapıldı. Özü də haradan? Mehrinin cehiz gətirdiyi dolabın üs-




tündən. Deməli, dolabın üstünə çəkilmiş sarı rəngli, zərli sapla işlənmiş örtük oraya qoyulmuş qızıl zənciri diqqətdən yayındırmış, gözəgörünməz etmişdi...

Həmin gün məktəbdə dərs saatı çox olan Mehman evə döncək anası ilə həyat yoldaşının mübahisə etdiyini eşidib həyətdə ayaq saxladı. Təşvişə düşdü, irəliləyə bilmədi. Sanki ayağı yerə pərçimlənmişdi, amma içəridən gələn səsləri aydın eşidirdi. Gəlin deyirdi:

- Ana, mən bu zəncirin hər ikisinə sahib çıxa bilmərəm. Hansı birini isə götür. Axı sənin evlənəsi hələ üç subay oğlun var.

Qayınana isə etiraz edirdi:

- Ay bala, hər ikisi sənin qismətindir. Biri itməyə, yaxud itib sonra tapılmaya da bilərdi. İkincisini almağa ehtiyac da qalmazdı. Allahın işidir. Sən mənim birinci gəlinimsən. Qoy bəzək-düzəyin çox olsun, mənim də gözümü oxşasın.

Mehman yavaş-yavaş pillələri qalxıb anasıgilin eyvanına daxil oldu. Qayınana ilə gəlin ana-bala kimi qucaqlaşıb kövrəlmişdilər...

...Təxminən il yarım sonra ikinci qardaşı evləndirmək qərarına gəldilər. Ailə bir yerə toplaşıb toy barədə məşvərət edirdi. Ən sonda Mehri dindi. Qayınanasından xahiş elədi:

- Ana, sabah bir neçə saat balaca Sənəm səninlə qalsın. Biz Mehmanla "Moskva" univermağına dəyəcəyik. Təzə gəlinin boyunbağısı bizdən...

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Musiqinin şəfaverici gücü

Ruhumuzu oxşayan musiqinin həyatımızda əyləncə və xoş ovqat yaratmaqdan daha böyük rolu var. Sevdiyimiz mahnının ilk notları bəzən illər əvvəl yaşadığımız hadisəni xatırladır, sürətli ritm bizi hərəkətə gətirir, sakit melodiya isə gərginliyi azaldır. Son illərdə alimlər bu təsirlərin arxasında dayanan mexanizmləri daha dərindən araşdırmağa başlayıblar. Məqsəd artıq yalnız "musiqi insana yaxşı təsir edir" qənaəti ilə kifayətlənmək deyil. Tədqiqatçılar ritm, temp və melodiya kimi ayrı-ayrı komponentlərin beynin hansı sistemlərinə təsir etdiyini və bu xüsusiyyətlərdən tibdə necə istifadə oluna biləcəyini müəyyənləşdirməyə çalışırlar.




Musiqinin insan yaddaşına təsirinin ən təsirli nümunələrindən biri 2014-cü ildə ekranlara çıxan "Alive Inside: A Story of Music and Memory" sənədli filmində əks olunub. Filmdə demensiyadan əziyyət çəkən 94 yaşlı Henri uzun müddət ətraf aləmə çox az reaksiya verən vəziyyətdə görünür. Sosial işçi Dan Koen ona qulaqcıq taxaraq gəncliyində sevdiyi musiqini səsləndirir. Bir qədər əvvəl başını aşağı salaraq əlil arabasında sakit oturan Henri qəfil canlanır, gözlərini açır, başını qaldırır, ritmə uyğun hərəkət etməyə və keçmişindən danışmağa başlayır. Bu səhnə musiqi və yaddaş arasındakı mürəkkəb əlaqənin simvolik nümunələrindən birinə çevrilir.

2025-ci ildə yenilənmiş "Cochrane" elmi icmalına 15 ölkədə aparılmış 30 tədqiqat və ümumilikdə 1720 demensiyalı insan daxil edilib. Nəticələr musiqiyə əsaslanan müdaxilələrin adi qayğı ilə müqayisədə depressiv əlamətləri müəyyən qədər yaxşılaşdıra və ümumi davranış problemlərinə müsbət təsir göstərə biləcəyini göstərib. Bəs musiqi beyinə necə çatır? Proses havadakı səs dalğalarının qulaq pərdəsinə çatması ilə başlayır. Titrəmələr orta qulaqdakı kiçik sümüklər vasitəsilə daxili qulağa ötürülür. Buradakı tük hüceyrələri mexaniki titrəmələri elektrik siqnallarına çevirir. Siqnallar eşitmə siniri və beyinin müxtəlif strukturları vasitəsilə eşitmə qabığına çatdırılır. Ancaq musiqinin beyində yaratdığı proses bununla bitmir. Melodiyanı dinlədiyimiz zaman hərəkət, diqqət, yaddaş, emosiya, gözlənti və mükafatlandırma ilə əlaqəli geniş neyron şəbəkələri də fəaliyyətə qoşulur. Məhz buna görə musiqinin təsiri, sadəcə, "eşitməkdən" daha mürəkkəb proses hesab olunur.

Florida Atlantik Universitetinin neyroalimi və fiziki Edvard Large uzun illərdir beyinin ritmi necə qəbul etdiyini araşdıran alimlərdəndir. Onun üzərində çalışdığı "neyron rezonans" yanaşmasına görə, beyinin öz ritmik fəaliyyəti xarici səs ritmləri ilə qarşılıqlı əlaqəyə girə bilər. Bu sahədə aparılan təcrübələr xüsusilə maraqlı nəticələr ortaya qoyub. Large və həmkarlarının eksperimentlərində elə baraban ardıcıllıqları yaradılıb ki, dinləyici faktiki olaraq səsləndirilməyən sabit ritmi hiss edib. Beyinin fəaliyyəti maqnitoensefaloqrafiya ilə ölçüldükdə eşitmə qabığında məhz həmin "çatışmayan" ritmin tezliyinə uyğun neyron aktivliyi aşkarlanıb. Bu isə beyinin musiqidəki ritmi passiv şəkildə qəbul etməklə kifayətlənmədiyini, ritmik quruluşun müəyyən hissələrini daxildə formalaşdıra bildiyini göstərir.

Musiqinin ağrı hissinə təsirinə dair yeni araşdırmalar da diqqət çəkir. MakGill Universitetinin tədqiqatçıları tərəfindən aparılmış və 2025-ci ildə "Pain" jurnalında dərc olunmuş tədqiqatda musiqinin tempinin insanın fərdi, təbii ritminə uyğunlaşdırılmasının əhəmiyyəti araşdırılıb. İştirakçıların əvvəlcə tanış melodiyanı hansı təbii sürətlə ifa və ya ritmlə müşayiət etdikləri müəyyənləşdirilib. Daha sonra onlara bu tempə uyğun, eləcə də 15 faiz daha sürətli və 15 faiz daha yavaş musiqi dinlədilib. Ən aşağı ağrı göstəriciləri musiqinin insanın öz təbii tempinə uyğun olduğu halda qeydə alınıb. Təcrübədə sağlam insanlarda istilik vasitəsilə yaradılmış eksperimental ağrıdan istifadə edildiyindən nəticələri xroniki xəstələrə avtomatik şamil etmək olmaz. Bununla belə, araşdırma gələcəkdə "hamı üçün eyni musiqi" yanaşmasından fərdiləşdirilmiş musiqi müdaxilələrinə keçidin mümkünlüyünü göstərir. Yəni terapevtik təsir yalnız hansı mahnının seçilməsindən deyil, onun hansı sürətlə səsləndirilməsindən də asılı ola bilər.

Alimləri maraqlandıran başqa bir istiqamət musiqidən daha çox dəqiq tezlikdə verilən səs və işıq stimullarının beyinə təsiridir. Massaçusets Texnologiya İnstitutunun mütəxəssislərinin araşdırmaları xüsusilə 40 herslik qamma aktivliyinə yönəlib. Qamma dalğaları diqqət, qavrayış və yaddaş kimi proseslərlə əlaqələndirilən sürətli beyin ritmləridir və Altsheymer xəstəliyində onların fəaliyyətində dəyişikliklərin olduğu müşahidə edilir. 2019-cu ildə dərc edilən heyvan təcrübəsində Altsheymer xəstəliyinə bənzər patologiyası olan siçanlara 40 hers tezliyində səs stimulları verilib. Tədqiqatçılar eşitmə qabığı və hipokampusda qamma aktivliyinin gücləndiyini, amiloid-beta patologiyasının bəzi göstəricilərinin azaldığını və heyvanların müəyyən yaddaş testlərində daha yaxşı nəticə göstərdiyini bildiriblər. Səs stimulu 40 herslik yanıb-sönən işıqla birlikdə tətbiq ediləndə təsir daha geniş beyin sahələrində müşahidə olunub.

Musiqinin tibdə tətbiqinin daha praktik nəticələr verdiyi istiqamətlərdən biri isə hərəkət və yeriş reabilitasiyasıdır. Con Hopkins Universitetinin Musiqi və Tibb Mərkəzində nevroloq Aleksandr Pantelyat və həmkarları uzun müddətdir Parkinson xəstəliyi, insult və digər nevroloji pozuntularda musiqi və ritmə əsaslanan müdaxilələri araşdırırlar. Mərkəzin yanaşmasına görə, musiqinin tibbi potensialından səmərəli istifadə üçün onun beyinə və bədənə hansı mexanizmlərlə təsir etdiyini dəqiq müəyyənləşdirmək lazımdır. Bu istiqamətdə hazırlanan texnologiyalardan biri "MedRhythms" şirkətinin "InTandem" sistemidir. Sistem ayaqqabıya taxılan sensorlar vasitəsilə insanın yerişi haqqında məlumat toplayır və musiqi əsaslı ritmik eşitmə stimullarını hərəkətə uyğunlaşdırır. Bu texnologiya ilə bağlı aparılmış klinik tədqiqatda 87 insult keçirmiş insan iştirak edib. Beş həftəlik proqramdan sonra "InTandem" qrupunda yeriş sürətindəki orta artım saniyədə 0,14 metr, nəzarət qrupunda isə 0,06 metr olub. Klinik baxımdan əhəmiyyətli yaxşılaşma göstərənlərin payı müvafiq olaraq 40 və 13 faiz təşkil edib. Beləliklə, ritmə əsaslanan sistemdən istifadə edən qrupda cavab verənlərin nisbəti təxminən üç dəfə yüksək olub.

Parkinson xəstəliyi ilə bağlı nəticələr də maraqlıdır. 2025-ci ildə "npj Parkinson's Disease" jurnalında dərc edilən sınaqda 44 nəfər iki qrupa ayrılıb. Altı həftə ərzində bir qrup fərdiləşdirilmiş musiqi əsaslı ritmik eşitmə sistemindən istifadə edib, digər qrup isə belə stimul olmadan yerimə proqramını həyata keçirib. Təhlilə daxil edilən iştirakçılar arasında musiqi sistemi ilə məşq edənlərdə gündəlik addımlar başlanğıcla müqayisədə orta hesabla 3343 addım artıb. Nəzarət qrupunda artım 172 addım olub. Musiqi sistemi ilə məşq edənlər daha çox orta intensivlikli yerimə həyata keçirib və yeriş ritminin sabitliyində də yaxşılaşma qeydə alınıb.

Bütün bu araşdırmalar musiqiyə tibdə yeni gözlə baxmağa imkan verir. Söhbət, sadəcə, xəstəyə sevdiyi mahnını dinlətməkdən getmir. Gələcəyin yanaşması insanın yeriş sürətini, təbii ritmini, nevroloji vəziyyətini, musiqi zövqünü və hətta beyinin müəyyən tezliklərdəki fəaliyyətini nəzərə alan fərdiləşdirilmiş "akustik resept" ola bilər. Lakin elm hələ yolun başlanğıcındadır. Bəlkə də gələcəkdə həkimin reseptində yalnız preparatın adı və dozası deyil, müəyyən ritm, temp və melodiya xüsusiyyətləri də yer alacaq. O zaman musiqinin müalicəvi gücü onun, sadəcə, gözəl səslənməsində deyil, beyinin və bədənin öz ritmi ilə düzgün zamanda "danışa" bilməsində olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# D.Tramp respublikaçılar Konqresə nəzarəti saxlayarsa, hər bir yetkin amerikalıya 5000 dollar vəd edib

ABŞ Prezidenti Donald Tramp noyabr ayında keçiriləcək ara seçkilərdə respublikaçılar Nümayəndələr Palatasına və Senata nəzarəti saxlayarsa, hər bir yetkin ABŞ vətəndaşına 5000 dollar ödəyəcəyinə söz verib. O, bu açıqlamanı respublikaçıların Texasın Dallas şəhərində keçirilən Milli Konqresində çıxışı zamanı verib.



Prezident bildirib: "Əgər respublikaçılar inanılmaz iqtisadi uğurumuz səbəbindən Nümayəndələr Palatasına və Senata nəzarəti saxlayarsa, mən Amerika Birləşmiş Ştatlarının hər bir yetkin vətəndaşına 5000 dollar dividend ödəyəcəyəm". O izah edib ki, bu, "uğurlu şirkətlərin investorlara dividend ödəməsinə bənzəyir". Həmçinin əlavə edib: "Yeganə məhdudiyyət dividendlərin ABŞ-də xərclənməsidir. Biz sizin Kanadaya gedib pulunuzu orada xərcləməyinizi istəmirik. Biz sizin Çinə, Almaniyaya getməyinizi istəmirik... Siz pulunuzu ABŞ-də xərcləməlisiniz".

Amma bu vəsaitləri kimin dəqiq idarə edəcəyi, Amerika hökumətinin vətəndaşların xərclərini necə izləyəcəyi və hətta bu cür ödənişlərin nə dərəcədə qanuni olduğu hələ də məlum deyil. Respublikaçıların Milli Konqresində iştirak edən BBC müxbirinin qeyd etdiyi kimi, güman ki, ABŞ Prezidentinin seçici kampaniyası kontekstində amerikalılara bu cür ödənişlər vəd etməsi tarixdə ilk dəfədir. Çünki bu, kiçik məbləğ deyil. 2025-ci ildə ABŞ-də yetkin əhalinin sayı təxminən 267 milyon nəfər olub. Bu o deməkdir ki, onların hamısına 5000 dollarlıq "Tramp dividend"inin ödənilməsi üçün 1,34 trilyon dollar tələb ediləcək. Amma bir iş də var ki, Demokrat Partiyası hazırda əksər rəy sorğularında liderlik edir və demokratlar Nümayəndələr Palatasına və hətta Senata nəzarəti ələ keçirmək üçün ciddi şansa malikdirlər.

Bu reallığın sonunda Texasda çıxışı zamanı D.Tramp bildirib ki, noyabr ayında Respublikaçılar Partiyasının məğlubiyyəti amerikalıların "sərhədlərimizi itirməsi, vergi endirimlərimizi itirməsi və təhlükəsizliyimizi itirməsi" olacaq. ABŞ Prezidenti əlavə edib: "Siz iki il əvvəlki cəhənnəmə qayıdacaqsınız".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Serbiya Prezidenti növbədənkənar parlament seçkiləri elan etdi

Serbiya Prezidenti Aleksandar Vuçiç Xalq Skupşinasının buraxılması və oktyabrın 25-də növbədənkənar parlament seçkilərinin təyin edilməsi barədə fərman imzalayıb. O, xalqa 8 dəqiqəlik müraciət edib və sonra canlı yayımda parlamentin buraxılması haqqında sənədə imza atıb. Fərman rəsmi olaraq dərc edildikdən sonra qüvvəyə minib.



Bazar ertəsi Serbiya hökuməti Prezidentdən parlamenti buraxmasını və növbədənkənar parlament seçkiləri təyin etməsini istəyib. Növbəti gün Vuçiç dövlət televiziyası RTS-də bu tələbi qəbul etdiyini və çərşənbə günü növbədənkənar seçkiləri rəsmi olaraq elan edəcəyini bildirib. "Seçkilər 25 oktyabrda keçiriləcək", - deyə A.Vuçiç bəyan edib. Bu qərar təxminən 2 ildir davam edən kütləvi tələbə etirazlarının fonunda verilib. 2024-cü ilin noyabr ayında Novi Sad şəhərində dəmir yolu stansiyasında beton örtüyün uçması nəticəsində baş vermiş faciə etirazlara səbəb olub. Hadisədə 16 nəfər həyatını itirmişdir.

A.Vuçiç 2017-ci ildən Serbiyanın Prezidentidir. O, əvvəllər üç il hökumətə rəhbərlik edib. Onun ikinci və son prezidentlik müddəti 2027-ci ildə başa çatır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin rəhbərliyi və kollektivi Xalq artisti

**ALEKSANDR ŞAROVSKİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3319
Sifariş 1151

Qiyməti 60 qəpik